RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 242 (9121) CÜMƏ, 4 noyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Müzəffər Komandanın “Dəmir yumruq” həqiqəti

**Xalqımız torpaqlarımızın uzunsürən işğaldan azad edilməsinin və möhtəşəm tarixi Zəfərinin ikinci ildönümünü qeyd edir.**

Təcavüzkar Ermənistanın tam hərbi iflası ilə nəticələnən İkinci Qarabağ müharibəsi Azərbaycanın hərbi qüdrətinin, xalqımızın qətiyyət və əzminin, döyüşçülərimizin misilsiz qəhrəmanlığının və Ali Baş Komandanın əsl sərkərdə qabiliyyətinin, siyasi iradəsinin və uzaqgörənliyinin təntənəsi kimi tariximizin şərəf və qürur səhifəsinə çevrilmişdir. 44 günlük Vətən müharibəsinin başlıca yekunları sırasında Azərbaycanın dünya miqyasında qalib dövlət, azərbaycanlıların qəhrəman xalq statusunun qəti surətdə qərarlaşması ayrıca qeyd olunur. Bu, yeni tarixin yazılması, ölkənin yeni taleyinin müəyyənləşdirilməsi anı idi.

## Tariximizin şərəf səhifəsi: möhtəşəm Qələbə

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində dünyada baş verən geopolitik dəyişikliklər və keçmiş sovetlər birliyinin süqutundan faydalanan erməni millətçilərinin təcavüzkar və terrorçu əməlləri Azərbaycanın ərazisinin təxminən 20 faizinin işğal altına düşməsi ilə nəticələndi. Qarabağın təxminən 30 il sürən işğalının başlıca səbəbinin Ermənistanın işğalçı siyasəti və əməlləri olduğunu bir daha vurğulamaqla yanaşı, Birinci Qarabağ müharibəsində Azərbaycan xalqının böyük itkilərə, dağıntılara və mənəvi məhrumiyyətlərə məruz qalmasında həmin dövrün iqtidarının ölkənin torpaqlarını və əhalinin təhlükəsizliyini lazımınca qoruya bilməməsi amilinin heç də az rol oynamaması unudulmamalıdır.

Azərbaycan xalqı və dövləti erməni təcavüzünün ağır nəticələrinin aradan qaldırılması naminə 30 ilə yaxın səbir, təmkin nümayiş etdirməli, böyük səylər və vəsaitlər hesabına işğalçının qovulması ilə nəticələnən güc toplamalı oldu. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi milli dövlətçilik siyasəti sayəsində 2020-ci ilin sentyabr-noyabr aylarında, 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbə işğalçının darmadağın, Qarabağın azad və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi kimi tarixi nailiyyətlə yekunlaşdı. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan tarixinin son yüzilliklərinin ən şərəfli qələbəsi xalqın və dövlətimizin yeni həyatının başlanğıcını qoydu.

→ 4



# Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmişdir

## Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 ili tamam olur.

Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə tibb elminin inkişafında xüsusi xidmətlər göstərmiş görkəmli oftalmoloq-alim Zərifə Əliyevanın anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə akademik Zərifə Əliyevanın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 noyabr 2022-ci il*

## "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının fəaliyyəti Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 13.4-cü maddəsinə əsasən **qərara alıram:**

1. "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının fəaliyyəti Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 noyabr 2022-ci il*

◆ YAP - 30



## TARİX və ƏBƏDİYYƏT

**Dünənin, bu günün və gələcəyin partiyası!..**

*Aradan illər keçəndən sonra bu bir neçə kəlmənin mahiyyətinə varanda Heydər Əliyev müdrikliyinə bir daha heyran qalırsan.*

**Bu üç kəlmədə üç zaman bir araya gəlib...**

**Bu üç kəlmədə üç zaman bir-birinə söykək olub...**

**Bu üç kəlmədə dünyanın, həyatın ahəngi kimi, üç zaman bir-birini tamamlayır...**

***Keçmiş, bu gün və gələcək!!!***

*Heydər Əliyevin böyüklüyü onda idi ki, o, heç zaman keçmişinə kəc baxmadı, əksinə, dünəni ilə daim qürur duydu. Çünki ömrün hər gününü şərəflə yaşamışdı, ömrün hər gününün məsuliyyətini dərk etmişdi və başqalarından da əsas gözləntisi bu idi.*

**İnanırdı ki, onun zəkası işığında, əzəmətli şəxsiyyətinin kölgəsində yaradılan partiya da məhz belə olacaq.**

***Yanılmadı!..***

→ 5

## Siyasi-diplomatik müdrikliyin və qlobal nüfuzun göstəricisi

Soçi görüşündən qalib ayrılan Prezident İlham Əliyev ərəb dünyasının ali platformasından da Azərbaycanın maraqlarını və həqiqətləri dünyaya bəyan etdi

İkinci Qarabağ savaşı bütövlükdə Qarabağ münaqişəsinə son qoyaraq regionda yeni reallıqlar yaradıb. Artıq Rusiya sülhməramlılarının müvəqqəti yaşadıqları Azərbaycanın Qarabağ iqtisadi rayonu ərazisində yaşayan ermənilərin status iddialarına da yer yoxdur. Bunu Brüssel formatı çərçivəsində keçirilən görüşlər də təsdiq edir. Bu ərazilərdə yaşayan ermənilərlə bağlı məsələlərin Azərbaycanın daxili işi olduğunu Avropa İttifaqı da qəbul edir.

→ 7

## İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında 2023-cü ilin dövlət büdcəsi müzakirə olunub

Noyabrın 3-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi ölkə Prezidenti tərəfindən Milli Məclisə daxil olub.

→ 6

## Fransa və Ermənistanın işğalçılıq siyasətində oxşarlıqlar

Prezident İlham ƏLİYEV: "Bütün bu işğal illəri ərzində biz həmişə ərəb qardaşlarımızın dəstəyini, İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin dəstəyini hiss edirdik"

Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində noyabrın 1-də Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısı keçirildi. Ərəb Dövlətləri Liqası 1945-ci il martın 22-də Misir, İraq, İordaniya, Livan, Səudiyyə Ərəbistanı, Suriya və Yəmən tərəfindən yaradılıb. Hazırda təşkilata 22 dövlət daxildir. Təşkilatın mərkəz-qərargahı Misirin paytaxtı Qahirə şəhərindədir. Türkiyə təşkilatda daimi müşahidəçi statusuna malikdir.

→ 7

## Azərbaycan XİN Vaşinqtonda üçtərəfli görüşün keçiriləcəyini təsdiqləyib

Yaxın günlərdə Vaşinqton şəhərində Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinkenin təşəbbüsü və iştirakı ilə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında görüşün keçirilməsi planlaşdırılır.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə məlumat verib.

Onun sözlərinə görə, Azərbaycan tərəfinin bu kimi görüşlərin keçirilməsi ilə əlaqədar açıqlamanın verilməsinə dair yanaşması ondan ibarətdir ki, bu barədə ilk elan, bir qayda olaraq, görüşə evsahibliyi edən ölkə tərəfindən verilməlidir.

Qeyd edək ki, bu gün Ermənistan xarici işlər naziri Ararat Mirzoyan parlamentdə çıxışı zamanı yaxın günlərdə Vaşinqtonda Azərbaycanın xarici işlər naziri və ABŞ-ın dövlət katibi ilə üçtərəfli görüşün keçiriləcəyini bildirmişdir.



## 180 min mənzilin istilik problemi

Mərkəzləşdirilmiş sistem hələ də sovet dövrünün normativinə əsaslanır

Payız-qış mövsümündə artan qayğılardan biri də mənzillərin qızdırılmasıdır. Ölkəmizdə mənzillərin və fərdi evlərin isidilməsi üçün müxtəlif mənbələrdən istifadə edilir. Bakıda və digər iri şəhərlərdə 4 minə yaxın çoxmənzilli yaşayış binası isə mərkəzləşdirilmiş qaydada qızdırılır.

→ 12

# Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Abdullayev Razi Fərman oğlu
Alıyev Etibar İlyas oğlu
Bədəlov Rafiq Məmmədəli oğlu
Eldarov Xanlar Bayramşah oğlu
Əhmədov Ələsgər Fərzi oğlu
Əkbərzadə Fərid Vilayət oğlu
Əliyev Xəqani Əli oğlu
Əsədov Əsəd Ağa oğlu
Hacıyev Qiyas Hacıağa oğlu
Heydarov Samir Bakıxan oğlu
Həsənov Müsbət Müzəffər oğlu
Xanlarov Ziyad Hacı oğlu
İbadov İbad Əlövsət oğlu
Kərimov Turab Vəli oğlu
Quliyev Famil Seymur oğlu
Qurbanov Babək Məhəmməd oğlu
Qurbanov Nüsrət Yəhya oğlu
Mahmudov Mahmud Şahmurad oğlu
Məmmədov Eldəniz Bayram oğlu
Məmmədov Əli İsə oğlu
Muradov Yusif Həsən oğlu
Musayev Vüqar Əyyub oğlu
Novruzov Telman Miriş oğlu
Saruxanov Nürəddin Saleh oğlu
Şıxıyev Allahverdi Rəsul oğlu
Tağıyev Yasin İsfəndiyar oğlu
Talıbov Fəxrəddin Abdul oğlu
Zalov Fuad Abbas oğlu

**"Tərəqqi" medalı ilə**

Gondolova Rəmziyyə Şamil qızı
Həmidov Oqtay Nizam oğlu
Hüseynov Murtuza Yelmar oğlu
İsmayılov Elçin Fəzayıl oğlu
Məmmədov Xaliq İmamverdi oğlu
Məmmədov Mərdan Məmməd oğlu
Şahvəliyev Rəhman Caməmməd oğlu
Tağıyev Rafiq Tağı oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 noyabr 2022-ci il*

# A.V.Səmədovun Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Arif Vasif oğlu Səmədov Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 noyabr 2022-ci il*

# A.V.Səmədovun Azərbaycan Respublikası Prezidentinin Protokol xidməti rəisinin müavini vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Arif Vasif oğlu Səmədov Azərbaycan Respublikası Prezidentinin Protokol xidməti rəisinin müavini vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 noyabr 2022-ci il*

# E.Ə.Əliyevin Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Elnur Əli oğlu Əliyev Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 noyabr 2022-ci il*

# Azərbaycanla Ermənistan arasında delimitasiya üzrə komissiyaların üçüncü görüşü olub

Noyabrın 3-də Brüsseldə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə müvafiq olaraq, Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın üçüncü görüşü keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, iclas başlamazdan əvvəl Avropa Xarici Fəaliyyət Xidmətinin baş katibi Stefano Sannino Azərbaycan Respublikası və Ermənistan Respublikası nümayəndə heyətlərini salamlayıb, komissiyaların işinə uğurlar arzulayıb, Avropa İttifaqının Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşması məsələlərində kömək etməyə bundan sonra da hazır olduğunu təsdiqləyib.

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının baş nazirinin müavini Mher Qriqoryan salamlama çıxışlarında Avropa İttifaqı Şurasına görüşün yaxşı təşkilinə görə təşəkkürlərini ifadə ediblər.

Tərəflər Azərbaycan Respublikasının və Ermənistan Respublikasının rəhbərləri səviyyəsində müxtəlif formatlarda əldə edilən razılaşmaları nəzərə alaraq, delimitasiya məsələlərinin müzakirəsini davam etdirib, təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər.

Komissiyaların birgə fəaliyyətinin hüquqi çərçivələrini müəyyən etmək məqsədilə tərəflər Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın birgə fəaliyyət qaydasının razılaşdırılması üzrə işi sürətləndirmək barədə razılığa gəliblər.

Tərəflər komissiyaların dördüncü iclasının keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

# Müdafiə naziri cənub bölgəsində yerləşən hərbi hissələrin döyüş hazırlığını yoxlayıb







Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə Nazirliyinin digər rəhbər heyəti respublikamızın cənub rayonlarında yerləşən hərbi hissə və birləşmələrin döyüş hazırlığını yoxlayıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 3-də müdafiə naziri Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin qeyd olunan ərazilərdə keçirilən təlimini izləyib.

Məruzə olunub ki, xüsusi təyinatlıların döyüş hazırlığının yoxlanması və daha da yüksəldilməsi məqsədilə keçirilən təlimdə hərbi qulluqçular qarşıya qoyulan bütün tapşırıqları peşəkarlıqla yerinə yetirirlər. Hərbi Hava Qüvvələrinin, eləcə də Raket və Artilleriya bölmələrinin dəstəyi ilə icra olunan xüsusi əməliyyatlarda qoşun növləri arasında qarşılıqlı əlaqə yüksək səviyyədə təşkil edilir.

Sonra təlimin növbəti mərhələsinə uyğun olaraq tapşırıqların icrası nümayiş etdirilib.

Plana əsasən xüsusi təyinatlılar real döyüş şəraitində həqiqi döyüş sursatlarından istifadə olunmaqla açılan atəş altında irəliləyərək müdafiə olunan şərti düşmənə yaxınlaşıb, onun canlı qüvvəsini və atəş vasitələrini zərərsizləşdirərək dərinliyə doğru irəliləyiblər.

Təlimdə həmçinin yaşayış məntəqəsində döyüşün aparılması, şərti düşmənin dərinliyinə desant endirilməsi və pusqunun icrası, eləcə də hava yolu ilə qruplara təminatın çatdırılması üzrə fəaliyyətlər də icra olunub.

Təlimin gedişatını müsbət qiymətləndirən general-polkovnik Z.Həsənov xüsusi təyinatlılarla görüşüb, onların qayğıları ilə maraqlanıb və şəxsi heyət qarşısında çıxış edib.

Müdafiə naziri çıxışında xüsusi təyinatlıların Vətən müharibəsində, eləcə də son qarşıdurmalarda göstərdikləri şücaət və qəhrəmanlıq nümunələrinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini bildirib. Onların təminat-təchizatının, o cümlədən döyüş hazırlığının daha da artırılmasının daim diqqət mərkəzində saxlanıldığını qeyd edib.

Sonda general-polkovnik Z.Həsənov Azərbaycan Ordusunda qazanılan döyüş təcrübəsinin öyrənilməsi və müasir üsullarla keçirilən təlim-məşq prosesində tətbiq edilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Xəzər rayonunun Binə, Buzovna, Qala, Mərdəkan və Zirə qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 4,4 milyon (dörd milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 noyabr 2022-ci il*

# "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan müvəqqəti xüsusi idarəetmə orqanı haqqında Əsasnamə"nin və "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan mərkəzi idarəetmə orqanı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 17.1-ci və 18.2-ci maddələrinə əsasən **qərara alıram:**

1. "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan müvəqqəti xüsusi idarəetmə orqanı haqqında Əsasnamə" təsdiq edilsin *(Əlavə 1)*.

2. "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan mərkəzi idarəetmə orqanı haqqında Əsasnamə" təsdiq edilsin *(Əlavə 2)*.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 noyabr 2022-ci il*

# *Tahir BUDAQOV:* "Azərbaycan postkonflikt dövründə məqsədyönlü quruculuq siyasəti həyata keçirir"

Azərbaycanın 30 ilə yaxın işğal altında qalmış əzəli torpaqları Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz tərəfindən azad olundu. Möhtəşəm Qələbə danışıqlar masasında deyil, məhz döyüş meydanında əldə edildi. Bu, yalnız tarixi ədalətin deyil, eyni zamanda milli qürurun bərpasıdır. Azərbaycan qalib ölkə kimi bütün regionda yeni geostrateji reallıq yaratdı.




AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov söyləyib.

Tahir Budaqov bildirib ki, bu gün Azərbaycan bölgədə bütün dövlətlər üçün faydalı və önəmli təşəbbüslərlə çıxış edir. Azərbaycanın postkonflikt dövründə məqsədyönlü quruculuq siyasəti həyata keçirdiyini, işğaldan azad olunmuş ərazilərdə nəhəng infrastruktur layihələrini reallaşdırdığını vurğulayan YAP Sədrinin müavini ölkəmizin təşəbbüslərinin bölgədə sülhə, təhlükəsizliyə və əməkdaşlığa xidmət etdiyini söyləyib. Tahir Budaqov Zəngəzur dəhlizinin açılmasının təkcə Azərbaycanın deyil, Çindən Avropaya qədər bütün ölkələrin maraqlarını əks etdirdiyini bildirib.

Bu il Yeni Azərbaycan Partiyasının 30 illik yubileyinin qeyd olunduğunu deyən YAP Sədrinin müavini diqqətə çatdırıb ki, bununla bağlı geniş tədbirlər planı təsdiq olunub və uğurla icra edilir.

"Bütün rayon və şəhər təşkilatları tərəfindən yerlərdə yubiley tədbirləri reallaşdırılır. Eyni zamanda gənclər arasında müxtəlif idman yarışları və intellektual oyunlar keçirilir. Noyabrın 5-də Azərbaycan Texniki Universitetinin idman zalında minifutbol üzrə turnirin finalı olacaq. Bu turnirə ölkə üzrə 72 komanda qatılmışdı. Seçmə mərhələlərdən sonra üç komanda finala çıxıb. Eyni zamanda noyabrın 6-da Gülüstan sarayında "Nə? Harada? Nə zaman?" intellektual oyununun finalı olacaq. Bölgələrdə keçirilən seçmə mərhələdən sonra qalib gəlmiş 21 komanda birinci, ikinci və üçüncü yer uğrunda yarışacaqlar. Bilik yarışmasında iştirak edən gənclər Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində müstəsna yeri və rolu, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti və Yeni Azərbaycan Partiyasının 30 illik zəngin və şərəfli inkişaf tarixi ilə bağlı sualları cavablandırırlar. Bundan başqa, gələn həftə gənclər arasında şahmat turnirinin, həmçinin sərbəst və yunan-Roma güləşi üzrə üç çəki dərəcəsində respublika birinciliyinin finalı keçiriləcək. Eyni zamanda jurnalistlər arasında fərdi yazı müsabiqəsi elan olunub və yazıların qiymətləndirilməsi prosesi aparılır".

Tahir Budaqov Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi ərəfəsində beynəlxalq konfransın keçirilməsinin də nəzərdə tutulduğunu bildirib. O qeyd edib ki, həm yekun yubiley tədbirində, həm də regionda sülh və təhlükəsizlikdə siyasi partiyaların rolu mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək məqsədilə ölkəmizə bir sıra dövlətlərdən qonaqlar təşrif buyuracaqlar.

# YAP-ın təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər davam edir

Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq silsilə tədbirlər davam edir.



Tədbirlər planı çərçivəsində noyabrın 3-də partiyanın Göygöl, Xocavənd, Saatlı, Oğuz və Sabunçurayon təşkilatları tərəfindən tədbirlər keçirilib.

Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Keçirilən tədbirlərdə - Göygöl rayonunda YAP Göygöl Rayon Təşkilatının sədri Vüqar İsayev, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Xocavənd rayonunda YAP Xocavənd Rayon Təşkilatının sədri Vüsal Hüseynov, YAP Veteranlar Şurasının üzvü Əli Həsənov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov, Saatlı rayonunda YAP Saatlı Rayon Təşkilatının sədri Lütvəli Şıxəliyev, Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov, YAP İdarə Heyətinin üzvü Tofiq Cahangirov, Milli Məclisin deputatı Əziz Ələkbərli, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyyad Salahlı, Oğuz rayonunda YAP Oğuz Rayon Təşkilatının sədri Saleh Məhərrəmov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı, Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov, Sabunçu rayonunda YAP Sabunçu Rayon Təşkilatının sədr müavini Zülfüqar Cəfərov, YAP Veteranlar Şurasının üzvü Şahlar Əsgərov, Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev və başqaları çıxış ediblər.

ÇıxışlardaYeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi zəngin və şərəfli inkişaf yoluna nəzər salınıb. Azərbaycan dövlətinin Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth etdiyi diqqətə çatdırılıb.

Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

# "Prezident İlham Əliyevin rəhbərliyi ilə postkonflikt quruculuğu modeli" mövzusunda konfrans keçirilib

**Noyabrın 3-də Gülüstan Sarayında Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qələbənin ikinci ildönümü - Zəfər Gününə həsr olunmuş "Prezident İlham Əliyevin rəhbərliyi ilə postkonflikt quruculuğu modeli" mövzusunda konfrans keçirilib.**





AZƏRTAC xəbər verir ki, konfransda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov açılış nitqi söyləyib. Bildirib ki, artıq ikinci ildönümünü qeyd etdiyimiz Zəfər Günü çoxəsrlik tariximizin şanlı səhifəsi, xalqımızın qürur mənbəyi və Azərbaycan dövlətinin qüdrətinin ifadəsidir. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün cəbhələrdə - hərb meydanında, beynəlxalq informasiya platformasında və diplomatiya müstəvisində möhtəşəm Qələbə qazanaraq tarixi ədalətin və ərazi bütövlüyünün bərpasına müvəffəq oldu. Tahir Budaqov vurğulayıb ki, son 200 illik tariximizdə bənzəri olmayan bu Qələbənin qazanılması, mürəkkəb geosiyasi şəraitdə torpaqlarımızın işğaldan azad edilməsi milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara cavab verən məqsədyönlü siyasətin real nəticəsidir.

YAP Sədrinin müavini qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu dövrün tələblərinə uyğun olaraq keyfiyyətcə yeni müstəvidə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə atılan addımlar Azərbaycanın milli gücünün artmasını, strateji hədəflərə və qələbəyə doğru əmin addımlarla irəliləməsini təmin edib: "Xüsusilə də dövlət başçısının tərəqqiyə və Zəfərə hədəflənən məqsədyönlü siyasəti sayəsində Azərbaycanın iqtisadi gücü artırılıb, qüdrətli və modern ordu quruculuğuna nail olunub, məharətli diplomatik addımlar nəticəsində ölkəmizin regional və beynəlxalq təsir imkanları genişlənib. Nəhayət, Azərbaycan hərbi-siyasi arenada möhtəşəm Qələbə qazanaraq BMT-nin uzun müddət kağız üzərində qalmış qətnamələrinin icrasını öz gücü ilə təmin edib. Zaman-zaman şiddətli təzyiqlərə məruz qalmasına baxmayaraq, Azərbaycan beynəlxalq aləmdə bir sıra siyasi stereotipləri dağıdıb, ikili standartlar yanaşmasını iflasa uğradaraq regionda yeni geostrateji reallıqlar yaradıb. Bu reallıqlar fonunda yeni çağırışlarla qarşı-qarşıya olan Azərbaycan hərb meydanında qazanılmış Zəfəri regional və beynəlxalq siyasət arenasında davamlı prosesə çevirmək və Qələbəni diplomatiya meydanında, quruculuq müstəvisində möhkəmləndirmək üçün mühüm addımlar atır, məqsədyönlü fəaliyyət həyata keçirir. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan postkonflikt dövrünün quruculuq modelini yaradır".

Tahir Budaqov vurğulayıb ki, bu gün işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işləri görülür: "Yaşayış məntəqələri müasir konsepsiyalar əsasında qurulur, modern beynəlxalq hava limanları inşa edilir, nəhəng infrastruktur yaradılır və yeni tərəfdaşlıq əlaqələri formalaşdırılır. Bütün bunlar Azərbaycanın həm sosial-iqtisadi inkişafına, həm də regionda mövqelərinin möhkəmlənməsinə xidmət edir".

YAP Mərkəzi Aparatının rəhbəri diqqətə çatdırıb ki, postkonflikt dövrünün quruculuq modelinin daha bir mühüm tərkib hissəsi dayanıqlı sülh və təhlükəsizlik siyasətidir: "Bu gün regionda sülh və etimad quruculuğunun həyata keçirilməsi xüsusi diqqət mərkəzindədir. Azərbaycanın yaratdığı reallıqlar əsasında sülh gündəliyi artıq müəyyənləşib. Sülh müqaviləsinin imzalanması, kommunikasiyaların bərpası, sərhədlərin delimitasiyası və demarkasiyası bu strateji gündəliyin mühüm tərkib hissəsidir. Beş baza prinsipi əsasında müvafiq təkliflərini verən, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla öz üzərinə düşən öhdəlikləri tam və zamanında yerinə yetirən qalib Azərbaycan önəmli təşəbbüslər irəli sürür. Eyni zamanda hazırda strateji prioritetlərdən və mühüm hədəflərdən biri Cənubi Qafqaz regionunda yeni işbirliyi platformasının qurulmasıdır. Xüsusilə də Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası geniş və çoxşaxəli əməkdaşlıq imkanlarının formalaşdırılması deməkdir. Bir sözlə, postkonflikt dövründə Azərbaycanın quruculuq modeli və məqsədyönlü siyasəti regionu işbirliyi və inteqrasiya məkanına çevirir. Respublikamız Avropa ilə Asiyanın qovşağında - Cənubi Qafqazda yeni nizam və siyasi konfiqurasiya formalaşdırır. Bu isə həm bölgə xalqları və dövlətləri, həm də yeni reallıqlar fonunda tərəfdaşlıqda maraqlı olan ölkələr üçün strateji fürsət, tarixi şans, rifah, firavanlıq və inkişaf deməkdir".

"Nəticə etibarilə postkonflikt dövründə Azərbaycanın quruculuq konsepsiyası nümunəvi model kimi beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. XXI əsrin müharibəsini aparmış Azərbaycanın hərb modelinin dünya miqyasında xüsusi tədqiq olunduğu kimi, postkonlifkt dövründə quruculuq təcrübəsinin də geniş öyrəniləcəyinə şübhə yoxdur.

Tariximizin bu şanlı dövründə yaşayıb-yaratmaq hər bir azərbaycanlı üçün hədsiz xoşbəxtliklə bərabər, həm də böyük məsuliyyətdir və hər birinizə dövlətimiz və xalqımız naminə müqəddəs amallara doğru bu çətin, lakin işıqlı yolda möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə şərəflə addımlamağı arzu edirəm" ,- deyə Tahir Budaqov vurğulayıb.

Konfransda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı "Postkonflikt quruculuğu modeli" mövzusunda çıxış edib. O bildirib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda regenerasiya və reinteqrasiya dövrünü yaşayır. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə postkonflikt quruculuğunun əsas istiqamətləri müəyyənləşdirilib: "Bunlardan birincisi, Azərbaycanın hərb meydanında möhtəşəm Qələbəsinin digər, o cümlədən siyasi və diplomatik müstəvilərdə möhkəmləndirilməsidir. İkincisi, şəhid ailələri və müharibə iştirakçılarının sosial müdafiəsinin təşkilidir. Üçüncüsü, işğaldan azad edilmiş ərazilər üzrə yeni dövlət idarəetmə modelinin tətbiqi, dördüncüsü isə ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsidir. Beşinci istiqamət iqtisadi və sosial infrastrukturun yaradılması, altıncı istiqamət isə sənaye parkları, aqroparklar, vergi-gömrük güzəştləri, kreditlərin və investisiyaların sığortalanması mexanizmi və digər dövlət təşviqlərindən istifadə etməklə iqtisadiyyatın canlandırılmasıdır".

İcraçı direktor diqqətə çatdırıb ki, yeddinci istiqamət yaşayış məntəqələrinin planlı şəkildə bərpasıdır. Nazirlər Kabinetinin 2022-ci il 16 avqust tarixli qərarı ilə "İşğaldan azad edilmiş ərazilərin ümumi planı" təsdiq edilib. Bu əsasda şəhərlərin və kəndlərin bərpası plana uyğun aparılır. Artıq Şuşa, Ağdam, Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı, Laçın, Kəlbəcər şəhərlərinin baş planı hazırdır. Əhalinin Böyük qayıdışı isə səkkizinci istiqaməti təşkil edir. Nəhayət, doqquzuncu istiqamət Ermənistanın işğal dövründə törətdiyi cinayətlərə görə məsuliyyətə cəlb edilməsidir. Azərbaycana vurduğu ziyanı ödəmək Ermənistanın beynəlxalq hüquq qarşısında öhdəliyidir. Bu məsuliyyət həm maddi, həm də qeyri-maddi olmaqla müxtəlif formalara malikdir: reparasiya, restitusiya, təzminat və ya kompensasiya və satisfaksiya.

V.Qasımlı deyib ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdış" Dövlət Proqramı icra ediləcək: "İşğaldan azad olunan ərazilərdə bərpa-quruculuq işlərinə ötən müddətdə təxminən beş milyard manat vəsait xərclənib. Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyatın altı əsas istiqamət üzrə inkişafı gözlənilir: kənd təsərrüfatı, ərzaq sənayesi, dağ-mədən sənayesi, "yaşıl enerji", nəqliyyat-logistika və turizm. Təbii-iqlim şəraiti, tarixi ənənə, coğrafi yerləşmə və demoqrafik potensiala uyğun olaraq işğaldan azad edilmiş ərazilərin əsas inkişaf drayverləri də müəyyənləşir. 100 min nəfərlik Ağdam şəhəri yüngül sənaye və xidmət mərkəzi, Araz boyunca yerləşən Füzuli, Cəbrayıl və Zəngilan rayonları nəqliyyat-logistika qovşağı və əkinçilik, Kəlbəcər və Laçın rayonları dağ-mədən sənayesi, "yaşıl enerji", turizm, heyvandarlıq, Şuşa isə mədəniyyət paytaxtı olaraq yaradıcı sənayesi ilə bölgənin qravitasiya mərkəzlərinə çevrilir. Bizim hesablamalarımız göstərir ki, 2030-cu ilə qədər Qarabağ və Şərqi Zəngəzur bölgələri Azərbaycanın qeyri-neft sektorunun 5-10 faizi həddində iqtisadiyyata malik ola bilər. Qarabağ və Şərqi Zəngəzurda həyatın geri qayıtması Dördüncü Sənaye İnqilabı və Davamlı İnkişaf Məqsədləri ilə həmahənglik təşkil etməklə bölgəni SMART regiona çevirməyi hədəfləyir".

Konfransda "Yeni idarəçilik modeli" mövzusunda çıxış edən Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, Azərbaycan Ordusu 30 illik həsrətdən sonra Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına tarixi Qələbə qazanaraq torpaqlarımızı işğaldan azad edib. Öz ərazi bütövlüyünü bərpa etməklə ölkəmiz yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük transformasiya astanasına keçid edir. Tamamilə dağıdılmış rayon və şəhərlərimiz hazırda yeni idarəçilik modeli əsasında yenidən qurulur. Bu proses bilavasitə işğaldan azad edilmiş rayonlarımızın və bütövlükdə ölkənin iqtisadi, sosial potensialının artırılmasına, eyni zamanda idarəetmənin təkmilləşdirilməsinə istiqamətləndirilib. Onun sözlərinə görə, dövlət başçısının tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilər üzrə hazırlanmış strateji fəaliyyət planı əsasında bütün ərazilərin, şəhər, qəsəbə və kəndlərin bərpasının vahid konsepsiya üzrə həyata keçirilməsinə başlanılıb. Eyni zamanda Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 2021-ci il 7 iyul tarixli Fərmanla işğaldan azad edilmiş ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi əsas məqsəd olaraq qarşıya qoyulub. Azərbaycanın iqtisadi rayonlarının yeni bölgüsü Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində həyata keçirilən irimiqyaslı proqramların mərkəzləşdirilmiş və əlaqələndirilmiş şəkildə icrasına, bölgənin çevik idarəetmə, yeni məskunlaşma və şəhərsalma strategiyasına uyğun inkişafına xidmət edir.

E.Hüseynov qeyd edib ki, idarəetmə çərçivəsi "Azərbaycan 2030: milli prioritetlər", "Strateji Fəaliyyət Planı" və "2022-2026-cı illər üçün Dövlət Proqramı" kimi strateji sənədləri rəhbər tutur. Bu sənədlər yenidənqurma və inkişaf prosesinin 4 əsas mərhələsini müəyyən edir. Onlardan birincisi, ümumi və baş planların layihələndirilməsi, ikincisi, minatəmizləmə və baza infrastrukturun yaradılması, üçüncüsü, sosial, ictimai və iqtisadi infrastrukturun tammiqyaslı yenidən qurulması və inkişafı, dördüncüsü isə keçmiş məcburi köçkünlərin Böyük qayıdışıdır. Onun sözlərinə görə, hələlik Qarabağ iqtisadi rayonunda Ağdam və Füzuli şəhərlərinin ümumi və baş planları hazırdır, Hadrut və Tuğ, eləcə də Suqovuşan və Talışda yekunlaşma işləri aparılır. Eyni zamanda Azərbaycan üzləşdiyi bütün çətinliklərə baxmayaraq, digər dövlətlərin və beynəlxalq təşkilatların dəstəyi olmadan Qarabağ iqtisadi rayonu daxilində işğaldan azad edilmiş ərazilərin 13 faizini minalardan və digər partlamamış hərbi sursatlardan təmizləyərək tam miqyasda minatəmizləmə əməliyyatlarını davam etdirir.

Xüsusi nümayəndə diqqətə çatdırıb ki, sosial infrastruktur baxımından artıq 4 məktəb layihəsi həyata keçirilir ki, onlardan da 2-si bu ilin sonuna kimi hazır olacaq. Tezliklə Ağdam və Füzulidə 2 mərkəzi xəstəxananın tikintisinə başlanacaq. Eləcə də Qarabağ iqtisadi rayonunda yaşayış binalarının tikintisinə başlanılıb. "Artıq işğaldan azad edilən torpaqların sosial-iqtisadi sistemə səmərəli reinteqrasiyası təmin edilir. Bu strateji məqsədin həyata keçirilməsi üçün düşməndən təmizlənən ərazilərdə mərhələli şəkildə, prioritetləşdirilməklə, səmərəlilik şərtləri nəzərə alınmaqla və müasir təcrübəyə əsaslanmaqla bərpa-quruculuq işlərinin həyata keçirilməsi, rəqəmsal texnologiyaların geniş tətbiqi ilə müasir sosial və biznes infrastrukturunun yaradılması, bu əsasda Azərbaycan vətəndaşının dayanıqlı məskunlaşmasının təmin edilməsi uğurla gerçəkləşdirilir. Yeni innovativ idarəetmə modeli çərçivəsində Qarabağda yaxın perspektivdə SMART idarəçiliyin tətbiqi həmin əraziləri Dördüncü Sənaye İnqilabının aparıcı qüvvəsinə çevirə bilər. Bu məqsədlə biz artıq Qarabağda "ağıllı" şəhərlər və kəndlər tikilməsi üçün araşdırma və planlaşdırma işlərinə başlamışıq. Ən əsas məqsəd isə əhalinin həyat səviyyəsini yüksəldəcək təhlükəsiz, səmərəli, yaşıl və texnoloji cəhətdən inkişaf etmiş şəhər və kəndlərə sahib olmaqdır", - deyə E.Hüseynov vurğulayıb.

Tədbirdə kənd təsərrüfatı naziri İnam Kərimov "İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı" mövzusunda çıxış edib. Nazir bildirib ki, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. Perspektivdə azad olunmuş torpaqların təbii-iqlim və relyef xüsusiyyətləri nəzərə alınmaqla bölgədə xüsusilə taxıl və yem bitkiləri və heyvandarlıq məhsulları istehsalı üstünlük təşkil edəcək. Bölgə üçün ənənəvi hesab edilən heyvandarlıq və taxılçılıq sektorları ilə yanaşı, meyvəçilik və tərəvəzçiliyin inkişafı potensialı da genişdir. Azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafında yeni trend kimi intensiv meyvəçilik sahələrinin, xüsusilə nar, fındıq, çəyirdəkli meyvəçiliyin inkişafı üçün perspektivlər var. Ağdam, Füzuli, Cəbrayıl rayonlarında pambıqçılığın, Ağdam və Füzuli rayonlarında tərəvəzçiliyin, Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında milli üzüm sortları əsasında üzümçülük-şərabçılıq sahələrinin inkişafı baxımından əlverişli imkanlar mövcuddur. Kəlbəcər və Laçın rayonlarının zəngin otlaq və yaylaqları heyvandarlığın və arıçılığın inkişafında mühüm əhəmiyyət kəsb edir. Həmçinin bu bölgədə heyvandarlıq sahəsinin intensiv və yarımintensiv ferma modeli əsasında da inkişafı təmin olunacaq. Bölgədə quruculuq işlərinin əsas istiqamətlərindən birini yeni logistika infrastrukturunun qurulması təşkil edir. Logistika imkanlarının genişlənməsi kənd təsərrüfatı məhsullarının ixrac bazarlarına çıxarılmasına imkanlar yaradacaq. Bütün bunlar göstərir ki, azad olunmuş ərazilərin aqrar potensialından səmərəli istifadə ölkə üzrə kənd təsərrüfatı məhsullarının istehsalını ciddi şəkildə artıracaq.

İ.Kərimov xatırladıb ki, ötən əsrin 80-ci illərində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərindəki rayonlar respublika üzrə kənd təsərrüfatı məhsulları istehsalında əhəmiyyətli paya malik idilər: "Taxıl məhsullarının təqribən 14 faizi, kartof, tərəvəz və bostan məhsullarının təqribən 6 faizi, tütünün təqribən 8 faizi, üzümün təqribən 25 faizi, ət və süd məhsullarının hər biri üzrə istehsalın təqribən 15 faizi bu bölgənin payına düşürdü. Bu rəqəmlər azad olunmuş ərazilərin kənd təsərrüfatı potensialının nə qədər yüksək olduğunu təsdiqləyir. Hazırda əkinə yararlı torpaq sahələrində kənd təsərrüfatı fəaliyyətlərinin bərpası məqsədilə intensiv işlər aparılır. 2021-2022-ci təsərrüfat ilində 50 min hektardan çox sahədə payızlıq və yazlıq əkinlər həyata keçirilib. Əkinlərin 95 faizindən çoxunu arpa və buğda əkinləri təşkil edib və becərmə işləri dəmyə şəraitində aparılıb. 2022-2023-cü il üçün intensiv şum və səpin işləri aparılır, payızlıq əkin sahəsinin əvvəlki ilə nisbətən artırılması nəzərdə tutulur. Azad olunmuş ərazilərdə mövcud bağların qorunması və yeni intensiv meyvə bağlarının salınması işinə də xüsusi diqqət yetirilir".

Nazir deyib ki, kənd ərazisində iqlim əsaslı "ağıllı kənd təsərrüfatı" modeli tətbiq olunur: "Bu model özündə kooperativ idarəetmə sistemini, müasir texnologiyalar əsasında qurulmuş tarla, bağ və fermaları, dronlar vasitəsilə idarəetmə və nəzarəti ehtiva edir. "Ağıllı təsərrüfat"lar kəndlərdə meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırmağa, emal prosesini müasir tələblərə uyğun qurmağa imkan verir".

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev isə "Postmüharibə dövründə sosial dəstək siyasəti" mövzusunda çıxış edib. Nazir bildirib ki, son illərdə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl, genişmiqyaslı islahatlar həyata keçirilib. Son 4 ildə 3 sosial islahat paketi həyata keçirilib ki, bu da 4 milyon nəfəri əhatə edib. Onun sözlərinə görə, bu müddət ərzində orta pensiya 80 faiz artıb: "Çox nadir ölkələr göstərə bilərik ki, belə böyük nailiyyətlər əldə edə bilsin. Həmçinin Prezident İlham Əliyev tərəfindən qazilərə, şəhid ailələrinə diqqətin göstərilməsi üçün tapşırıqlar verilib. 4 min ailəyə evlər, mənzillər verilib. 21 min müharibə iştirakçısı, şəhid ailəsi özünüməşğulluq tədbirləri ilə əhatə olunub. Azərbaycan dövlətinin icra etdiyi proqramların əhatə dairəsi genişdir".

S.Babayev qeyd edib ki, işğaldan azad edilmiş torpaqların sosial-iqtisadi sistemə effektiv reinteqrasiyası təmin edilir. Həmin ərazilərdə mərhələli şəkildə, prioritetləşdirilməklə, rəqəmsal texnologiyaların geniş tətbiqi ilə müasir sosial infrastrukturunun yaradılması, dayanıqlı məskunlaşmanın təmin olunması nəzərdə tutulur. Bu baxımdan 2022-2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf modeli ölkəmizdə çoxsahəli inkişafın yeni keyfiyyət səviyyəsini müəyyən edəcək. Eləcə də bu ərazilərdə Böyük qayıdış məqsədinin reallaşdırılması üçün əhalinin dayanıqlı məskunlaşması təmin olunacaq. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərə qayıdan vətəndaşlarımıza pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin proaktiv təyinatı, habelə ehtiyacı olan ailələrə ünvanlı dövlət sosial yardımının təyinatı üçün lazımi tədbirlər həyata keçiriləcək.

Nazir diqqətə çatdırıb ki, gələn ilin birinci rübü ərzində Bərdə Regional DOST Mərkəzinin açılışı nəzərdə tutulur. Paralel olaraq Ağdam, Füzuli, Ağcabədi və Tərtərdə DOST filiallarının istifadəyə verilməsi istiqamətində işlər aparılır. Hazırda Füzuli rayonunda yeni SMART kənd və qəsəbələrin tikinti işləri davam etdirilir və onlardan biri də Dövlətyarlı kəndidir. Orada da Smart DOST məntəqəsinin istifadəyə verilməsi nəzərdə tutulur. Şuşa filialının layihələndirmə işləri də artıq yekunlaşdırılıb. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialı nəzərə alınmaqla vətəndaşlarımızın əmək bazarında müvafiq peşə hazırlığının təşkili məqsədilə Cəbrayıl rayonunda Peşə Hazırlığı Mərkəzinin inşası nəzərdə tutulur. Həmçinin Kəlbəcər rayonunda əlilliyi olan şəxslərin Reabilitasiya Mərkəzinin yaradılması planlaşdırılır.

Konfransda "Yaşıl enerji zonası" mövzusunda çıxış edən energetika naziri Pərviz Şahbazov bildirib ki, postmünaqişə quruculuğu ilə bağlı dövlət başçısının siyasəti imkan verir ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə uzunmüddətli sabitlik və regional iqtisadi inteqrasiyanı təmin edəcək təşəbbüs və layihələrlə Avrasiyanın strateji əhəmiyyətli nəqliyyat və logistika, həmçinin "yaşıl enerji" mərkəzinə çevrilsin. Bərpaolunan enerji sahəsinin inkişafına yalnız dekarbonizasiya, enerji balansının şaxələndirilməsi deyil, həmçinin postmünaqişə dövründə quruculuq kontekstində əhəmiyyət verilir. Azərbaycan Prezidentinin Qarabağ və Şərqi Zəngəzuru xalis sıfır emissiyalı "Yaşıl enerji zonası" elan etməsi məhz belə bir mütərəqqi inkişaf siyasətinin təzahürüdür. Belə bir inkişaf modeli Azərbaycanın təmiz ətraf mühitə malik "yaşıl artım", "yaşıl enerji"ni istehsal və ixrac edən ölkəyə transformasiyasında azad edilmiş ərazilərin rolunu gücləndirir.

Nazir qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə çoxistiqamətli tədbirlərlə ölkəmizdə bərpa olunan enerjinin inkişafı geniş vüsət alır: "Bu ərazilərin bərpaolunan enerji mənbələri üzrə potensialı 10 min meqavata yaxındır. Qeyd olunan potensial əsasında 4 il ərzində ümumi gücü 780 MVt olan külək, günəş və iri su-elektrik stansiyalarının inşası nəzərdə tutulur. Bu istiqamətdə hazırda BP şirkəti ilə Cəbrayılda illik təxminən 500 milyon kVt·st elektrik enerjisinin istehsalı proqnozlaşdırılan 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyası layihəsi üzrə işlər aparılır. Həmçinin xarici investor "Masdar" şirkəti ilə quruda və dənizdə ilkin mərhələdə 4 QVt gücündə, növbəti mərhələdə isə 6 QVt gücündə həyata keçirəcəyimiz günəş və külək enerjisi layihələrinin bir qismi məhz bu əraziləri əhatə edir. Bu bölgədə kiçik su-elektrik stansiyalarının bərpası, Laçın və Kəlbəcərdə külək-elektrik stansiyasının inşasına da xarici investisiyanın cəlbi başlıca prioritetlərdəndir".

P.Şahbazov diqqətə çatdırıb ki, iki ilə yaxın müddətdə 11 kiçik su-elektrik stansiyasının bərpası enerji sisteminə 54 meqavata yaxın istehsal gücü qazandırır. Hazırda ümumi gücü 320 MVt-dan artıq 50-dən çox kiçik su-elektrik stansiyasının bərpa və inşası üçün araşdırmalar aparılır. Ümumi gücü 33,4 MVt olan 7 kiçik su-elektrik stansiyasının bərpa-tikintisi həyata keçirilir. Bunlardan əlavə, yaxın illərdə Araz çayı üzərində 140 MVt gücündə "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su-elektrik stansiyalarının istismara verilməsi də regionun "yaşıl" inkişafına öz töhfəsini verəcəkdir. "Bu güclərin yaradılması azad edilmiş əraziləri "yaşıl enerji"nin istehsal və istehlakı ilə bərabər ixracının da mənbə və marşrutuna çevirir. Hazırda "yaşıl enerji"nin ənənəvi bazarlarla bərabər, Avropaya ixracı üçün nəzərdən keçirilən üç xətdən biri - Azərbaycan-Türkiyə-Avropa enerji dəhlizi bu yeni reallığın perspektivlərindəndir. Postmünaqişə mərhələsində tarixi və geostrateji əhəmiyyətli Zəngəzur dəhlizinin yaradılması Asiyanı Avropa ilə təkcə nəqliyyat deyil, enerji vasitəsilə də birləşdirmək imkanlarına malikdir", - deyə nazirin sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurun xalis sıfır emissiyalı "yaşıl enerji" zonası kimi qurulması 2050-ci ilə qədər karbon emissiyalarının 40 faiz azaldılması hədəfimizə doğru aparan yolun əhəmiyyətli hissəsidir.

Konfransda "Postmüharibə dövründə informasiya siyasəti" mövzusunda çıxış edən "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov bildirib ki, postmüharibə mediası milli məsələlərdə prinsipiallıq nümayiş etdirməli və dövlətçilik maraqlarını daim uca tutmalı, saxta və yalan məlumatlara söykənən qlobal kampaniyalarla effektiv mübarizə aparmalıdır. Eyni zamanda vətəndaşlarımızın dolğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətin tərəqqisi naminə yorulmadan çalışmalıdır. "Prezident İlham Əliyevin istər müharibə, istərsə də postmüharibə dövründə yürütdüyü dəqiq informasiya siyasəti, dövlət başçısının əsasını qoyduğu hücum diplomatiyasının ideoloji - təbliğat metodikası bu gün hər bir media orqanı, hər bir jurnalist üçün başlıca fəaliyyət konsepsiyası sayıla bilər", - deyən R.Məmmədov fikrini konkret nümunələrlə əsaslandırıb. Birinci nümunə Prezident İlham Əliyevin 44 günlük müharibə ərzində xarici media orqanlarına 30-dan çox müsahibə verməsidir. Bu müsahibələr nəticəsində qardaş Türkiyəni nəzərə almasaq, qlobal informasiya arenasında tək mübarizə aparan Azərbaycan bu savaşın işğal, təcavüz deyil, məhz ədalətli müharibə olduğunu bütün dünyaya sübut etdi.

Onun sözlərinə görə, ikinci nümunə Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə müntəzəm səfərləri və beynəlxalq tədbirlərdə aktiv iştirakıdır. Prezident işğaldan azad olunmuş regionlara səfər etməklə dünyanın diqqətini növbəti dəfə Qarabağa və 30 illik erməni işğalının real izlərinə, erməni vandallığına yönəldir. Eləcə də Qarabağda aparılan genişmiqyaslı bərpa - yenidənqurma işlərini daim diqqətdə saxlamaqla Böyük qayıdışın ən qısa zamanda reallaşması istiqamətində prinsipial addımlar atır və bu prinsipiallığı da bütün dünyaya nümayiş etdirir. Həmçinin konkret olaraq Avropa Şurası, ATƏT, UNESCO-nun və digər beynəlxalq təşkilatların 30 illik işğal dövründə yürütdüyü qeyri-obyektiv və ikili standartlar siyasəti konkret faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırır, işğal edənlə işğala məruz qalan arasında fərqi ortaya qoyur.

R.Məmmədovun sözlərinə görə, üçüncü nümunə Prezident İlham Əliyevin daim vətəndaşlarla görüşməsi, vətəndaşı maraqlandıran suallara yerindəcə, ətraflı cavab verməsi və həmin görüşlərdə yalnız daxili siyasətə deyil, həm də Azərbaycanın yürütdüyü regional və qlobal siyasətin ən mühüm detallarına toxunması, şərh etməsi, o cümlədən yerli kütləvi informasiya vasitələrinə müsahibə verməsidir. Onun fikrincə, atılan bu addımlar postmüharibə mediasının qarşısında duran strateji vəzifələrə aydınlıq gətirməklə yanaşı, yeni dövrün əsas mövzularına, jurnalistlərin diqqət yetirməli olduğu başlıca tematik istiqamətlərə işıq salır: "Bunlar 44 günlük Vətən müharibəsinin geosiyasi əhəmiyyətinin, Qarabağın reinteqrasiyasının və azad Qarabağın yalnız siyasi, sosial və ya hərbi deyil, həmçinin iqtisadi önəminin, qədim Azərbaycan torpaqları, o cümlədən Şərqi Zəngəzur reallığının tarixi aspektlərinin dünyaya çatdırılmasıdır. Bu da xüsusi qeyd edilməlidir ki, yalnız güclü dövlətin və güclü xalqın güclü mediası ola bilər. Müasir Azərbaycan isə Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, tarixinin ən uğurlu və ən güclü dövrünü yaşayır. Deməli, müasir Azərbaycan mediası da bu reallıqla ayaqlaşmalı, postmüharibə dövrünün tələblərinə adekvat addımlar atmalı və informasiya siyasətində üzərinə düşən strateji vəzifələrin (milli məsələlərdə prinsipiallıq, dezinformasiya ilə effektiv mübarizə və vətəndaşların düzgün məlumat əldə etmək hüquqlarının qorunması) praktik həllinə çalışmalıdır".

Konfransın yekununda çıxış edən Azərbaycan Respublikasının Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Əhmədov bildirib ki, 30 il ərzində xalqımız işğal faktı ilə razılaşmadı, güc topladı və öz torpaqlarını işğaldan azad etdi. Hər bir dövlətin əsas missiyalarından biri öz təhlükəsizliyini təmin etməkdir və Azərbaycan dövləti də bunu etdi. Onun sözlərinə görə, Qələbənin təmin olunmasının mühüm amillərindən biri də güclü Azərbaycan Ordusu, qəhrəman hərbçilərimizdir: "Güclü ordumuz olmasaydı, öz torpaqlarımızı işğaldan azad edə bilməzdik. 30 il əvvəl Azərbaycan zəif olduğuna görə torpaqlarımız işğal olunmuşdusa, dövlətimizin qüdrəti, ordumuzun döyüş qabiliyyəti sayəsində torpaqlarımız azad edildi. Qələbəmizin həlledici amili isə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Dövlət, xalq və ordu o zaman güclü olur ki, ona güclü lider rəhbərlik edir. Bu mənada Azərbaycan xalqının böyük coşqu ilə qeyd etdiyi Qələbəmizin baş qəhrəmanı Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevdir. Biz hərb və diplomatiya cəbhəsində İlham Əliyevin liderliyini, sərkərdəlik nümunəsini gördük. Xalqımızın, dövlətimizin birliyi, dövlət başçısına inamı Qələbə ilə nəticələndi. Məhz bunun nəticəsidir ki, Ermənistan tərəfindən 30 il işğal altında saxlanılan torpaqlarımızı 44 gün ərzində azad etdik. Eyni zamanda bu şanlı Qələbədən sonra Azərbaycan tarixinin yeni mərhələsi başlayıb. Azərbaycan xalqı dünyada özünün dəyanəti, əyilməzliyi və ordusunun gücü ilə də tanınıb".

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan vətəndaşları bu günü gələcəkdə daha da inkişaf edəcək Azərbaycanın etibarlı bünövrəsi hesab edirlər: "Qazandığımız möhtəşəm Zəfər həm siyasi, həm geosiyasi, həm də təhlükəsizlik məzmununa malikdir. Bu baxımdan əldə etdiyimiz hər bir nailiyyət mahiyyət etibarilə gələcək uğurların bünövrəsi rolunu oynayır. Möhtəşəm Zəfərimizi son onilliklər ərzində yaşadığımız nailiyyətlərin, uğurların məntiqi və alternativsiz nəticəsi hesab etmək olar".

Ə.Əhmədov deyib ki, Vətən müharibəsində qazanılan Zəfərlə Azərbaycan qalib dövlət, Azərbaycan xalqı isə qəhrəman xalq kimi yeni statusa sahib oldu: "Bu da Azərbaycanın yeni nailiyyətlər əldə etməsi üçün baza yaradır. Azərbaycan işğal altındakı torpaqlarını öz gücü hesabına geri qaytarmaqla qüdrətini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan Qarabağı yenidən qurmaqla dünyaya yeni bir nümunə göstərəcək. Azərbaycan indi dünyaya yeni bir mənzərəni təqdim etməyə hazırlaşır. Qarabağ dünyanın yeni mənzərədə ortaya çıxan reallığı olacaq ki, burada insan üçün ən layiqli şərait yaradılacaq. Bütün bunların hamısı əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən siyasətin Azərbaycan xalqına gətirdiyi böyük uğurlardır. Bu uğurların nəticəsi olaraq Ulu Öndərimizin dediyi kimi, Azərbaycan daim dünyaya günəş kimi doğacaq".

Qeyd edək ki, konfransda "Yeni Qarabağnamə" kitabının videotəqdimatı keçirilib.



# Müzəffər Komandanın "Dəmir yumruq" həqiqəti

*Əvvəli 1-ci səh.*

Azərbaycanın Vətən müharibəsində tarixi Zəfəri hər şeydən əvvəl işğal altında olan torpaqlarımızın qaytarılması kimi yaddaşlarda yaşayır və heç şübhəsiz, indiki nəsillərlə bərabər, gələcək nəsillər üçün də qürur və iftixar mənbəyi olacaqdır. Məhz bu Qələbə nəticəsində türk dünyası ölkələri son 200 il ərzində ilk dəfə itirdikləri torpaqları qaytarmaq nümunəsinin şahidi oldular.

Vurğulanmalı olan həqiqət ondan ibarətdir ki, Vətən müharibəsinin tarixi əhəmiyyəti milli hüquqlardan xeyli kənara çıxır, mahiyyətcə qlobal xarakter və miqyas kəsb edir. Qarabağın işğaldan azad edilməsi ilə yekunlaşan Vətən müharibəsinin yaşadığımız XXI əsrdə işğala, təcavüzün bütün növünə və separatçılığa qarşı qlobal mübarizənin simvolu kimi tanındığı tam məsuliyyətlə qeyd oluna bilər. Azərbaycan öz nümunəsi ilə sarsıdılmaqda olan beynəlxalq hüququn xilası istiqamətində sözdə deyil, əməldə ən təsirli addımların atılmasının qaçılmaz zərurət olduğunu sübuta yetirdi. Yaxın və uzaq ətrafımızda baş verənlər Prezident İlham Əliyevin "Dəmir yumruq" həqiqətinin beynəlxalq mahiyyətinin, işğala və təcavüzə qarşı qlobal gücün tətbiqinin, başqa sözlə desək, Azərbaycan nümunəsinin bariz ifadəsi sayıla bilər.

Azərbaycanın Vətən müharibəsində böyük qələbəsinin və onun əldə edilməsində Prezident, Ali Baş Komandan İlham Əliyevin müstəsna xidmətlərinin müasir həyatımızın və gələcək tariximizin əlamətdar hadisəsi olduğunu sübut etməyə ehtiyac duyulmur. Bu, istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə hamılıqla qəbul edilən həqiqətdir. Azərbaycanın həm bugünkü, həm də gələcək nəsilləri qürur və iftixar hissi ilə bu həqiqətlə yaşayacaqlar.

Çoxəsrlik tariximizin şanlı şəhifəsi hesab etdiyimiz möhtəşəm zəfərimizin düşmənlərin məkrli niyyət və planlarına ölümcül zərbəsi fonunda 30 il bundan əvvəl bacarıqsızlığı ucbatından erməni təcavüzünə layiqli müqavimət göstərə bilməyən o zamankı iqtidarın marginal qruplaşmalara çevrilmiş qalıqlarının qalib iqtidarın fəaliyyətini təftiş etmək cəhdləri haqlı təəssüf və acı təbəssüm yaradır. Prezident İlham Əliyevin Azərbaycanın milli və dövlət maraqlarının sonadək qorunmasına hədəflənmiş qətiyyətli siyasətinin mahiyyətini dərk etməkdən uzaq olan yuxarıda adıçəkilən qruplaşmaların ayrı-ayrı nümayəndələrinin gah ermənipərəst, gah da Fransapərəst mövqelər sərgiləmələri onların timsalında müxalifətin deqradasiyasının ən çılpaq nümunəsidir. İllərdir cəmiyyətin alternativ siyasi-ideoloji mərkəzi olmaq imkanlarını çoxdan itirərək məişət demoqogiyası səviyyəsinə düşmüş müxalifətin həmin qruplaşmaları ya anlamazlıqdan, ya da bilərəkdən düşmən təbliğatının ruporuna çevriliblər.

Həqiqəti dərk etmək haqqı dərk etməkdir. Vətən müharibəsi həqiqətinin dərk edilməsi Azərbaycanın haqqının dərk edilməsi mənasını ifadə edir. Artıq bütün dünya Azərbaycanın həqiqətini dərk edib, deməli, xalqımızın haqqını qəbul və etiraf etdiyini bildirib. Əks mövqedə duranlar erməni millətçiləri, onların havadarları və təəssüf ki, Azərbaycan müxalifətinin marginallaşan qruplarıdır. Onlar hələ də qalibin mühakimə edilmədiyinin, ona haqqı çatan hörmət və ehtiramı göstərməyin tarixin özü qədər yaşı olan həqiqət və müdriklik nümunəsi sayıldığını dərk edə bilməyiblər.

Azərbaycan Qalibdir. İlham Əliyev Qalibdir. Bu həqiqəti dəyişə biləcək nə güc, nə də məntiq mövcuddur. Sadəcə olaraq onu qəbul etmək, onu qiymətləndirməyi bacarmaq lazımdır. Azərbaycan vətəndaşı kimi hər birimizin müqəddəs vəzifəsi qazandığımız möhtəşəm qələbəni qorumaq, gələcək nəsillərə çatdırmaq, onu daha da mötəbər, daha əzəmətli, daha zəngin etməkdir.

## "Dəmir yumruq": zəfərə səsləyən qətiyyət və inam

Müharibələr insanın cəmiyyət halında birləşdiyi ilk gündən etibarən düşündüyü ən qanlı layihələrdəndir. Onu ictimai praktikadan silib atmaq üçün yüz illər boyu çağırışlar səsləndirilməsinə baxmayaraq qanlı toqquşmaları nəinki birdəfəlik dayandırmaq mümkün olmayıb, əksinə, insan kütləvi qırğın silahlarının yaradılması sahəsində çox yüksək zirvələr fəth edib. Görünür, bəşəriyyət müharibələri fəlakətlərin səbəbkarı kimi lənətləməklə yanaşı, onun ədalətsizliyə, haqsızlığa, zorakılığa, təcavüz və işğallara qarşı sonuncu mübarizə forması olması ilə hesablaşmaqdan da vaz keçə bilməmişdir. Tarixən sülhsevər, tolerant, barışdırıcı xüsusiyyətləri ilə tanınan Azərbaycan xalqının zorən cəlb olunduğu Qarabağ münaqişəsində müharibə kimi vasitəyə əl atmasını yalnız ədaləti bərpa etməyin sonuncu formasına müraciət etmək məcburiyyətində qalması ilə izah etmək mümkündür. Belə olmasaydı, Azərbaycan dövləti təxminən 30 il ərzində erməni təcavüzü nəticəsində işğal olunmuş Qarabağın sülh yolu, beynəlxalq vasitəçilərin köməyi ilə qaytarılması vədlərinə səbir və təmkin nümayiş etdirməzdi.

Azərbaycanın Vətən müharibəsi təcavüzə məruz qalmış, torpaqları işğal edilmiş, beynəlxalq vasitəçilərin kömək vədlərinə inamını bütünlüklə itirmiş xalqın öz haqlarını bərpa etmək naminə məcburi addım atmaqdan başqa bir şey deyildir. Erməni tərəfin qeyri-konstruktiv mövqeyi, beynəlxalq sülhyaratma missiyasının isə əlacsızlığı alternativ seçim imkanını bütünlüklə heçə endirmişdi. Azərbaycanın qarşısında ədalət müharibəsinə başlamaqdan başqa yol qalmamışdı.

Tarixi ədalətin bərpa edilməsi naminə başlayan Vətən müharibəsi müasir dövrün ən uğurlu, ən qısamüddətli və bunu da qeyd etmək olar, nisbətən az itkilərlə müşayiət olunan savaşı sayıla bilər və güman edirəm ki, sayılır. Dünyanın ən tanınmış hərbi ekspertləri onu döyüş strategiyası baxımından tam yeni növ müharibə sayması heç də təsadüfi deyildir. Lakin Vətən müharibəsini daha çox səciyyələndirən cəhət onun bütün xalqın səfərbərliyinə, ən azından mənəvi birliyinə əsaslanması hesab edilməsidir.

Vətən müharibəsinin gedişində Prezident, Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruğ"u savaşın ruhlandırıcı çağırış simvolu rolunu kifayət qədər uğurla yerinə yetirdi. Müharibə insan fəaliyyətinin dəqiq planlaşdırılmağa, idarə olunmağa, səfərbərliyə və həm xalqı, həm də döyüşçüləri ruhlandırmağa ən çox ehtiyac duyan formasıdır. Sərkərdənin uğuru bütün komponentlər üzrə müharibəyə hazırlığın təmin edilməsindən və ruhlandırıcı-səfərbəredici mexanizmi işə sala bilməsindən asılıdır. 44 gün ərzində möhtəşəm Zəfərin qazanılması, 30 ilin uzunsürən münaqişəsinin həll edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması müharibəyə hazırlıqdan tutmuş onun ən yüksək peşəkarlıq səviyyəsində idarə olunmasına qədər bütün mərhələlərdə uğurların əldə olunmasından xəbər verir.

Vətən müharibəsinin uğurlu simvolu hesab etdiyimiz "Dəmir yumruq" zəfərə səsləyən qətiyyət və inam kimi qavranılmağa layiqdir. O, hər şeydən əvvəl Azərbaycan dövlətinin, onun Prezidentinin və xalqın qətiyyətinin, dönməzliyinin, mübarizliyinin doğru seçilmiş ifadəsi idi. Azərbaycan xalqı Qarabağ münaqişəsinin bütün dövrlərində düşmənə layiqli cavab verilməsi, torpaqlarımızın işğaldan azad edilməsi işində qətiyyətli olduğunu dəfələrlə sübuta yetirmişdir. Münaqişənin başladığı ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlində xalqın düşmənə müqavimət göstərmək qətiyyəti on minlərlə insanın könüllü surətdə cəbhəyə yollanmasında, minlərlə qurbanlarımızda özünün bariz ifadəsini tapır. Hamının səbirsizliklə gözlədiyi qələbənin gəlməsini xalqımızın 30 ilə yaxın müddət ərzində gözləməsinin səbəbi heç bir halda milli qətiyyətin, mübarizə əzminin yetərincə olmamasında axtarıla bilməz və axtarılmamalıdır. Qələbəni təmin edəcək çatışmayan yeganə şey o zamankı iqtidarın zəifliyində, xalqı birliyə, səfərbərliyə səsləyən çağırışları etməməsi və ya edə bilməməsində, əhalinin şəksiz inamından məhrum olmasında idi. "Dəmir yumruq" haqqında söhbət etdiyimiz boşluğu dolduran, xalqı səfərbər edən qüdrətli amil kimi meydana çıxdı və onun şahidi təkcə Azərbaycan vətəndaşları deyil. İki il öncə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi naminə Vətən müharibəsini dünya kütləvi informasiya vasitələrində izləyən hər kəs "Dəmir yumruq" həqiqətinin şahidləridir. Prezident İlham Əliyevin aparıcı beynəlxalq televiziyalara və digər KİV-lərinə çoxsaylı müsahibələrinin bütün dünyanın "Dəmir yumruq" həqiqətinə şahid olmasına etibarlı informasiya təminatı yaratdığı ayrıca vurğulanmalıdır. Beləliklə, "Dəmir yumruq" həqiqəti savaşın milli amili statusundan beynəlxalq statusa transferinə zəmin yaratdı.

"Dəmir yumruq" məfkurəsinin digər komponenti xalqın Prezidentə, onun rəhbərliyi altında haqq mübarizəsində milli ordumuzun qələbəsinə dərin inamın ifadəsi sayılmalıdır. Prezident İlham Əliyevin sərkərdə qətiyyəti, milli birliyin və həmrəyliyin başlıca təminatçısı kimi çağırışları Qələbəyə inamın formalaşmasında və gözlədiyimiz Zəfərin təmin edilməsində həlledici rol oynamışdır. Hamılıqla etiraf edilən həqiqət ondan ibarətdir ki, 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər Azərbaycan xalqının, Ordumuzun və qəhrəman əsgərlərimizin şanlı Qələbəsi olduğu qədər də Prezident İlham Əliyevin Qələbəsidir. Onun Qələbəyə aparan uzun yolun bütün mərhələlərində - ölkə iqtisadiyyatının güclənməsində, ən müasir silahlarla təchiz edilmiş yüksək döyüş qətiyyətinə malik ordunun formalaşmasında, Azərbaycanın beynəlxalq imicinin və mövqelərinin möhkəmlənməsində, milli birliyin və həmrəyliyin təmin edilməsində, qəhrəman döyüşçülərimizin qələbəyə ruhlandırılmasında və döyüş əməliyyatlarının idarə olunmasında müstəsna xidmətləri deməyə əsas verir ki, Vətən müharibəsinin yekunu olan tarixi Zəfərin baş memarı, əsas müəllifi Prezident İlham Əliyevdir. "Dəmir yumruq" həqiqətinin təntənəsi İlham Əliyevin Qələbəsinin təntənəsi, müasir tariximizin qürur və iftixar səhifəsinin parlaq ifadəsidir.

## Azadlıq savaşının yaratdığı yeni reallıq

Azərbaycanın möhtəşəm Qələbə ilə nəticələnən İkinci Qarabağ müharibəsi ölkədə və bölgədə bir sıra ciddi yeni reallıqların meydana gəlməsini şərtləndirib. Qazandığımız tarixi Zəfər ilk növbədə Azərbaycan dövlətinin yeni statusunun qəti şəkildə qərarlaşmasını təmin etdi. Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ötən əsrin son onilliyində və XXI əsrin ilk onilliklərində Azərbaycanın iqtisadi, sosial durumunda, regional və beynəlxalq mövqeyində baş verən dərin dəyişikliklər onun statusunun ciddi şəkildə yüksəlməsinə etibarlı zəmin hazırlamışdı. Bölgənin ən böyük iqtisadiyyatı olması, sosial baxımdan ölkəmizin regional liderliyi son onilliklərin müşahidə və etiraf edilən gerçəklikləridir. Qeyd olunan tarixi kəsimdə Azərbaycanın əhalisi xeyli artaraq 10 milyonluq səviyyəyə çatmış, iqtisadiyyat 3 dəfədən çox böyümüş, əhalinin həyat səviyyəsi böyük miqdarda yüksəlmiş, ordunun döyüş qabiliyyətinin artırılması istiqamətində zəruri addımlar atılmışdır. Beynəlxalq əməkdaşlıq sahəsində qazanılan uğurlarla birlikdə sadalanan nailiyyətlər Azərbaycanın regional və dövlətlərarası münasibətlər sahəsində mövqeyinin köklü surətdə möhkəmlənməsi ilə müşayiət olunurdu. Lakin Qarabağın işğal altında olması Azərbaycanın iqtisadi qüdrətində, zənginlik səviyyəsində və beynəlxalq mövqeyində müşahidə edilən dəyişikliklərin onun regional dövlət statusunun qəti şəkildə yeni parametrlər kəsb etməsi üzərinə müəyyən kölgə sala bilirdi. Bu baxımdan İkinci Qarabağ müharibəsində əldə olunan möhtəşəm Zəfərin ölkəmizin yeni statusunun bütünlüklə formalaşmasına və hamılıqla etiraf olunmasına müstəsna təsiri qeyd edilməyə bilməz.

Qarabağ müharibəsinin qalibiyyətlə nəticələnməsinin yaratdığı yeni reallıqlar sırasında Azərbaycanın beynəlxalq iştirakçılığının keyfiyyətcə yeni mərhələyə daxil olması, Prezident İlham Əliyevə qlobal miqyasda hörmət və etimadın yüksəlməsi ayrıca vurğulanmağa layiqdir. Yuxarıda sadalanan sosial-iqtisadi xarakterli amillərlə əlaqədar olaraq Azərbaycanın və onun Liderinin yüksələn imicinin İkinci Qarabağ savaşından sonra yeni parametrlərlə zənginləşməsi aydın şəkildə görünməkdədir. Prezident İlham Əliyevin Avropa İttifaqının təşkil etdiyi sammitlərdə, digər beynəlxalq meydançalardakı toplantılarda xüsusi nüfuz sahibi olan qonaqların sırasında yer tutması qeyd edilən fikrin aydın ifadəsidir.

30 ilə yaxın işğal altında olan torpaqların azad edilməsi nəticəsində erməni vandalizminin tam çılpaqlığı ilə ifşası təbliğat sahəsində yeni reallıq kimi qiymətləndirilə bilər. İndi bütün mədəni dünya illər boyu özünü məzlum millət kimi təbliğ edən erməni şovinistlərinin həqiqi mahiyyətini olduğu kimi görmək imkanı qazanıb. Azərbaycanı müharibədən sonra ziyarət edən çoxsaylı siyasətçilər, elm və mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri işğaldan əvvəl bir milyona yaxın insanın yaşadığı şəhərlərin, qəsəbələrin erməni vandalları tərəfindən bütünlüklə dağıdılaraq talan edilməsinin canlı beynəlxalq şahidləridir. Ağdamın, Füzulinin, digər azad edilmiş yaşayış məntəqələrinin xarabalıqları erməni vandalizminin həqiqi simasını nümayiş etdirməklə on illər boyu aparılan saxta antitürk, anti-Azərbaycan təbliğatına ölümcül zərbə vurmuşdur.

Üç on il Azərbaycan işğala və etnik təmizlənməyə dözməli oldu, məcburi köçkünə çevrilən bir milyona qədər insana zəruri həyat şəraiti yaratmağa böyük səylər və vəsait sərf etdi. Eyni zamanda 2020-ci ilin tarixi qələbəsini təmin etmək naminə müasir və yetərincə güclü ordu yaradılmasına kifayət qədər böyük sərmayə yatırıldı. İndi isə erməni vandallarının yerləyeksan etdiyi Qarabağın bərpası onilliklərlə vaxt, milyardlarla sərmayə tələb edir. Bu yaxınlarda Prezident İlham Əliyevin qeyd etdiyi kimi, azad edilmiş torpaqlarımızı erməni vandallarının miras qoyub qaçdığı minalardan təmizləmək üçün 30 il vaxt, 25 milyard dollar vəsait tələb olunur. Bu, təkcə ərazilərin minalardan təmizlənməsi üçün lazım olan vaxt və vəsaitdir. Dağıdılmış şəhərlərin və kəndlərin bərpası və sahiblərinə təqdim edilməsinə nə qədər vaxt və xərc lazım olacağını isə zaman göstərəcəkdir.

Qeyd olunanlar erməni təcavüzünün xalqımıza vurduğu yaraların heç də hamısı deyil. İtirilən minlərlə həyat, on minlərlə insan sağlamlığı, viran edilən şəhərlər, kəndlər və qəsəbələr mütləq bu siyahıya əlavə edilməlidir. Yalnız o halda erməni vəhşiliyinin tam miqyasını dərk etmək mümkün ola bilər.

Erməni təcavüzünün yaratdığı acı reallığı İkinci Qarabağ müharibəsində tarixi Qələbənin yaratdığı yeni reallıq əvəz etməkdədir. Ermənistan təcavüzün və xəyanətin müqabilində layiqli cəzasını artıq alıb: ordusu darmadağın edilib, şovinizm və qonşulara xəyanət xəstəliyindən əl çəkə bilməyən millətçilərin iddiaları və xəyalları puça çıxarılıb.

Azərbaycan isə Qarabağa yeni həyat verir. Dağıdılan şəhərlər və qəsəbələr sadəcə bərpa edilmir, bölgə dünyanın ən abad yaşayış məskəni adını qazanmağa hazırlaşır. Salınan "ağıllı şəhər və kəndlər", yaradılan ən müasir infrastruktur, cəmi iki il içərisində sıfırdan tikilib istifadəyə verilən Füzuli və Zəngilan beynəlxalq aeroportları böyük arzuların və planların yalnız kiçik bir hissəsidir. Yaradılmaqda olan bu mənzərənin İkinci Qarabağ savaşının ortaya qoyduğu yeni reallığı tamamlayan həlledici məqamı olacağına heç bir şübhə yoxdur.

## Azərbaycanın regionda sülh və əməkdaşlıq təşəbbüsləri

İkinci Qarabağ müharibəsində Azərbaycanın inamlı qələbəsinin yaratdığı reallıqlar yaşadığımız bölgənin cari siyasi durumunda və gələcək perspektivlərində ciddi dəyişikliklərlə diqqəti cəlb edir. Aktiv hərbi qarşıdurma mərhələsi arxada qalıb, tərəflər arasında sülh və əməkdaşlıq şəraitində yaşamağın yollarının axtarışı gündəliyi fəth etməkdədir. Keçmiş 30 ilin ağır yükü sülh vəziyyətində yaşamaq düşüncələrini nə qədər çətinləşdirsə də, istər icmalar səviyyəsində, istərsə də siyasi müstəvidə dinc birgəyaşayış dünyagörüşünün alternativsizliyi daha dərindən şüurlara hakim kəsilir. Tərəflər arasında barış və əməkdaşlıq ideyalarının tərəfdarlarının artması, sülh çağırışlarının daha tez-tez səslənməsi bölgə əhalisinin münaqişədən əvvəlki rahat yaşamaq dövrünə nostalgiyasının təzahürü hesab edilə bilər. Bölgədə sülh və əməkdaşlıq əhvali-ruhiyyəsinin bərqərar olmasında Azərbaycanın xüsusi rolu ayrıca qeyd olunmağa layiqdir. Ölkəmizin həmişə sülhsevər siyasətin tərəfdarı olması, tolerantlığı və əməkdaşlığa üstünlük verməsi qalibiyyətli postmünaqişə mərhələsində aydın siyasi davranış nümunəsi kimi vurğulanmağa layiqdir. Torpaqlarımızın təxminən 30 il ərzində işğal altında saxlanılmasına, bir milyona yaxın vətəndaşımızın məcburi köçkün həyatı yaşamağa məhkum edilməsinə, təcavüzə məruz qalmış şəhər və kəndlərimizin bütünlüklə dağıdılmasına, Ermənistanın işğalçı qüvvələrinin işğal zonasında qeyri-insani davranışlarına rəğmən Azərbaycanın sülhpərvər mövqeyi Cənubi Qafqazda etimad və əməkdaşlıq mühitinin qərarlaşmasına mühüm təsir göstərməkdədir.

Azərbaycanın postmüharibə dövrünün qarşılıqlı etimad və anlaşma mühiti yaratmaq səyləri etibarlı sülh şərtlərinin qəbul edilməsi və tərəflərin gələcək əməkdaşlığına zəmin yaratması kimi sınanmış formaları özündə ehtiva edir. Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyasının həyata keçirilməsi, tərəflərin bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşması, paritet əsaslı kommunikasiya koridorlarının təmin edilməsi ölkəmizin təşviq etdiyi sülh və əməkdaşlıq təşəbbüslərinin əsasında dayanır.

Bölgədə postmüharibə dövrünün sülh və əməkdaşlıq mühitinin formalaşmasının vacib tərkib hissəsi Türkiyənin məlum şərtlər daxilində Ermənistanla əlaqələrini bərpa etməyə hazır olması hesab edilməlidir. Ermənistanın Azərbaycana qarşı təcavüzünə cavab olaraq Türkiyə ilə əlaqələrinin qırılmaması səbəbindən iqtisadi blokada şəraitinə düşdüyü nəzərə alınarsa, Ankaranın sülh müqabilində əməkdaşlıq düsturunun ermənilər üçün nə qədər həyati əhəmiyyət kəsb etməsi tamamilə aydın olar. Türkiyənin sözügedən yanaşmasının digər mənası bütünlükdə Cənubi Qafqazda sülh və əməkdaşlıq mühitinin yaradılmasına xüsusi önəm verməsidir.

Azərbaycan, eləcə də Türkiyə Qafqazda sülh və əməkdaşlığı bölgənin iqtisadi və sosial inkişafı qarşısında yeni imkanlar yaradılması nöqteyi-nəzərindən qiymətləndirir. Ölkəmizin yaxından iştirakı, bir sıra hallarda isə təşəbbüsləri sayəsində reallaşdırılan enerji və kommunikasiya layihələrinin regional əməkdaşlığı təşviq etmək yükü daşıdığı aydın görünməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə vurğuladığı ideya münaqişə dövrünün qarşıdurma ideologiyasını tədricən və davamlı surətdə qarşılıqlı etimad və əməkdaşlıq dünyagörüşünə çevirmək səyləri üzərində köklənib və bu, Azərbaycanın səmərəli regional dialoqa hazırlığına dəlalət edir.

Azərbaycanın sülh təşəbbüsləri özünün aydın ifadəsini işğaldan azad olunmuş , lakin bütünlüklə yenidən qurulmağa ehtiyac duyan Qarabağ və Şərqi Zəngəzur bölgələrinin əməkdaşlıq və etimad zonası elan edilməsində tapır. Bütünlüklə dağıdılmış şəhərlərin və qəsəbələrin bərpa edilməsi və məcburi köçkünlərin geri qayıtması üçün yararlı vəziyyətə gətirilməsi məqsədilə Azərbaycan genişmiqyaslı beynəlxalq əməkdaşlıq təşəbbüsü irəli sürməklə əslində bölgənin uzunsürən qarşıdurmadan sonra sülh və anlaşma məkanına çevrilməsi sahəsində ilk addımını atmışdır. Hazırda Qarabağın yenidənqurulmasında bir sıra ölkələrin tanınmış şirkətlərinin yaxından iştirakı ölkəmizin sülhsevər niyyətlərinin öz bəhrələrinin verdiyini sübuta yetirir. Sülh naminə əməkdaşlıq Qarabağın yenidən qurulmasında beynəlxalq şirkətlərin yaxından iştirakı timsalında özünün ən gözəl nümunələrindən birini nümayiş etdirməkdədir.

Azərbaycanın siyasi dialoq və davamlı sülh ideyaları nəinki regionda, eləcə də əksər beynəlxalq təşkilatlarda anlaşma ilə qarşılanmaqdadır. Prezident İlham Əliyevin Ermənistanın rəhbərliyi ilə müxtəlif formatlarda görüşlərinin keçirilməsi, Avropa Birliyinin belə görüşlərin keçirilməsinə həssaslıq nümayiş etdirməsi ölkəmizin mövqelərini möhkəmləndirən amillər hesab edilə bilər. Görünən odur ki, Azərbaycan Prezidentinin sülh təşəbbüsləri getdikcə daha geniş beynəlxalq dəstək qazanır, Cənubi Qafqazda etimad və əməkdaşlıq gündəliyinin alternativsizliyini qətiyyətlə təsdiqləyir.

Azərbaycanın postmüharibə dövründə sülh təşəbbüslərinin qəti qələbəsi əhəmiyyətli dərəcədə Ermənistanın konstruktiv mövqeyindən asılıdır. Münaqişənin qaynar fazasının başa çatmasından iki il ötməsinə baxmayaraq Ermənistan tərəfin müxtəlif bəhanələrlə sərhədlərin delimitasiyası və demarkasiyasından, sülh müqaviləsinin imzalanmasından yayınması postmüharibə dövrünün bu gün üçün mövcud olan diqqəti çəkən digər reallığıdır.

*Azərbaycanın sülh və əməkdaşlıq təşəbbüsləri coğrafi anlamda təkcə Qafqaz bölgəsi ilə hüdudlanmır. Bu gün Prezident İlham Əliyev dünya miqyasında tanınan, etimad göstərilən dövlət başçıları sırasında xüsusi yer tutur və onun beynəlxalq gündəliyin aktual problemləri ilə əlaqədar təşəbbüslərinin dəstəklənməsinə dair çoxsaylı nümunələr mövcuddur. Tam məsuliyyətlə qeyd oluna bilər ki, Azərbaycanın Cənubi Qafqazın sülh və əməkdaşlıq bölgəsinə çevrilməsi ilə əlaqədar çağırışları onun beynəlxalq əməkdaşlıq sahəsində təşəbbüslərini tamamlayır və yaşadığımız bölgədə etibarlı sülh və təhlükəsizliyin təmin olunmasına həlledici töhfə verəcək.*

**Əli ƏHMƏDOV,**
***Yeni Azərbaycan Partiyası Sədrinin müavini***

1992 2022

## YENİ AZƏRBAYCAN PARTİYASI 30

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

**Düşüncələrimi ipə-sapa düzməkdən ötrü yaddaşımda son 30 ilin salnaməsini varaq-varaq çevirirəm...**

**Düşünürəm ki, bu tarixin hər səhifəsində bu təsisatın adı var, imzası var.**

**Yeni Azərbaycan Partiyasının - doğma partiyamın yaranmasından 30 il ötür və mən bir igidin ömrü qədər olan bu illər haqqında düşüncələrimi yazıya çevirmək istəyirəm.**

**Bu illər təkcə bir siyasi partiyanın fəaliyyət müddəti deyil, Azərbaycanın müstəqillik tarixinin böyük bir parçasıdır, əslində, elə bu tarixin özüdür, çünki bu tarix Yeni Azərbaycan Partiyası ilə birgə yaşanıb, birgə yaradılıb və birgə yazılıb!..**

**Xəyal məni bir anlıq neçə ilin əvvəlinə, təlatümlü günlərə aparır, belə bir partiyanın meydana çıxması zərurəti, bunu vacib edən səbəblər, film kimi kadrlar, epizodlar gözlərimin önündən ötüb keçir.**

**Və insan psixologiyası ilə ictimai şüur arasındakı bənzərliklərə heyrətlənməyə bilmirəm...**



# TARİX və ƏBƏDİYYƏT

**30 il əvvəl Yeni Azərbaycan Partiyasının yaradılması ilə Azərbaycan xalqı təhlükələr qarşısında özünü, dövlətini qorumaq gücünü göstərdi.**

*Elin, ulusun ağır çətinliklərlə üzləşib, gələcəyə tərəf səmtini itirdiyi, müstəqillik yolunun ta başlanğıcında çar-naçar qalıb yenicə göyərən ümidlərini, arzularını, istiqlal ruhunu əldən vermək üzrə olduğu zamanda arasındakı ən güclü birinin, bu gücü də sözdə deyil, əməllərində təsdiqləmiş əsl Liderin ətrafında birləşməsi, taleyini onun müdrikliyinə etibar etməsi ulularımızdan gələn mənəvi haraya cavab, onların yolunun davam etdirilməsi, mənəvi mirasının yaşadılması idi.*

*Xalqımızın öndə gedən insanları, xalqın, dövlətin gələcəyinə görə məsuliyyət hissi duyan düşünən beyinləri ötən əsrin 90-cı illərinin əvvəllərində, Azərbaycanın böhranlı günlərində belə etdilər və onların səsinə səs verən cəmi xalqımızla birgə müstəqil dövlətimizin keçmişini, bugününü və gələcəyini hifz etmiş oldular.*

Nə yaxşı ki, belə bir düz yol seçildi, ona görə Azərbaycan əsrlərboyu başımıza gələnlərə rəğmən bu günə qədər mövcuddur, ayaqdadır, qüdrətlidir, xalqımızın milli ruhu, kimliyi yerindədir.

**Diridir, oyaqdır...**

❖ ❖ ❖

*Yeni Azərbaycan Partiyası xalqımızın yeniliklər, müsbət dəyişikliklər arzusunun ifadəsi kimi dünyaya gəldi, bununla belə keçmişin nailiyyətlərinə də xilaf çıxmadı bu partiya, gələcəyi keçmişin təcrübə və ənənələri üzərində yaratmaq yolunu seçdi və Ümummilli Liderimiz Heydər Əliyevin də bəyan etdiyi kimi, dünənin, bugünün və gələcəyin partiyasına çevrildi.*

**Dünənin, bu günün və gələcəyin partiyası!..**

*Aradan illər keçəndən sonra bu bir neçə kəlmənin mahiyyətinə varanda Heydər Əliyev müdrikliyinə bir daha heyran qalırsan.*

**Bu üç kəlmədə üç zaman bir araya gəlib...**

**Bu üç kəlmədə üç zaman birbirinə söykək olub...**

**Bu üç kəlmədə dünyanın, həyatın ahəngi kimi, üç zaman bir-birini tamamlayır...**

***Keçmiş, bu gün və gələcək!!!***

*Heydər Əliyevin böyüklüyü onda idi ki, o, heç zaman keçmişinə kəc baxmadı, əksinə, dünəni ilə daim qürur duydu. Çünki ömrün hər gününü şərəflə yaşamışdı, ömrün hər gününün məsuliyyətini dərk etmişdi və başqalarından da əsas gözləntisi bu idi.*

**İnanırdı ki, onun zəkası işığında, əzəmətli şəxsiyyətinin kölgəsində yaradılan partiya da məhz belə olacaq.**

***Yanılmadı!..***

*Heydər Əliyev zamana insanın öz dəyərlərinə, prinsiplərinə, ideyalarına sadiqliyinin ölçü vahidi kimi baxırdı.*

*Özü bu sədaqəti keçmişinin hər anında qorumuşdu, hesab edirdi ki, digərləri də həyatın ucuz parıltılarına aldanıb ideallarını qat-qat aşağı nəsnələrə qurban verməsələr, mənəvi zirvələrdə qərar tuta bilərlər.*

**O, büsbütün dövlət adamı idi, illərin təcrübəsi ilə bir dövlətin necə idarə edilməli olduğunu, hüquq və öhdəliklərini incəliklərinə qədər duyurdu, cəmiyyətin ehtiyaclarını, qayğılarını, güclü və zəif tərəflərini hiss edirdi, problemlərin necə yoluna qoyulmalı olduğunu bilirdi.**

Yeni Azərbaycan Partiyasının fəaliyyətinə, qarşıya qoyduğu məramlara da Heydər Əliyev belə baxırdı. İnanırdı ki, bu partiya o illərin çox yayğın küçə-meydan təfəkküründən, qaragüruh düşüncələrindən, hər şeyi bir anda tar-mar edib guya yerində qısa müddətə nəsə yaratmaq hay-küyündən uzaq duracaq.

*Kəmiyyətə deyil, keyfiyyətə üstünlük verəcək, öz sıralarında ən sağlam düşüncəli adamları bir araya gətirib, cəmiyyətdə mütərəqqi dəyişiklik, inkişaf meyillərinin tərcümanı olacaq.*

*Bu meyillərin insanlar arasında düzgün yayılmasına, görülən işlərin doğru kommunikasiyasına, atılan addımların öz məqsədinə çatmasına yardım göstərəcək.*

**Heydər Əliyev qurucu bir insan idi, nəyisə qurub-yaratmağın, köklü dəyişikliklər aparmağın necə çətin, uzun vaxt alan proses olduğunu, cəmiyyəti xaosa, anarxiyaya, başıpozuqluğa çəkməyin insanların həyatına hansı fəlakətləri gətirəcəyini yaxşı görürdü, toplumun dəyişiklikləri tədrici və daim hər günkündən bir az da yaxşılığa doğru davam edən bir proses kimi anlamalarını arzulayırdı.**

*Heydər Əliyev yaxşı bilirdi ki, küçədə-meydanda şüarlar hayqırmaqla dövlət qurulmaz, xalqın taleyi küçələrdə həll olunmaz, demokratiya adı altında cəmiyyəti saran xaos mühiti insanların həyatına ancaq ağrıacılar gətirə bilər, necə ki, 90-cı illərin əvvəllərində gətirirdi.*

Bu böyük dövlət adamının onun adı ətrafında, ideyaları işığında yaradılan Yeni Azərbaycan Partiyasına böyük ümidləri vardı və partiya uzun illər davam edən fəaliyyəti ilə bu ümidi doğruldaraq dünənin, bugünün və gələcəyin partiyası inamını qorudu.

Adətən, o təsisatlar böyük uğur qazanır və tarixdə əbədi olur ki, onları zəmanə özü yaratsın, dövr özü ərsəyə gətirmiş olsun.

**Yeni Azərbaycan Partiyası da zəmanənin yaratdığı, tarixi şəraitin həyat verdiyi siyasi təsisatdır və bu partiyanın 30 illik fəaliyyəti boyu qazandığı uğurların mayasında bu HƏQİQƏT durur.**

❖ ❖ ❖

*Yeni Azərbaycan Partiyasının yaradılması ərəfəsində müstəqilliyini yenicə qazanmış dövlətimiz ağır günlərini yaşayırdı. Ermənistanın ölkəmizə qarşı işğalçı müharibəsi davam edirdi, lay divar oğullarımız cəbhədə həyatlarını itirirdilər, düşmən əlinə keçən torpaqlarımızın əhatəsi getdikcə böyüyürdü, aparılan siyasətin yanlışlığı ucbatından qonşularla münasibətlər gərginləşdiyindən onlar da açıq-gizli dəstəkləri ilə Ermənistanın əlini gücləndirirdilər.*

Başda əyləşənlərinsə başı hakimiyyət davasına, vəzifə kürsülərinin bölgüsünə qarışmışdı, Azərbaycanın taleyi onları o qədər də maraqlandırmırdı. Cəmiyyətdə ümumi bir məyusluq əhvalı hökm sürürdü. Hamı hakimiyyəti təsadüflər nəticəsində ələ keçirmiş səriştəsizlərin ölkəni uzağa apara bilməyəcəklərinin fərqində idi.

*Həmin vaxtlar xüsusilə Naxçıvan çox ağır günlərini yaşayırdı. Hakimiyyət rəhbərliyi Moskvadan qayıtdıqdan qısa müddət sonra yerli sakinlərin dəstəyi ilə Naxçıvan Ali Məclisinin Sədri seçilən Heydər Əliyevə qısqanc münasibət bəslədiyindən bu bölgəni taleyin ümidinə buraxmışdı.*

**Blokada şəraitində, qışın şaxtasında işıqsız, qazsız, çörəksiz qalmış soyuq Naxçıvan bir də hakimiyyətin soyuq münasibətinin məşəqqətlərini yaşayırdı. Belə bir durumda Heydər Əliyevin əzmini, iradəsini ümid işığına çevirərək Naxçıvanı qoruması, bütün imkanlardan istifadə etməklə onu ağır vəziyyətdən çıxarmağa çalışması insan fədakarlığının rəsmi idi.**

❖ ❖ ❖

**...Bu sətirləri yaza-yaza unudulmaz 1992-ci ili, həyəcan və intizar dolu bir axşamı xatırlayıram...**

*Bir qrup jurnalist Naxçıvana getmişdik, soyuq bir payız günü idi, hamılıqla qərara gəldik ki, Heydər Əliyevi mütləq və mütləq ziyarət etməliyik.*

Üzdə bəlkə büruzə verməsək də, hər birimizin içində qəribə bir həyəcan vardı - Azərbaycan xalqının XX əsrdə yetirdiyi, uzaqdan-uzağa görüb varlığı ilə qürur duyduğumuz ən böyük dövlət adamı ilə görüşməyin, üz-üzə əyləşməyin, kəlmə kəsməyin həyəcanı...

**Bu əzəmətli Lideri ilk dəfə idi ki, bu qədər yaxından görürdüm, onun media mənsublarına isti münasibətinə, rəğbətinə şahid olurdum...**

*Ziyarətinə gəlmiş jurnalist qrupunu elə Naxçıvan Ali Məclisinin binası önündə, pilləkənlərin üstündəcə qarşıladı, sonra söhbətimizi Heydər Əliyevin iş otağında davam etdirməyə başladıq, Ulu Öndərin ətrafında dövrə vurub əyləşdik, onun xoş aurasına düşdük.*

Qrupumuzda müxtəlif firqələri, siyasi baxışları, mövqeləri təmsil edən jurnalistlər vardı, amma Heydər Əliyev şəxsiyyəti aradakı bütün fərqliliklərə rəğmən hamını öz ətrafında bir araya gətirmişdi.

**Bu mənzərə - sanki balaca bir iş otağına sığışmış Azərbaycanın kiçik simvolu idi.**

*Onun aurasında, söhbətlərində, baxışlarında, bölüşdüyü düşüncələrində hər hansı ayrıcalıqlar yox idi, Azərbaycanın gələcəyi vardı, ölkənin taleyi ilə bağlı əndişələr, qayğılar ifadə olunurdu, müstəqil dövlətimizin gələcəyinə strateji baxış ortaya qoyulurdu, vəziyyətdən çıxmaq üçün görülməli olan işlərdən söhbət açılırdı.*

**Naxçıvanda işıqlar yanmırdı...**

Elektrik enerjisi fasilələrlə verilirdi - yazardım, amma buna heç fasilələrlə verilmək də demək olmazdı.

*İqlimi kifayət qədər sərt olan, qışda havaların indikindən də soyuq keçdiyi, şaxtanın qılınc kimi kəsdiyi o illərdə hər yerdən təcrid olunmuş, evlərində işıq, qaz yanmayan, insanları övladlarının qarnını doyurmağa gündəlik bir parça çörəyin qayğısı ilə yaşayan bir bölgə təsəvvür edin.*

**Heydər Əliyev o ağır vaxtların Naxçıvanına rəhbərlik edirdi, bizimlə söhbətləşdiyi bu alaqaranlıq, soyuq iş otağında gecəsini-gündüzünə qatıb vəziyyətdən çarə tapmağa çalışırdı, gümanı gələn yerlərdən, xüsusən dar günlərimizin həyanı qardaş Türkiyədən kömək istəyirdi, şəxsi nüfuzunun gücü ilə mümkün köməyi alırdı və bununla Naxçıvanı qoruyurdu.**

❖ ❖ ❖

**Heydər Əliyevin iş otağında idik, masasının üzərində neft çırağı yanırdı, çırağın şöləsi Onun tunc kimi möhkəm, qətiyyətli çöhrəsində əks olunur, divara bu böyük şəxsiyyətin əzəmətli kölgəsi düşürdü.**

*Cəmi bir neçə il əvvələ qədər böyük imperiyanın rəhbər şəxslərindən biri kimi qurulmasına, inkişafına bilavasitə rəhbərlik etdiyi nəhəng infrastruktur layihələri ilə ittifaq boyu insanların evlərini, iş yerlərini işığa, nura qərq edən, milyonlarla insanın həyatına rahatlıq gətirən dövlət adamının indi özünün neft çırağının işığında əyləşib çalışması, balaca bir şəhərə heç olmasa ikicə saatlığına elektrik enerisinin verilməsi üçün çarə araması adama o qədər heyrətli gəlirdi ki...*

**Amma qəribədir ki, bu düşüncələrdə ümidsizliyə, bədbinliyə də yer yox idi!**

**Və ola da bilməzdi!..**

*Çünki qarşımızda problemlərlə mübarizə aparan, çətinliklərin üzərinə gedən və əzəməti ilə bütün çətinliklərdən də, problemlərdən də daha böyük, daha güclü, daha uca görünən əsl şəxsiyyət əyləşmişdir.*

**Heydər Əliyevin səsindəki qətiyyət adama ancaq ruh verirdi.**

Hiss edirdin ki, pis günün ömrü az olacaq...

Bu çətinliklər, çarəsizliklər, qayğılar ötüb keçəcək...

**Heydər Əliyev mütləq işıqlı bir yol tapacaq, mütləq!..**

*O danışırdı, jurnalist həmkarlarımızın adda-budda suallarını cavablandırırdı, özü bizə suallar ünvanlayırdı, ölkədəki vəziyyətdən dolayı narahatlıqlarını, nigaranlıqlarını bölüşürdü, hərdən söhbətimizi kəsən telefon zəngləri ilə qonşu dövlətlərin rəhbərləri ilə danışırdı və biz onun əzəmətində, düşüncələrində, gələcəyə baxışında Azərbaycanı qısa zamanda çətin durumdan çıxarmağa qadir Lideri görürdük.*

**Əslində, bu, bütün Azərbaycan xalqının baxışı idi!..**

*Onun üzündəki çıraq şöləsindən bütün Azərbaycan vətəndaşlarının ürəyinə ümid işığı düşürdü, bütün Azərbaycan xalqının nəzərləri Naxçıvana dikilmişdi, düşüncələrdə onun adı əks-səda verirdi, qəlblərdə onun tezliklə Azərbaycanı üzləşdiyi vəziyyətdən çıxaracağına inam göyərirdi.*

**Yeni Azəbaycan Partiyasını bu inam dünyaya gətirdi...**

**Qəlblərdəki o yaşıl ümid fidanları pöhrələnərək, torpağın dərinliklərinə rişələnərək, partiyanın emblemindəki köklü-köməcli həyat ağacının simvoluna çevrildi.**

❖ ❖ ❖

Heydər Əliyevlə görüşümüzdən cəmi bir neçə gün sonra tarixə "91-lər" kimi düşəcək bir qrup tanınmış ziyalımız Heydər Əliyevə üz tutub, Yeni Azərbaycan Partiyasının yaradılmasını və bu partiyanın fəaliyyətində iştirak etməsini ondan xahiş etdi.

*Heydər Əliyev ziyalıların müraciətini hər zamankı kimi, onda da cavabsız qoymadı, onların çağırışına həssaslıqla yanaşdı, müraciətə cavab verərək belə bir partiyanın yaradılmasının tarixi zərurətdən doğduğunu və əgər bu partiya yaradılarsa, onun işində iştirak etməyə hazır olduğunu bildirdi.*

Onda Naxçıvana gediş-gəliş indiki qədər asan, uçan təyyarələr isə təzə, rahat və təhlükəsiz deyildi. Üstəlik, Heydər Əliyevin rəhbərliyi ilə yaradılan partiyanın təsis konfransında iştirak etmiş şəxslərin ovaxtkı hakimiyyətin təzyiqləri ilə üzləşəcəkləri də şübhə doğurmurdu. Məqam sahibləri onları buna görə cəzalandırmağa çalışacaqdılar, küçələrdə silahlı adamların at oynatdığı, xaotik bir vəziyyətin hökm sürdüyü zamanda belə bir cəsarət hətta kimlərəsə həyatları bahasına başa gələ bilərdi.

**Buna rəğmən insanlar bütün təhlükələri gözə alaraq ürəklərinin səsi ilə Yeni Azərbaycan Partiyasının təsis yığıncağında iştirakı özlərinə borc bilmişdilər.**

***Konfransda Heydər Əliyev açıq səsvermə yolu ilə partiyanın sədri seçildi!..***

❖ ❖ ❖

*Yeni Azərbaycan Partiyasının 30 illik tarixində bir məqam həmişə diqqətimi çəkib. Adətən partiya yaradılır və Liderini hakimiyyətə gətirir, Yeni Azərbaycan Partiyasının tarixində isə proses fərqli məcrada baş verdi. 1993-cü il iyunun 15-də Heydər Əliyev xalqın israrlı çağırışları, böhran vəziyyətində başını itirmiş ölkə rəhbərlərinin acizanə xahişləri ilə Azərbaycanın ali rəhbərliyinə qayıdışı ilə Yeni Azərbaycan Partiyasını da hakimiyyətə gətirdi.*

**Heydər Əliyevin müstəqil dövlətimizin gələcəyi ilə bağlı ideallarının gerçəkləşməsində, qarşıya qoyduğu strateji vəzifələrin yerinə yetirilməsində, xalqın arzularının reallaşdırılmasında Yeni Azərbaycan Partiyası da bütün gücünü, potensialını ortaya qoydu. Bu qurumda bir araya gələn, zaman-zaman Yeni Azərbaycan Partiyasına axın edən sağlam təfəkkürlü insanların timsalında dövlət quruculuğu proseslərinin, sosial-iqtisadi islahatların, demokratik inkişafın, vətəndaş cəmiyyətinin formalaşmasının avanqardına çevrildi.**

Həyata keçirilən islahatların öz məqsədlərinə çatmasında, baş verən dəyişikliklərin düzgün anlaşılmasında, qazanılmış nailiyyətlərin daha da möhkəmləndirilməsində və inkişafa mane olan səbəblərin vaxtında üzə çıxarılaraq həllində mühüm rol oynadı.

*Yeni Azərbaycan Partiyası bu illərdə ölkədə inkişaf proseslərinin həyata keçirilməsi üçün son dərəcə zəruri olan peşəkar kadr bazasını formalaşdırdı, gənc nəslin vətənpərvərlik tərbiyəsində, dövlətçilik təfəkkürünə yiyələnməsində, xanımların ictimai fəallığının təmin olunmasında böyük işlər gördü.*

**Bu partiya cəmiyyətimizə siyasi mədəniyyət gətirdi, çoxpartiyalı sistemin inkişafında müstəsna əməyi oldu, milli maraqlar məsələsini aktuallaşdırdı, demokratiyanın təməl düsturlarından olan "çoxluğun hakimiyyəti, azlığın hüquqları" düşüncəsini təfəkkür tərzinə çevirdi, fərqli baxışlar, mövqelər arasındakı ziddiyyətləri diskussiya məcrasına yönəltdi, ali qanunverici orqanda çoxluqda olan partiya kimi milli parlamentarizm ənənələrimizin inkişafına mühüm töhfələr verdi.**

*Yeni Azərbaycan Partiyası milliyyətindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycanı özünə Vətən bilən, bu torpaqlara qəlbən bağlı bütün insanların partiyası oldu, Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyasının cəmiyyətdə yayılmasında əhəmiyyətli rol oynadı, ictimai dialoq təşəbbüsləri, məsələlərə sağlam münasibəti, daimi inkişaf çağırışları, Azərbaycana fayda vermək istəyən bütün insanlara dəstəyi ilə hətta bu quruma üzv olmayanların da doğma partiyası kimi tanındı.*

Bu partiya müstəqillik dönəmində Azərbaycanda seçki ənənələrini inkişaf etdirdi, seçkilərdə geniş təmsilçiliyi, təşkilati dəyərləri, idarəetmə strukturları, ətrafında bir araya gələn sosial bazası ilə daim örnək sayıldı.

❖ ❖ ❖

*Yeni Azərbaycan Partiyası - irslə varislik arasındakı vəhdətin, bağlılığın nümunəsini yaratdı, düşüncənin gücünü, enerjisini göstərdi, ideya ətrafında yaradılmış siyasi təşkilatın ilk Liderinin cismani yoxluğu dövründə də Onun ideyaları işığında da yenə necə inamla, mətinliklə yoluna davam etməsinin, daha da güclənməsinin, milli maraqlara, Vətənin inkişafına xidmət göstərməsinin parlaq örnəyini ortaya qoydu.*

**Heydər Əliyevin əbədiyyətə qovuşmasından sonra üzvlərin yekdil dəstəyi, xalqın sosial sifarişi ilə Yeni Azərbaycan Partiyasının Sədri seçilən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış tarixi uğurlar timsalında Ulu Öndərin bütün arzuları yerinə yetdi.**

**Bu böyük dövlət adamının Yeni Azərbaycan Partiyasının məqsədləri və vəzifələrində də öz ifadəsini tapmış ən böyük, ən ülvi vəsiyyəti isə 2020-ci ilin 8 Noyabr günündə - Zəfər Günümüzdə gerçək oldu...**

*Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev həmin günün səhəri Fəxri xiyabana gedərək, Ulu Öndərin abidə-kompleksi önündə Şuşanın azadlığı xəbərini, Qarabağın, Şərqi Zəngəzurun işğaldan azad edilməsi müjdəsini qəlbinin səsi ilə Heydər Əliyevin Vətən səmalarında dolaşan əbədiyaşar ruhuna yetirdi, daha sonra torpaq uğrunda canını fəda etmiş övladlarımızın uyuduğu məkandan - Şəhidlər xiyabanından, Azərbaycan paytaxtının coğrafi baxımdan da, mənən də ən uca məqamlarından birindən bu xoş xəbərin sevincini bütün dünya azərbaycanlıları ilə, bizi istəyən, haqq işimizi dəstəkləyən hər kəslə paylaşdı.*

***Necə də gözəl, şərəfli və tarixi məqamlar...***

***Qanad açıb uçmaq istəyirsən...***

Yeni Azərbaycan Partiyası yaradılan zaman ürəklərdə dolaşan, müqəddəs dua misalı dillərdə zikr olunan bir arzumuzu da başa vardı...

Azərbaycanın ərazi bütövlüyü bərpa edildi və bu partiya tarixinin ən qüdrətli dövrünü yaşayan, haqq savaşında qalib gəlmiş güclü bir dövlətin hakim partiyası kimi əbədiyaşar oldu...

**Dönüb geriyə baxıram... Qəlbimi sevinc, fərəh hissi bürüyür: bəli, dövlətimiz və dövlətçiliyimiz etibarlı əllərdədir!..**

**Yenilənmə - heç zaman başa çatmayan, davamlı olaraq cəmiyyətin ümumi əhvalını, insanların təfəkkürünü təravətləndirən, gələcəyə, təzətər arzu və ümidlərə kökləyən, daha böyük nailiyyətlərə yönləndirən *əbədi prosesdir*.**

**Yeni Azərbaycan Partiyası da adındakı yenilik ruhuna, zamanla birgə yenilənmə prinsipinə sadiqdir.**

**Həyat dəyişdikcə bu partiya da dəyişir, fəaliyyətini müasir çağırışlara uyğunlaşdırır, inkişaf proseslərinin önündə addımlayır.**

**Şərəflə, zəfərlə addımlayır!..**

**Yeni Azərbaycan Partiyası zamandan irəlidə olan partiyadır və doğma partiyamızın fəaliyyət tarixini müəyyən edən 30 il rəqəmi də bu təsisatın möhtəşəm imzası kimi əbədi parlayacaq!..**

**Tarixi yubileyin mübarək, doğma partiyam!**

**Azərbaycan var olduqca, yeniləndikcə, inkişaf etdikcə Sən də var olacaqsan!..**

**İmamverdi İSMAYILOV,**

***Milli Məclisin deputatı, yazıçı-publisist***

# İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında 2023-cü ilin dövlət büdcəsi müzakirə olunub

*Əvvəli 1-ci səh.*



Qeyd edilib ki, 2022-ci ildə bütün dünyada uzun illər görünməyən inflyasiya, bunun nəticəsində isə ərzaq qıtlığı müşahidə olunur və iqtisadi böhranın aradan qaldırılması ilə bağlı tədbirlər görülür. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yaratdığı yeni reallıqlar və yeni imkanlar sayəsində 2022-ci ildə ölkə iqtisadiyyatında dayanıqlı və davamlı artıma nail olunub. Cari ilin 9 ayı ərzində Ümumi Daxili Məhsul (ÜDM) 5,6 faiz artaraq 98 milyard manat, qeyri-neft sektorunda ÜDM isə 10,1 faiz artaraq 50 milyard manatdan çox olub. Keçən dövr ərzində ixrac 19 milyard ABŞ dollarından, o cümlədən qeyri-neft ixracı 24 faizdən, strateji valyuta ehtiyatları 55 milyard dollardan, əhalinin nominal gəlirləri 20 faizdən, orta aylıq əməkhaqqı 14 faizdən çox artıb. Ötən 9 ay ərzində orta illik inflyasiya 13,4 faiz, ərzaq inflyasiyası isə 19 faizə yaxın olub. Bütövlükdə, 2022-ci ildə büdcə gəlirlərinin artması müşahidə edilib. Komitə sədri ümumilikdə ötən dövr ərzində ölkə iqtisadiyyatının uğurlu inkişaf etdiyini söyləyib.

Nəzərə çatdırılıb ki, keçən dövr ərzində dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq edilib. Nazirlər Kabineti tərəfindən antiinflyasiya tədbirləri haqqında sənədlər qəbul olunub və bu istiqamətdə lazımi addımlar atılıb. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri davam etdirilib. Ümumilikdə büdcədən bu istiqamətdə 4 milyard 848 milyon manat vəsait ayrılıb və növbəti ildə də bu sahəyə vəsait ayrılacaq.

Azərbaycan iqtisadiyyatının 2023-cü ildə daha çox qeyri-neft sektoru hesabına artması, qeyri-neft sektorunun payının ÜDM-də çoxalması, qeyri-neft ixracının daha çox olması, iqtisadiyyatda şəffaflığın artması, etimad mühitinin güclənməsi, qarşıda duran hədəflərin özəl sektor tərəfindən həyata keçirilməsi kimi geniş imkanlar mövcuddur.

Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin gəlirləri 30 milyard 720 milyon 700 min manat, xərcləri 33 milyard 300 milyon manat məbləğində nəzərdə tutulub.

Sonra maliyyə naziri Samir Şərifov 2023-cü ilin dövlət büdcəsi haqqında geniş məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının 2023-cü il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin layihələri Prezident İlham Əliyevin Azərbaycan Respublikasının 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair milli prioritetlərin, 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının ehtiva etdiyi məqsədlərin reallaşdırılmasına dair müvafiq sərəncamlarına və "Büdcə sistemi haqqında" qanunun tələblərinə uyğun hazırlanıb. Təqdim olunan layihə büdcənin neft gəlirlərindən asılılığının mərhələlərlə aradan qaldırılmasını, fiskal dayanıqlığı və borc intizamını, habelə Dövlət Neft Fondunun aktivlərinin dayanıqlı səviyyədə qorunmasını təmin etməklə yanaşı, orta müddətli sosial-iqtisadi inkişaf strategiyasında 2023-cü il üzrə qarşıya qoyulmuş hədəflərə nail olmaq imkanı yaradır. Qeyd olunub ki, növbəti ilin dövlət və icmal büdcələrinin tərtibində İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış ölkənin sosial-iqtisadi inkişafına dair proqnoz göstəricilərində, o cümlədən 2023-cü il üzrə baza ssenaridə ümumi ÜDM-in 2,7 faizlik, qeyri-neft sektoru üzrə 4,5 faizlik real artımı, orta illik inflyasiyanın 6,9 faiz, xam neftin 1 barelinin orta illik ixrac qiymətinin 50 ABŞ dolları olması nəzərdə tutulub. Qeyd edilib ki, 2023-cü il və sonrakı 3 il üçün büdcə-vergi siyasətinin istiqamətləri müəyyənləşdirilərkən ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının reallaşdırılması, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, onların ölkə iqtisadiyyatına reinteqrasiyası və işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi kimi strateji çağırışlar nəzərə alınıb.

Diqqətə çatdırılıb ki, 2023-cü ilin dövlət büdcəsinin xərcləri 33 milyard 300 milyon manat məbləğində təklif olunur. 2023-cü il və sonrakı 3 il üzrə dövlət büdcəsi müdafiə və təhlükəsizlik, dövlət borcuna xidmət və digər xərclərin təmin edilməsi ilə yanaşı, iqtisadi artımı və sahibkarlığın inkişafını dəstəkləyən, həssas və aztəminatlı əhalinin sosial müdafiəsi, elm, təhsil, səhiyyə, sosial təminat və digər sahələrdə islahatların davamını təmin edən proqram və tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək. 2023-cü il dövlət büdcəsi xərclərinin 22 milyard 674 milyon manatı və yaxud 68,1 faizi cari xərclərə, 9 milyard 621 milyon manatı və yaxud 28,9 faizi əsaslı xərclərə, 1 milyard 5 milyon manatı və yaxud 3 faizi isə dövlət borclarına xidmətlə bağlı xərclərə yönəldiləcək.

Nazir Prezident, Ali Baş Komandan İlham Əliyevin ölkəmizin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsinin, ordunun daim müasirləşdirilməsinin ən önəmli vəzifələr olduğunu bildirdiyini söyləyib. Bunu nəzərə alaraq növbəti ilin dövlət büdcəsi xərclərinin 24,2 faizi və yaxud 8 milyard 63 milyon manatı müdafiə və hüquq-mühafizə xərclərinə yönəldiləcək. Bununla yanaşı, ölkənin 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi üçün 5 milyard 244 milyon manat, o cümlədən əsaslı xərclər üçün 4 milyard 100 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Əsaslı xərclərin 3 milyard manatı işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinə, Böyük qayıdışın təmin edilməsinə, infrastrukturun qurulmasına və digər tədbirlərə, 1 milyard 100 milyon manat isə strategiyada nəzərdə tutulmuş digər investisiya xərclərinə yönəldiləcək. Strategiyanın maliyyələşdirilməsi çərçivəsində ayrılan 1 milyard 144 milyon manat vəsait sosialyönümlü xərcləri əhatə edir.

Ölkənin ərzaq təhlükəsizliyinin etibarlı və dayanıqlı təminatının, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini deyən nazir növbəti ildə bu istiqamət üzrə 1 milyard 202 milyon manat vəsaitin ayrılacağını diqqətə çatdırıb.

Qeyd edilib ki, sosialyönümlü xərclərə 2023-cü ildə 15 milyard 219 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulub. Cari illə müqayisədə bu, 1 milyard 289 milyon manat və yaxud 9,3 faiz artıqdır. 2021-ci illə müqayisədə isə 4 milyard 922 milyon manat və yaxud 47,8 faiz çoxdur. 2019-2023-cü illər ərzində sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 13,9 faiz və yaxud 7 milyard 458 milyon manat, yəni 2 dəfəyə qədər artıb. Əhalinin sosial müdafiəsi və sosial təminat xərcləri üçün növbəti ilin büdcəsində 4 milyard 416 milyon manat vəsait proqnozlaşdırılır. Bu, cari ilə nisbətən 687 milyon manat və yaxud 18,4 faiz çoxdur. 2021-ci ilin göstəriciləri ilə müqayisədə isə 1 milyard 252 milyon manat və yaxud 39,6 faiz artım deməkdir. Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət öhdəliklərinin maliyyələşdirilməsi üçün 1 milyard 468 milyon manat vəsait ayrılacaq. 2023-cü ildə sosial müavinətlər, təqaüdlər və digər sosial xarakterli ödənişlərin maliyyə təminatı üçün 2 milyard 598 milyon manat, o cümlədən məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər üçün 367 milyon manat, əlavə məşğulluq tədbirləri üçün 266 milyon manat vəsait nəzərdə tutulub. Növbəti ildə yaşayış minimumu və ehtiyac meyarının məbləğləri də bərabərləşdiriləcək.

Maliyyə naziri təhsil, səhiyyə, tibbi sığorta, idman, sahibkarlığın maliyyələşdirilməsi sahələrində, habelə ölkənin enerji, qaz, su təchizatı, nəqliyyat, kommunal, kənd təsərrüfatı, sosial-mədəni təyinatlı obyektlərin və digər layihələrin maliyyə təminatı, həmçinin dövlət borclarına xidmət, beynəlxalq fəaliyyət üçün ayrılan vəsaitlər barədə də məlumat verib.

Qeyd edilib ki, dövlət büdcəsinin yerli gəlirləri 2023-cü ildə 757 milyon manat, xərcləri isə 769 milyon manat həcmində proqnozlaşdırılır.

Daha sonra Samir Şərifov 2023-cü il dövlət büdcəsi xərclərinin maliyyə təminatı barədə göstəriciləri diqqətə çatdırıb. Bildirilib ki, büdcə xərclərinin 92,2 faizi və yaxud 30 milyard 721 milyon manatının dövlət büdcəsinin müxtəlif mənbələr üzrə nəzərdə tutulmuş gəlirləri, 7,8 faiz və yaxud 2 milyard 579 milyon manatının isə dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi üçün cəlb ediləcək vəsaitlər hesabına maliyyələşdirilməsi nəzərdə tutulub. Kəsirin ÜDM-ə nisbəti 2,4 faiz səviyyəsində proqnozlaşdırılır. Dövlət büdcəsi gəlirlərinin 14 milyard 424 milyon manatı və yaxud 47 faizi qeyri-neft sektoru üzrə daxilolmaların payına düşür. Büdcənin neft-qaz sektorundan məcmu gəlirləri 16 milyard 297 milyon manat təşkil edir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 13 milyard 402 milyon manat vəsaitin, qeyri-neft sektorundan 8 milyard 385 milyon manat vəsaitin, Dövlət Gömrük Komitəsinin xətti ilə isə 4 milyard 750 milyon manatın daxil olması proqnozlaşdırılır. Sair gəlirlər üzrə 562 milyon manat, büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə 727 milyon manat vəsaitin daxil olması gözlənilir.

Bildirilib ki, növbəti il üçün icmal büdcənin gəlirləri 33 milyard 6 milyon manat, xərcləri 37 milyard 949 milyon manat, kəsiri isə 4 milyard 944 milyon manat proqnozlaşdırılır.

2023-cü ildə Dövlət Neft Fondunun büdcəsinin gəlirləri 8 milyard 991 milyon manat, xərcləri isə 11 milyard 355 milyon manat, gəlirləri və xərcləri bərabər olmaqla Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 6 milyard 264 milyon manat, İşsizlikdən sığorta fondunun büdcəsi 213 milyon manat, Naxçıvan Muxtar Respublikasının büdcəsi 646 milyon manat, İcbari Tibbi Sığorta Fondunun büdcəsi isə 2 milyard 393 milyon manat təşkil edəcək.

Sonra iqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış edərək bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu siyasəti nəticəsində 2021-ci ildə olduğu kimi, cari ilin 9 ayında da ölkə iqtisadiyyatında artım davam edir. Ümumi iqtisadi artım 5,6 faiz, qeyri-neft-qaz sektorunda isə 10,1 faiz təşkil edib. Cari ilin sonuna ÜDM-in nominal həcminin 130 milyard manata çatması gözlənilir ki, bu, tariximizdə ən yüksək göstəricidir. Yüksək templi iqtisadi artımda investisiyalar, o cümlədən, dövlət investisiyaları, ixracın çoxalması, büdcə xərclərinin icrası da mühüm əhəmiyyət daşıyır. İqtisadi artımın sürətlənməsi şəraitində dövlət büdcəsinin dürüstləşməsindən sonra yanvar-sentyabr aylarında vergi daxilolmaları üzrə proqnoz tapşırığı 110,2 faiz icra edilməklə, proqnozdan əlavə dövlət büdcəsinə 970 milyon manat vəsait daxil olub. Noyabrın 1-nə isə vergilər üzrə illik proqnoz tam yerinə yetirilib. Cəmi vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 64,5 faiz, qeyri-neft-qaz sektoru üzrə isə 32,2 faiz artıb. Bununla yanaşı, sosial sığorta yığımlarında yüksək artım müşahidə edilir. Cari ilin yanvar-sentyabr aylarında məcburi dövlət sosial sığortası üzrə daxilolmalara dair proqnoz 103,6 faiz icra edilərək, 3,3 milyard manat vəsait daxil olub. Bu müddətdə işsizlikdən sığorta üzrə daxilolmaların proqnozu 108 faiz, icbari tibbi sığorta daxilolmaları üzrə isə proqnoz 105,9 faiz icra edilib. Cari ilin yanvar-avqust aylarında ötən ilin eyni dövrü ilə müqayisədə idxal məhsullarının ümumi qiyməti indeksi 21,9 faiz artıb. İnflyasiya templərinin yüksəlməsinə baxmayaraq, cari ilin 9 ayında əhalinin real gəlirləri 6 faiz artıb. Cari ildə hökumət tərəfindən antiinflyasiya tədbirlərinin həyata keçirilməsi inflyasiya templərini azaltmağa imkan verib.

Nazir investisiya fəaliyyəti, mikro, kiçik, orta sahibkarlığın inkişafı sahəsində, o cümlədən sahibkarlara dövlət yardımı ilə bağlı, habelə dövlət satınalmaları üzrə həyata keçirilən layihələr və görülən işlər barədə məlumat verib. Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış üzrə dövlət proqramı layihəsi hazırlanaraq hökumətə təqdim edilib.

Mikayıl Cabbarov bildirib ki, ölkəmiz postpandemiya və postmüharibə dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur. Bu dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsi ilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümlüyünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi iqtisadiyyatın qlobal dəyişikliklər zəncirinə səmərəli inteqrasiyasını təmin edir. Beləliklə, Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla yüksək rifaha malik cəmiyyətin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir. Dövlət başçısı tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın bu prioritetlərə əsaslanaraq hazırlandığını deyən nazir 2023-cü il üzrə iqtisadiyyatın bir sıra istiqamətləri üzrə proqnoz rəqəmləri səsləndirib.

Sonra iclasda Mərkəzi Bankın sədri Taleh Kazımov 2023-cü il üçün ölkənin pul siyasəti və bunun büdcəyə təsiri barədə məlumat verib. O, pul siyasətinin effektivliyinin artırılması məqsədi ilə təhlil və proqnozlaşdırma potensialının gücləndirilməsinin, kommunikasıyanın əhatə dairəsinin genişləndirilməsinin davam edəcəyini deyib. Taleh Kazımov qarşıdakı dövrdə Mərkəzi Bankın maliyyə sabitliyinin qorunmasını və maliyyə vasitəçiliyinin genişləndirilməsini diqqətdə saxlayacağını bildirib.

Daha sonra Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən Şahin Bağırov komitə tərəfindən dövlət büdcəsinə daxilolmalar barədə ətraflı məlumat verib, qarşıda duran vəzifələrdən danışıb.

İclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2023-cü ilin dövlət büdcəsinin layihəsi ilə bağlı palatanın rəyini təqdim edib. Bildirib ki, rəydə 3 əsas məsələyə - təqdim edilən sənədlərin tamlığına və mövcud qanunvericiliyin tələblərinə uyğunluğuna, büdcə parametrlərinin makrogöstəricilərə və strateji sənədlərə adekvatlığına və büdcə parametrlərinə dair hesablamaların əsaslılığına və doğruluğuna diqqət yetirilib.

Qeyd edilib ki, 2023-cü ilin dövlət büdcəsinin layihəsi və bu layihə ilə birlikdə təqdim olunan sənədlər "Büdcə sistemi haqqında" qanunun tələblərinə uyğun hazırlanıb. "Büdcə zərfi"ndə təqdim edilən sənədlərdə bir sıra yeniliklər tətbiq edilib. Belə ki, vergi və gömrük sahəsində tətbiq olunan güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsiri qiymətləndirilib, ilk dəfə olaraq qeyri-neft ÜDM-i müxtəlif ssenarilərlə təqdim olunub və onun fiskal göstəricilərlə əlaqələndirilməsi həyata keçirilib. Eyni zamanda məlumatların keyfiyyətinin və həcminin yüksəldilməsi istiqamətində də addımlar atılıb. "Büdcə zərfi"ndə Hesablama Palatasının rəylərində qeyd edilmiş bəzi məsələlər, eyni zamanda layihənin tərtib edilməsi zamanı müzakirələrdə qaldırılan məsələlər də nəzərə alınıb.

Diqqətə çatdırılıb ki, dövlət büdcəsi barədə qanun layihəsinə dair izahatda fiskal dayanıqlılığın təmin edilməsinə təsir göstərən risklər barədə məlumat əvvəlki illərə nisbətən geniş əks etdirilib və risklərin büdcə gəlirlərinə təsirinin yumşaldılması ilə bağlı tədbirlər də qeyd olunub.

Büdcə qaydasının komponentləri ilə bağlı nəzərə çatdırılıb ki, 2023-cü il üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft Ümumi Daxili Məhsula nisbəti 24,9 faiz proqnozlaşdırılıb ki, bu da müvafiq göstəricinin büdcə qaydası çərçivəsində olduğunu deməyə əsas verir. İcmal büdcənin qeyri-neft gəlirlərinin artımı ilə yanaşı, borcun əsas ödənişinin xərcdən çıxarılması, qeyri-neft ÜDM-in artımının yüksək olması, neftin qiymətinə konservativ yanaşma və İcbari Tibbi Sığorta Fondu adlı büdcədənkənar dövlət fondunun yaradılması da növbəti il üçün büdcə qaydası üzrə hədəflərin yerinə yetirilməsinə şərait yaradır.

Qeyd edilib ki, icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisi 2022-ci ilin yenidən baxılmış göstəricisinə nəzərən 2,6 faiz bəndi azalsa da, qeyri-neft baza kəsirinin mütləq ifadədə məbləğində də artım proqnozlaşdırılır. Bildirilib ki, rəydə büdcə qaydası üzrə hədəflərin yerinə yetirilməsinə təsir edən məqamlar barədə ətraflı məlumatlar verilib.

Vüqar Gülməmmədov növbəti ilin büdcəsində "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi İnkişaf Strategiyası"nın maliyyə təminatının ayrıca göstərildiyini qeyd edərək palatanın rəyində dövlət büdcəsi layihəsinin və birlikdə təqdim edilən sənədlərin strategiyaya uyğunluğunun qiymətləndirildiyini söyləyib.

Sonra iclasda 2023-cü ilin dövlət büdcəsi layihəsi ətrafında geniş müzakirələr aparılıb.

Müzakirələrdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli, komitə üzvləri Vahid Əhmədov, Ziyad Səmədzadə, Mahir Abbaszadə, Vüqar Bayramov, Aydın Hüseynov, Elnur Allahverdiyev, Məzahir Əfəndiyev, Rüfət Quliyev, parlamentdə təmsil olunan siyasi partiyaların sədrləri Fəzail Ağamalı (Ana Vətən Partiyası), Tahir Kərimli (Vəhdət Partiyası), Asim Mollazadə (Azərbaycan Demokratik İslahatlar Partiyası) çıxış ediblər. Çıxışçılar büdcə layihəsi, onun parametrləri, proqnoz göstəriciləri, gəlirləri, xərc istiqamətləri kimi məsələlərlə bağlı rəy və təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Sonra Maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın sədri Taleh Kazımov, Dövlət Gömrük Komitəsinin sədri vəzifəsini müvəqqəti icra edən Şahin Bağırov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov qaldırılan məsələlərə aydınlıq gətiriblər, deputatların suallarını cavablandırıblar, səsləndirdikləri təkliflərlə bağlı fikirlərini bildiriblər.

Müzakirələri İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili yekunlaşdırıb və deputatlar "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsini Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Ağalar Vəliyev, İqbal Məmmədov, Anar Məmmədov və deputat Sabir Hacıyev (Vətəndaş Birliyi Partiyasının sədri), İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov, Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev, Dövlət Statistika Komitəsinin sədr müavini Yusif Yusifov və digər rəsmi şəxslər iştirak ediblər.

# Bakıda "Medinex" və "Beauty Azerbaijan" sərgiləri açılıb

**Noyabrın 3-də "Bakı - Ekspo" Mərkəzində "Medinex" Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları və "Beauty Azerbaijan" Azərbaycan Beynəlxalq Gözəllik İndustriyası sərgilərinə start verilib. Sərginin təşkilatçısı Caspian Event Organisers şirkətidir.**

AZƏRTAC xəbər verir ki, sərginin açılış mərasimində Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov, Caspian Event Organisers (CEO) şirkətinin baş direktoru Fərid Məmmədov iştirak ediblər.

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, Azərbaycanda səhiyyənin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmaqla, ölkəmizdə tibbi sərgilərin keçirilməsi ilə qırılmaz əlaqəyə malikdir. Bugünkü sərgi otuz ildən artıq müddət ərzində keçirilən tədbirlərin davamı olan daha bir müsbət hadisədir. Bu sahənin mütəxəssisləri həmişə tibb sektorunda olan bütün dəyişiklikləri, yeni tendensiyaları və texnologiyaları diqqətlə izləyirlər.

Ölkədə tibb elminin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu nöqteyi-nəzərdən Səhiyyə Nazirliyi ictimaiyyətin tibb sahəsindəki yeniliklər haqqında məlumatlandırılmasında, müasir tendensiyaların öyrənilməsində və tibb elminin müasir nailiyyətlərinin praktiki tətbiqində bu sərgilərin oynadığı rolu yüksək qiymətləndirir. Bu sərgidə qurulan işgüzar əlaqələr, investisiya imkanlarının artması ölkə əhalisinin ümumi sağlamlığının yaxşılaşmasına müsbət təsir göstərəcək.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov belə sərgilərin imkanlarının sonsuz olduğunu qeyd edib. "Bu layihə tibb sahəsinin həm təcrübəli, həm də gənc mütəxəssisləri, ixtisaslaşdırılan təhsil müəssisələrinin rezidentləri və tələbələri üçün çox vacibdir. Əlbəttə ki, sərgi çərçivəsində keçirilməsi nəzərdə tutulan praktiki və elmi tədbirlər gənc mütəxəssislərin inkişafı və yeni biliklərə yiyələnməsində mühüm rol oynaya bilər. Mən sərgidə yerli tibbin inkişafının mühüm tərkib hissəsi olan müasir informasiya texnologiyaları və tibbi proqramların nümayişini xüsusi olaraq qeyd etmək istərdim", - deyə o bildirib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev qeyd edib ki, bu gün səhiyyə sahəsində aparılan əsas islahatlardan biri də ölkədə icbari tibbi sığortanın tətbiqidir. "Ötən ildən başlanan bu proses bütün növ tibbi xidmətlərin əhaliyə əlçatan edilməsi üçün nəzərdə tutulub.

"Medinex" sərgisi icbari tibbi sığorta haqqında məlumatların ölkəmizin geniş vətəndaş kütlələrinə çatdırılmasına imkan yaradan və ölkədəki dövlət və özəl tibb müəssisələri arasında əməkdaşlığın qurulmasına şərait yaradan platformalardan biridir. Biz sərgidə təqdim olunan yenilikləri maraqla öyrənəcəyik, çünki bu, onların gələcəkdə bizim gündəlik işimizdə tətbiq edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir ki, bu isə öz növbəsində xərclərin qənaətinə və onların daha geniş əhali kütləsi üçün istifadə edilməsinə imkan yaradır", - deyə Z.Əliyev öz nitqini yekunlaşdırıb.

TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov ölkədə səhiyyənin inkişafının əsas istiqamətləri, o cümlədən ölkə vətəndaşlarının sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi və tibb işçilərinin peşə hazırlığının təkmilləşdirilməsi, tibb sahəsində innovasiyaların tətbiq edilməsi məsələləri haqqında ümumiləşdirilmiş məlumat verib. TƏBİB və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin dəstəyi ilə təşkil olunan "Medinex" sərgisi tibb sahəsində yeni məhsulların və texnologiyaların geniş şəkildə təqdim olunmasını əsas məqsəd kimi öz qarşısına qoyur. Bu sərgi Xəzər regionunda tibb mütəxəssislərini bir araya gətirən ən böyük tədbirdir. V.Qurbanov sərgi iştirakçılarının işgüzar əməkdaşlıq qurmaqla yanaşı, böyük təcrübə və yeni biliklər qazanacaqlarına əminliyini ifadə edib.

CEO şirkətinin baş icraçı direktoru Fərid Məmmədov qeyd edib ki, "Medinex" sərgisi uzun illər ərzində keçirilən "BIHE" tibb sərgisi əsasında yaradılan yeni bir brenddir və o, səhiyyə sahəsində keçirilən tədbirlər kompleksində mühüm yer tutur.

F.Məmmədov sərgi ilə bağlı statistik məlumat verib, layihəyə dəstək verən bütün səhiyyə idarələrinə öz təşəkkürünü bildirib və bu sərginin gələcəkdə daha da inkişaf etdirilməsi üçün perspektivlərin olduğunu vurğulayıb.

Sərgilər koronavirus pandemiyasının yaratdığı uzun fasilədən sonra yenidən ənənəvi formatda keçirilir. Sənaye mütəxəssisləri işgüzar əlaqələri bərpa etmək və yeni əlaqələr qurmaq, aktual məlumatlar əldə etmək və sərfəli müqavilələr bağlamaq üçün iki ildən sonra ilk dəfə yenidən görüşürlər.

"Medinex" səhiyyə mütəxəssislərini bir araya gətirən biznes platformasıdır. Aparıcı yerli və xarici istehsalçılar və distribütorlar sərgidə ölkə klinikalarının təkmilləşdirilməsinə və müalicənin effektivliyinin artırılmasına kömək etmək üçün öz yeni məhsul və xidmətlərini təqdim ediblər.

Sərginin ekspozisiyası dünyanın 12 ölkəsindən, o cümlədən Azərbaycan, Belarus, Danimarka, İsveçrə, İtaliya, Pakistan, Qazaxıstan, Rusiya, Sloveniya, Türkiyə, Yaponiya, Əlcəzair və digər ölkələrdən 90-dan çox şirkəti birləşdirib.

Bu il "Medinex - 2022" sərgisi Azərbaycan Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəal iştirakı və dəstəyi ilə keçirilir.

Sərgidə tibbi avadanlıq, tibbi məhsullar, tibbi turizm, tibbi təhsil, dərmanlar, vitaminlər və pəhriz əlavələri, innovativ laboratoriya avadanlıqları, optika, stomatologiya, tibbdə informasiya texnologiyaları və digərləri təqdim olunur.

Sərginin işgüzar proqramına "Xəstəliklərin diaqnostika və müalicəsində innovativ yanaşma" "Diaqnostikada yeni nəsil sistemlər və kliniki faydaları", "Pediatriyada müasir diaqnostika və müalicə metodları", "Tibbdə innovativ texnologiyalar", "İnnovativ dərman vasitələri" və bir sıra başqa panel müzakirələri daxildir. Həmçinin ənənəvi olaraq yerli və xarici sahibkarların iştirak edəcəyi işgüzar B2B görüşləri keçirilir.

"Medinex" sərgisi çərçivəsində tibbin müxtəlif sahələrindən mütəxəssislərin iştirakı ilə işgüzar tədbirlər keçirilir. "Medinex" sərgisinə xüsusi olaraq "DocDeti" klinikasında həkim-psixiatr, Psixiatr və psixoloqların elmi əsaslı təcrübə naminə Assosiasiyasının təsisçisi Yelisey Osin psixiatrlar, nevroloqlar, o cümlədən valideynlər üçün "Autizmin diaqnostikası və terapiyası - texnologiyalar" mövzusunda çıxış edəcək.

Beləliklə, "Medinex" və "Beauty Azerbaijan" sərgiləri sənaye mütəxəssislərini bir platformada bir araya gətirmək, işgüzar əlaqələri gücləndirmək və satış coğrafiyasını genişləndirmək üçün əla fürsətdir.

# Şeyxülislam Allahşükür Paşazadə İndoneziyada keçirilən R20 sammitində iştirak edir




Noyabrın 2-3-də İndoneziyanın Bali adasında G20 "Böyük İyirmiliyin" R20 - Dini Liderlərinin Beynəlxalq Sammiti keçirilir.

Qafqaz Müsəlmanları İdarəsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sammitdə Azərbaycanı Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) icraçı direktoru Rəvan Həsənov təmsil edirlər.

Azərbaycan dövlətinin dinlər və mədəniyyətlərarası dialoqda oynadığı mühüm rol, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu istiqamətdəki qlobal təşəbbüsləri ölkəmizin "Böyük İyirmilik" sammiti kimi qlobal platformalarda mütəmadi iştirakçı olmasına səbəb olub. G20 çərçivəsində Azərbaycan Şərqi Avropa, Cənubi Qafqaz və türk dövlətləri regionundan təmsil olunan yeganə ölkə olaraq özünün multikulturalizm modelini beynəlxalq müstəvidə dayanıqlı sülhün açarı kimi uğurla təqdim etməkdədir. Belə ki, Azərbaycan indiyədək bir çox mühüm dialoq platformalarının təşəbbüskarı və təşkilatçısı kimi humanitar məsələlərin müzakirə olunduğu mərkəzə çevrilib. Ötən may ayında QMİ və BBMM-in həmtəşkilatçılığı ilə G20 Sammiti Dinlərarası Dialoq Forumunun regional ön iclasının Bakı şəhərində keçirilməsi də bir nümunədir.

Qeyd etmək lazımdır ki, dünyanın əksər regionlarından tanınmış dini liderlərin, alimlərin və ictimai xadimlərin qatıldığı R20 sammiti beynəlxalq gündəmdə olan aktual problemlərin həllində dinin birləşdirici rolunun müzakirə olunduğu mühüm dialoq platformasıdır.

Azərbaycanı R20 - Dini Liderlərin Beynəlxalq Sammitində təmsil edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bir sıra ikitərəfli görüşlər keçiriblər.

Sammitin açılış mərasiminin ardından həmtəşkilatçı qurumların təşəbbüsü ilə Azərbaycan nümayəndə heyəti İndoneziyanın "Nəhdətül-Üləma" Müsəlman Dini Mərkəzi İdarə Heyətinin baş sədri Yəhya Colil Staquf və Səudiyyə Ərəbistanı Krallığının "İslam Aləmi Liqası"nın baş katibi Şeyx Məhəmməd Əbdülkərim Əl-İsa ilə ikitərəfli görüşlər keçirib. Bununla yanaşı, QMİ sədri və BBMM-in icraçı direktoru ABŞ-da mərkəzləşən "İsa Məsih və Sonuncu Gün Müqəddəsləri kilsəsi"nin "On İkilər Kvorumu"nun üzvü Harri Stivenson, Misirin baş müftisi Şövqi Əllam, Yaponiyanın "Şinto" Assosiasiyasının sədri rahib Yoşinobu Miyake, Ümumdünya Yevangelist Alyansının baş katibi, yepiskop Tomas Şirmaxer və sammitin digər iştirakçıları ilə görüşüblər.

Görüşlərdə qarşı tərəflərə Azərbaycan Respublikasının dinlərarası və sivilizasiyalararası dialoq sahəsində təşəbbüsləri, xalqımızın qədim multikulturalizm və tolerantlıq ənənələri, işğaldan azad olunmuş ərazilərimizdə erməni vandalizminə məruz qalmış tarixi mədəni və dini abidələrimiz, Ermənistanın ərazilərimizdə apardığı mülki insanların qətlinə hədəflənmiş minalarla çirkləndirilmə və "yandırılmış torpaq" siyasəti, eləcə də hazırda həmin ərazilərdə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bilavasitə rəhbərliyi altında aparılan bərpa və yenidənqurma layihələri haqqında geniş məlumat verilib.

Görüşlərdə Azərbaycan Respublikasının İndoneziyadakı fövqəladə və səlahiyyətli səfiri Cəlal Mirzəyev də iştirak edib.

Tədbirdə çıxış edən QMİ sədri həmçinin İndoneziyanın bir sıra telekanallarına müsahibələr verib, Azərbaycan həqiqətləri, xüsusilə də erməni işğalından azad edilmiş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa və abadlaşdırma işlərindən bəhs edib.

# Siyasi-diplomatik müdrikliyin və qlobal nüfuzun göstəricisi

*Əvvəli 1-ci səh.*

## Münasibətlərin normallaşdırılmasının əsasında Azərbaycanın yaratdığı yeni reallıqlar dayanır

44 günlük müharibənin başa çatmasından sonra Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən bütün görüşlərdə müzakirələr sərhədlərin delimitasiyası, regionda kommunikasiyaların bərpası, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması mövzuları ətrafında aparılıb. Bu müzakirələrdə bir dəfə də olsun artıq tarixə qovuşmuş münaqişədən danışılmayıb, burada yaşayan ermənilərin məsələsi müzakirə olunmayıb.

Eyni zamanda bu görüşlərdə Ermənistanın öz öhdəliklərini yerinə yetirmədiyi diqqət yetirilən əsas mövzu olub. Bununla yanaşı, Prezident İlham Əliyev Ermənistanı qətiyyətlə mövcud reallıqların tələblərinə uyğun davranmağa məcbur edir. Praqa görüşündə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması da göstərdi ki, proses çətin olsa da gedir.

Son olaraq oktyabrın 31-də Rusiyanın Soçi şəhərində keçirilən görüş bir daha göstərdi ki, Azərbaycan yaratdığı yeni reallıqlar çərçivəsində öz milli maraqlarını qətiyyətlə təmin edir. Təsadüfi deyil ki, bu görüşlə bağlı bir sıra erməni politoloqların, revanşistlərin proqnozları özünü doğrultmadı. Məsələn, Prezident İlham Əliyev, Prezidenti Vladimir Putin və baş nazir Nikol Paşinyan arasında keçirilən görüşdə Qarabağın adı belə çəkilmir. O cümlədən imzalanan Bəyanatda da Qarabağ münaqişəsi, ermənilərin statusu kimi ifadələr, ümumiyyətlə, yer almayıb. Bu sənədlə tərəflər yalnız Azərbaycan-Ermənistan münasibətlərinin kompleks şəkildə normallaşdırılması, sülhün, sabitliyin, təhlükəsizliyin və Cənubi Qafqazın davamlı iqtisadi inkişafının təmin edilməsi naminə göstərilən bütün razılaşmalara dönmədən riayət edilməsinə sadiq olduqlarını təsdiq ediblər. O cümlədən humanitar məsələlər blokunun təxirə salınmadan həllinə yönəlmiş əlavə səylər göstərmək barədə razılaşıblar.

Bəyanata əsasən tərəflər bütün problemli məsələləri BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə və həll etmək barədə razılığa gəliblər, eyni zamanda sülh müqaviləsi bağlanmasına fəal hazırlaşmağın vacibliyini vurğulayıblar. Bu da onu göstərir ki, tərəflər Praqada təsdiq olunan məsələləri Soçidə də razılaşdırıblar.

Beləliklə, Soçi görüşü regionda sülhün təmin edilməsi istiqamətində mühüm mərhələ oldu. Ən əsası bu görüş bir daha göstərdi ki, Ermənistanın və erməni revanşistlərinin əsassız iddialarına heç bir siyasi platformada yer yoxdur. Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması isə Azərbaycanın 44 günlük müharibədə yaratdığı yeni reallıqlardan keçir.

## Ərəb dünyası ilə əlaqələr yeni mərhələyə yüksələcək

Bu həftənin mühüm siyasi hadisələrindən biri də Prezident İlham Əliyevin Əlcəzairdə keçirilən Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında iştirakı oldu. Qeyd edək ki, zirvə toplantısı Ərəb Dövlətləri Liqasının ali tədbiridir. Budəfəki toplantıda ərəb ölkələri ilə bağlı aktual məsələlər müzakirə mövzusu idi.

Azərbaycan öz xarici siyasəti ilə hər zaman müsəlman dünyasının həmrəyliyinə dəyərli töhfələr verib. İslam dəyərlərinin dünyada təbliğini və qorunmasını hər zaman diqqət mərkəzində saxlayan Azərbaycan müsəlman aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurub. Eyni zamanda Azərbaycan Qoşulmama Hərəkatının sədri, İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi də müsəlman dövlətləri arasında həmrəyliyin gücləndirilməsini diqqət mərkəzində saxlayır, bu istiqamətdə səmərəli təşəbbüslərlə çıxış edir. Azərbaycan bütün beynəlxalq müstəvilərdə müsəlman dövlətlərinə dəstək göstərib.

Təbii ki, bütün bunlar ərəb dünyasında da rəğbətlə qarşılanır. Bu baxımdan Prezident İlham Əliyevin Əlcəzair Xalq Demokratik Respublikasının Prezidentinin dəvəti ilə Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında iştirakı həm dövlətimizin başçısına, həm də Azərbaycana olan yüksək ehtiramın göstəricisi idi. Eyni zamanda Prezident İlham Əliyevin Ərəb Dövlətləri Liqasının bu ali tədbirinə dəvət olunması Azərbaycanla ərəb dünyası arasındakı yaxın münasibətlərdən xəbər verir. Zirvə toplantısında çıxışı zamanı Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, yaxın gələcəkdə də əməkdaşlığımız genişlənəcək və yeni xarakter, yeni dinamika alacaq.

Bir məsələni də qeyd edək ki, Vətən müharibəsindən sonra Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edən müsəlman dövlətlərinin səfirləri Ermənistanın vəhşiliklərinin, o cümlədən İslam dəyərlərini təhqir etməsinin şahidi olublar. Zirvə toplantısında bu məsələyə də diqqət yetirən Prezident İlham Əliyev Ermənistanın İslam düşməni olduğunu Ərəb Dövlətləri Liqasının ali platformasından bəyan etdi. "Bəs qayıtdıqdan sonra biz nə gördük? On min kvadratkilometrdən çox ərazinin tamamilə məhv edildiyini gördük. Bu ərazi bəzi ölkələrin ərazisinə bərabərdir. Hər bir şey yerləyeksan edilmiş, dağıdılmışdır - şəhərlər, kəndlər, binalar, tarixi abidələr, hətta bizim əcdadlarımızın qəbirləri. İşğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən tamamilə dağıdılmışdır. Bu isə terrorçu Ermənistan dövlətinin islamofob mahiyyətinin təzahürüdür" -deyə İlham Əliyev bildirdi.

Prezident İlham Əliyevin Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında iştirakı Azərbaycanın regionda yaratdığı reallıqların ərəb dünyasına daha yaxından təqdim olunması baxımından mühüm siyasi hadisədir. İlham Əliyevin bu tədbirə dəvət olunması, ölkəmizin həm Əlcəzair, həm də bütövlükdə ərəb dünyası ilə əlaqələrini yeni mərhələyə yüksəldəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Fransa və Ermənistanın işğalçılıq siyasətində oxşarlıqlar

*Əvvəli 1-ci səh.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zirvə toplantısına evsahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə tədbirin açılış mərasimində fəxri qonaq statusunda iştirak etdi.

Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısı tarixi bir gündə təşkil olundu. Zirvə toplantısının açılış mərasimində çıxış edən Prezident İlham Əliyev dedi: "Əlcəzairi belə bir xüsusi gündə, Milli Azadlıq Günündə, Milli Ləyaqət Günündə ziyarət etmək məndə xüsusi məmnunluq doğurur".

Dövlətimizin başçısı İlham Əliyev zirvə toplantısından öncə Əlcəzair Xalq Demokratik Respublikasının azadlığı uğrunda canından keçmiş şəhidlərə ehtiram göstərərək Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət etdi.

Diqqətə çatdıraq ki, Əlcəzairin azadlığı uğrunda mübarizədə həyatını qurban vermiş döyüşçülərin xatirəsinə ucaldılmış Şəhidlər abidəsi ölkənin müstəqilliyinin 20-ci ildönümü münasibətilə 1982-ci ildə açılıb.

Milli Mücahidlər Muzeyi ilə tanışlıq zamanı dövlətimizin başçısına Şəhidlər abidəsinin altında yerləşən və 1984-cü ildə açılmış muzeyin kolleksiyasının böyük hissəsinin ölkənin Fransa tərəfindən işğalına və 1830-1962-ci illərdə Fransa müstəmləkəçiliyinə qarşı aparılmış xalq müqavimətinə həsr olunduğu barədə məlumat verildi. Nümayiş etdirilən kolleksiyalar arasında müstəmləkəçiliyə qarşı mübarizə aparmış əlcəzairli mücahidlərə aid silahlar, arxiv materialları, döyüş əşyaları, fotoşəkillər, sənədlər, eləcə də müqavimət dövründə fransızların xalq hərəkatı iştirakçılarını cəzalandırmaq üçün istifadə etdikləri edam alətləri var. Muzeydə xalq hərəkatının 7 mindən çox iştirakçısının şahid ifadələri toplanıb.

Şəhidlər abidəsi və Milli Mücahidlər Muzeyi yalnız əlcəzairlilərə deyil, bütün dünyaya dəhşətli bir tarixi xatırladır. Fransızlar 1830-1962-ci illəri əhatə edən işğal dövründə 1,5 milyondan artıq insanı amansızcasına qətlə yetiriblər. Bu səbəbdən Əlcəzair "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Ümumilikdə isə 10 milyona yaxın əlcəzairli Fransanın müstəmləkəçilik dövrünün qurbanı olub.

Tarixi faklar təsdiq edir ki, Əlcəzairə fransızların münasibəti işğal etdikləri digər ərazilərdən fərqlənirdi. Belə ki, digər ərazilərin müstəmləkə olduğu qəbul edildiyi halda, Əlcəzair Fransanın bir hissəsi, dənizarxası ərazisi sayılırdı.

Fransanın Əlcəzairdə apardığı siyasət o qədər qəddar və amansız idi ki, bunu Ermənistanın Azərbaycana qarşı yürütdüyü siyasətlə müqayisə etmək olar. Öz azadlığını tələb edən əlcəzairlilərə qarşı Fransa ordusu kütləvi qətliamlar, çoxsaylı müharibə və dəhşətli cinayətlər həyata keçirirdi. Qarabağda yaşayan, erməni işğalına etiraz edən azərbaycanlılara qarşı da eyni cinayətlər törədildi. 1832-ci ildə Əlcəzairin Fransa tərəfindən işğalına etiraz edən El-Uffia qəbiləsi gecə yatdığı yerdə qılıncdan keçirildiyi kimi, 1992-ci ildə Xocalıda da gecəyarısı yerli sakinlər soyqırımına məruz qalmışlar.

Nə Fransanın, nə də Ermənistanın planlı şəkildə həyata keçirdikləri cinayət əməllərinin dinc əhaliyə qarşı törətdikləri qəddarlıqların, qətliamların sayı-hesabı var... Onlardan biri də "Sena qətliamı"dır. O zaman - 1961-ci ilin oktyabrında Parisdə on minlərlə əlcəzairli nümayişə çıxaraq Fransa işğalına qarşı etiraz səsini ucaltdı. Fransa polisinin açdığı atəş, eləcə də etirazçıları Sena çayına atmaları nəticəsində 1500-dək əlcəzairlinin həyatına son qoyuldu. Etirazçılardan mindən çoxu isə həbs edildi. Faciə ilə bağlı Fransa hakimiyyəti səsini çıxarmadı. Yaxın dostu, tərəfdaşı Fransa kimi Ermənistan da heç zaman törətdiyi qətliamlara görə məsuliyyəti boynuna götürmür. 1945-ci ildə Setifdə, 1961-ci ildə Parisdə törədilən qətliamlarla, azərbaycanlılara qarşı XX əsrin sonlarında - 1992-1993-cü illərdə Qaradağlıda, Ağdabanda, Xocalıda və digər yaşayış məntəqələrində törədilən qətliamlar arasında bənzərlikləri görməmək üçün kor olmaq lazımdır.

Ermənistan regionda etnik tərkibi dəyişmək məqsədilə 1990-cı illərdə işğal yolu ilə ələ keçirdiyi Azərbaycan ərazilərinə Yaxın Şərqdən və digər regionlardan erməniəsilli şəxsləri köçürdü. Ən böyük himayədarlarından olan Fransanın isə qanunsuz məskunlaşma siyasəti Əlcəzairdə əhalinin 1 milyonunun bu ölkə ilə bağlılığı olmayan avropalıların təşkil etməsi ilə nəticələnmişdi.

Ermənistan işğalından azad olunmuş azərbaycan ərazilərində bu gün kütləvi məzarlıqlar, insan sümükləri aşkar edilir. Fransanın isə müstəmləkəsi olan xalqların 21 min nümayəndəsinin kəllə sümüyü Paris muzeylərində nümayiş etdirilir. Onlardan 500-nün əlcəzairlilərə məxsus olduğu qeyd edilir.

Acınacaqlısı odur ki, dövlət siyasətinin əsas xəttini ikili standartlar və riyakarlıq təşkil etdiyi halda Fransa özünü demokratiyanın tərəfdarı kimi qələmə verməyə çalışır. Əlcəzairdə işğalçılıq siyasətinə etiraz edən günahsız insanları kütləvi şəkildə qətlə yetirmiş, Cenevrə konvensiyalarının tələblərini pozaraq qadağan olunmuş silahlardan istifadə etmiş Fransa eyni vəhşiliyi Qarabağda, Şərqi Zəngəzurda törətmiş Ermənistanın bu gün ən böyük dəstəkçisidir.

Ərazisinə görə Afrikanın və ərəb dünyasının ən böyük ölkəsinin 11 milyondan çox vətəndaşına vaxtilə muxtariyyət belə verməkdən imtina etmiş Fransanın bu gün Qarabağda yaşayan 15-20 min erməniyə müstəqillik verilməsi tələbi isə olduqca gülünc görünür.

Siyasətlərini işğalçılıq, qəddarlıq və riyakarlıq üzərində quran dövlətlər yaddan çıxarmamalıdırlar ki, tarix heç nəyi unutmur. Fransanın əlcəzairlilərə, Ermənistanın isə azərbaycanlılara qarşı törətdikləri qəddar əməlləri də aradan nə qədər zaman keçsə də, tarixi faktlar təsdiq edəcək.

Prezident İlham Əliyev Milli Mücahidlər Muzeyinin xatirə kitabında bu muzeyin Əlcəzair xalqının şanlı tarixinin ən faciəli və eyni zamanda ən qürurverici səhifələrindən birini özündə əks etdirən mühüm kompleks olduğunu qeyd etdi: "Bu muzey Əlcəzair xalqına qarşı misli görünməmiş qəddarlıqla və şiddətlə həyata keçirilən müstəmləkəçilik siyasətinin, müharibə və insanlıq əleyhinə cinayətlərin, müstəmləkəçi qüvvələrə qarşı ümumxalq mübarizəsinin və bir milyon yarım şəhidin canı bahasına qazanılmış müstəqillik qələbəsinin yaddaşlarda qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi baxımından müstəsna əhəmiyyət kəsb edir".

Xatirə kitabında amansız müstəmləkə əsarətindən qurtulmaq üçün başlanılan azadlıq və müstəqillik mübarizəsinin Əlcəzair xalqının böyük şücaətinin, birliyinin, sarsılmaz iradəsinin və qətiyyətinin rəmzi kimi Əlcəzairin tarixinə əbədi olaraq həkk olunduğunu qeyd edən dövlətimizin başçısı daha sonra yazdı: "Böyük qurbanlar verərək istiqlaliyyətə qovuşmuş qardaş Əlcəzairin bu gün inkişafını, rifahını görməkdən dost və qardaş ölkənin rəhbəri olaraq böyük qürur hissi keçirirəm".

Prezident İlham Əliyev zirvə toplantısındakı çıxışında da bildirdi ki, Fransanın Əlcəzair xalqına qarşı törətdiyi zorakılığı, kütləvi qəddarlığı dünya heç zaman unutmamalıdır: "Fransa yüz ildən çox bir müddət ərzində Əlcəzair xalqına qarşı çox dəhşətli müharibə aparmışdır. Bu müharibə 1,5 milyon əlcəzairlinin ölümü ilə nəticələnmişdir. Bu gün biz bu faciəni anaraq gələcəkdə belə faciələrin qarşısının alınması üçün əlimizdən gələni etməliyik".

Dövlətimizin başçısı Azərbaycanın da Əlcəzair kimi işğaldan əziyyət çəkdiyini diqqətə çatdırdı. Qeyd etdi ki, bizim torpaqlarımız otuz il Ermənistanın işğalı altında qalmışdı: "Bütün bu işğal illəri ərzində biz həmişə ərəb qardaşlarımızın dəstəyini, İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin dəstəyini hiss edirdik". Prezident İlham Əliyev Azərbaycanın da öz növbəsində bütün beynəlxalq forumlarda müsəlman qardaşlarımıza öz dəstəyini əsirgəmədiyini, İslam həmrəyliyinə kifayət qədər töhfə verdiyimizi nəzərə çatdırdı.

Prezident İlham Əliyev iki il əvvəl Azərbaycanın Ermənistan tərəfindən torpaqlarımızın iyirmi faizinin demək olar ki, otuz ilə yaxın davam edən işğalına son qoyduğunu toplantı iştirakçılarının diqqətinə çatdırdı. Vurğuladı ki, aparıcı beynəlxalq qurumların qətnamələrinə və qərarlarına Ermənistan məhəl qoymamış və Azərbaycanın ərazisinin demək olar ki, 20 faizini qanunsuz olaraq işğal altında saxlamağa davam etmişdi. İşğal zamanı bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdi. Soydaşlarımız etnik təmizləməyə məruz qalmışdı. Dövlətimizin başçısı təəssüf hissi ilə diqqətə çatdırdı ki, BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir, lakin bu qətnamələr heç vaxt icra olunmamışdır.

Geri dönüb Qarabağı, Şərqi Zəngəzuru düşmənin xarabalığa çevirdiyini görən Azərbaycan xalqı böyük kədər, qüssə hissləri keçirsə də, Zəfər sevincinin üzərinə kölgə düşmədi. Çünki Azərbaycan dövləti dərhal geniş və sürətli quruculuq işlərinə başladı. Bu gün Böyük qayıdış adlanan proqramın icrası uğurla reallaşır. Dövlətimizin başçısı açıqladı ki, bunu öz resurslarımız hesabına edirik, əfsuslar olsun ki, beynəlxalq donor təşkilatları bizə bu işdə yardım etmirlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Fransanın Anadoluda törətdiyi tükürpədici cinayətlərin izləri heç zaman yaddaşlardan silinməyəcək

Fransanın Azərbaycan və Türkiyəyə qarşı qərəzli, ermənipərəst mövqeyi, Parisdə bütün beynəlxalq normalara zidd olaraq diplomatik missiyamıza qarşı zorakılığın törədilməsinə göz yumulması erməni vəhşiliyini, bu toplumdan zaman-zaman türk düşmənçiliyi üçün vasitə olaraq istifadə edildiyini bariz şəkildə göstərir. Erməni lobbisi məhz Fransa kimi tərəflərin dəstəyi əsasında türk-müsəlman düşmənçiliyinə həvəslənir və beynəlxalq səviyyəli cinayətlərinə ara vermir.

AZƏRTAC xəbər verir ki, tarixdə yaşananların ən böyük şahidi torpaq və insan yaddaşıdır. Bəli, təxminən yüz il əvvəlki tarixdə "Erməni-fransız mehribanlığı"nın nə qədər təhlükəli və amansız tendensiya olduğunu sübut edən faktlar tükənməzdir. Azərbaycan və Türkiyədəki türklərin uyuduğu kütləvi məzarlıqlar, zaman-zaman yaddaşlardan bir-birinə ötürülən soyqırımı xatirələri bu cinayətləri təsdiq edən təkzibolunmaz faktlardır. Arxiv sənədlərini də bu sıraya əlavə etsək, qarşımızda dəhşətli mənzərə yaranar.

Ermənilərin Azərbaycanda olduğu kimi, Anadoluda da törətdikləri kütləvi qırğınların izinə indi də Türkiyənin bir çox bölgəsində rast gəlmək mümkündür. Bu gün haqqında danışacağımız məkan isə tarixdə ən amansız cinayətlərdən birinə şahidlik edib. Söhbət 1920-ci ildə ermənilərin soyqırımı törətdikləri Adananın Kahyaoğlu fermasından gedir. Adanadan Anadoluya daxil olan işğalçı fransız ordusu özü ilə erməni silahlı birləşmələrini gətirməklə bərabər, qısa zamanda bu bölgələrdə ayrı-ayrı məntəqələrdə mövcud olan erməniləri də silahlandırmağı bacarıb. Məhz başda Fransa ordusu olmaqla göstərilən dəstək nəticəsində o dövrdə bölgədə ermənilərdən ibarət silahlı uşaq və qadın dəstələri yaradılıb.

Adananın Çukurova Rayon Bələdiyyəsinin əməkdaşı Əli Kamal Şan deyib: "Birinci Dünya müharibəsinin sonunda fransızlar Adananı işğal etdilər. Fransızların nəzarətində olan bölgədə yaşayan və bu əraziyə köçürülən ermənilərdən ibarət silahlı dəstələr türk və müsəlman əhaliyə zülm etməyə başladılar. Bu zülmlərdən bezən türklər Toroslardakı Yörük yurdlarına köçməyə çalışırdılar. Tarixdə bu hadisə "Qaçhaqaç" (Həmin dövrün hadisələrinin yaratdığı bu ifadə Naxçıvan bölgəsində "Qaçaqaşlıq" kimi mövcud olub-S.Ş.) kimi yadda qalıb. O vaxt ermənilər 43 kişini və 21 qadını qətlə yetiriblər. Öldürülərək cəsədləri parçalanan uşaqların sayı isə hələ də məlum deyil. Bütün bunlar o dövrdə qanlı hadisələrin şahidi olan şəxslər tərəfindən yaddaşlara köçürülüb. Bəzi mənbələr ermənilərin içərisində insanların olduğu binaları yandırdıqlarını bildirir. Həmin hadisədən yalnız 4 kişi və 18 qadın sağ çıxa bilib".

Əli Kamal Şan bildirib ki, ermənilər istər Türkiyə, istərsə də Azərbaycan ərazisindəki cinayətləri öz güclərinə yox, havadarlarının dəstəyinə arxalanaraq törədiblər. Adana Kahyaoğlu soyqırımı fransızların bölgəni işğal altında saxladığı dövrə təsadüf edir.

Bundan sonra həmin dövrdə Türkiyə Böyük Millət Məclisinin Sədri olan Mustafa Kamal Atatürk Fransaya nota verərək hadisəyə öz etirazını bildirib.

Çukurova Rayon Bələdiyyəsinin əməkdaşı Əhməd Ak isə qeyd edib ki, Çukurovadakı bu məkan "Yeşiloba Şəhidliyi və Muzey Kompleksi" adlanır, yəni soyqırımı muzeyi deyil. Buna baxmayaraq, bu divarlar arasında törədilən cinayətin əsl soyqırımı olması heç kimdə şübhə doğurmamalıdır.

# Ali Baş Komandana ordunun inamı zəfərin təminatçısı oldu




Bakı Şəhər İcra Hakimiyyətinin nəşr etdiyi "ZƏFƏR MEMUARLARI. Döyüşçülər sərkərdə və müharibə haqqında" kitabından istifadə olunub

## MİRZƏYEV ANAR MEHMAN OĞLU

**Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant**



*1982-ci il oktyabrın 25-də İsmayıllı rayonunda anadan olub. Orta təhsilini İsmayıllı şəhərində alıb. 2000-2004-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində motoatıcı ixtisası üzrə təhsil alıb.*

*2004-2008-ci illərdə Daşkəsən rayonundakı "N" saylı hərbi hissədə taqım komandiri vəzifəsində çalışıb. 2008-ci ildən sonra Abşeron və Ağdam rayonlarında yerləşən hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmətini davam etdirib. 2017-ci ildə keçirilən ordu üzrə ən yaxşı tabor komandiri yarışında birinci yeri tutub. İki dəfə Rumıniyada keçirilən NATO təlimlərinin iştirakçısı olub.*

*Aprel döyüşlərinin və Vətən müharibəsinin iştirakçısıdır.*

*Vətən Müharibəsi Qəhrəmanıdır.*

*"Hərbi xidmətdə fərqlənməyə görə", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", Azərbaycan Silahlı Qüvvələrinin 90, 95, 100 illik "Yubiley" medalları, 1-ci, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib.*

*Ailəlidir, 3 övladı var.*

*Hərbçi olmaq uşaqlıq arzularımdan biri idi. Vətənə olan bağlılığım, sevgim bu müqəddəs peşəni seçməyimə səbəb olub. Bu istəyi, sevgini də alovlandıran vətənpərvərlik hisslərimdir.*

*Ailəmdə, təhsil aldığım məktəbdə vətənpərvərlik ruhunda formalaşmışam. Birinci Qarabağ müharibəsi illərində baş verənləri, o dövrdə uşaq yaşlarında olsam da, başa düşürdüm, anlayırdım. Hərbçi olmaq istəyi də məndə o illərdən baş qaldırmışdı və gələcəyimi zabit kimi görürdüm.*

*Ailəm də mənim bu istəyimi böyük razılıqla qarşıladı və orta məktəbi başa vurduqdan sonra sənədlərimi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verdim.*



### Ordumuz gözlərim önündə döyüş qabiliyyətini artırırdı

İmtahanlarda yüksək nəticə göstərərək hərbi məktəbə daxil oldum və Quru qoşunları fakültəsində motoatıcı ixtisası üzrə təhsil aldım. Nizam-intizama və təhsildəki müvəffəqiyyətlərimə görə bir neçə dəfə bölük birincisi dərəcəsi almışam.

Hərbi təhsilimi başa vurduqdan sonra bir neçə motoatıcı hərbi hissədə xidmət etmişəm. Xidmətə başladığım ilk gündən hərbçi peşəsini seçməyimlə həyatımın ən doğru addımını atdığıma əmin oldum. İlk gündən bir daha əmin oldum ki, çətin olsa da, zabitlik olduqca qürurlu, şərəfli peşədir, vətənin keşiyində dayanmaq kimi bir vəzifəni yerinə yetirirsən.

Mənə hərbçi peşəsini seçdiyim üçün ilk gündən qürur verən başqa bir amil Prezident, Ali Baş Komandan İlham Əliyevin ordumuza, əsgər və zabitlərin sosial şəraitinin daim yaxşılaşdırılmasına göstərdiyi yüksək diqqət və qayğısı olub. 2004-cü ildən ordumuzda baş verən keyfiyyət dəyişiklikləri mənim gözlərim önündən keçib.

Taqım komandirliyindən hərbi hissə komandiri vəzifəsinə qədər xidmət yolu keçdiyim üçün ordumuzda baş verən keyfiyyət dəyişikliklərini daha yaxından görürdüm. Ordumuz hər il deyil, hər ay öz döyüş imkanlarını yüksəldirdi. Cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu islahatlar ordumuzu modern hərbi gücə çevirirdi. Diqqət və qayğısını əsirgəməyən Ali Baş Komandan İlham Əliyev tez-tez hərbi hissələrdə şəxsi heyətlə görüşürdü. Belə diqqətin qarşılığında uğurlu xidmət etmək, göstərilən etimadı doğrultmaq hər birimizin borcu idi.

Ona görə zabitlərimiz də peşəkarlıqlarını sürətlə təkmilləşdirirdilər. Yeni silahlardan istifadə qaydalarını dərhal mənimsəyirdik. Müxtəlif hərbi hissələrdə xidmət zamanı artıq məndə belə bir qənaət formalaşmışdı ki, ordumuzun müasir silah və texnikası ilə yanaşı, onlardan ustalıqla istifadə etməyi bacaran savadlı zabitlərimiz var. Peşəkar zabitlər həm döyüş qabiliyyətini artırır, həm də ordumuzun döyüş ruhunun yüksəldilməsində vacib rol oynayırdılar. Təsadüfi deyil ki, ordunun şəxsi heyəti arasında mənəvi-psixoloji vəziyyət də olduqca yüksək səviyyədə idi.

Mən də bir zabit kimi öz üzərimdə ciddi çalışır, peşəkarlığımı daim təkmilləşdirirdim. Çünki bilirdim ki, bir gün torpaqlarımızın azadlığı uğrunda müharibə başlasa, hərbi peşəkarlıq böyük rol oynayacaq. Heç təsadüfi deyil ki, müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, 2017-ci ildə Silahlı Qüvvələr üzrə "Ən yaxşı tabor komandiri" adı uğrunda yarışda birinci yeri mən tutmuşdum.

### Aprel döyüşlərində ordumuzun gücü öz təsdiqini tapdı

Bir hərbçi kimi ən böyük arzum torpaqlarımızın işğaldan azad olunması idi. Hələ 2016-cı ilin aprel ayında - ermənilərin hərbi təxribatlarının qarşısını almaq üçün əks-hücum əməliyyatları başlayanda ən çox sevinənlərdən biri mən idim. Həmin vaxt əməliyyatlarda iştirak etmək üçün xidmət etdiyim hərbi hissənin bir taboru cəlb olundu. Mən həmin taborun qərargah rəisi idim.

Taborumuz əmr aldıqdan sonra dərhal döyüş bölgəsinə yola düşdü. Şəxsi heyət yüksək əhvali-ruhiyyədə idi. Bütün zabit və gizirlər, çavuş və əsgərlər döyüş əzmində idilər.

Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edən taborumuz bir sıra ərazilərin azad olunması, strateji yüksəkliklərin düşməndən geri alınması ilə bağlı tapşırıqları yüksək səviyyədə yerinə yetirdi. Döyüşlər dörd gün davam etsə də, Ali Baş Komandan İlham Əliyevin sərkərdə qətiyyəti, ordumuzun şücaəti əyani şəkildə öz təsdiqini tapdı.







2016-cı ilin yekununa əsasən, döyüş hazırlığının yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyim yüksək nəticələrə görə müdafiə naziri adından fəxri fərmanla təltif olundum. Respublikamızın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərimə və Azərbaycan Ordusunun qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyimə görə Prezident İlham Əliyevin sərəncamına əsasən, "Hərbi xidmətlərə görə" medalı ilə təltif olundum.

Aprel döyüşlərindən sonra bir hərbçi kimi torpaqlarımızın güc yolu ilə azad ediləcəyinə olan inamım daha da artdı. Ona görə tabeçiliyimdə olan şəxsi heyətə hər zaman müharibəyə hazır olmağı aşılayırdım. Təlim-atış məşğələləri zamanı mənim xüsusi diqqət yetirdiyim nüanslar var idi. Bunlar hərbi qulluqçunun fiziki və atəş hazırlığı idi. Çünki qarşı-qarşıya döyüş zamanı qələbəni təmin edən əsas şərtlər müasir silahlarla yanaşı, həm də yüksək döyüş hazırlığıdır.

Əgər əsgər fiziki və atəş açmaq vərdişləri baxımından hazırlıqlı olsa, onun psixoloji vəziyyəti də yüksək olar. Nəticə etibarilə bütün bunlar qələbəni təmin edə bilən əsas şərtlərdir. O cümlədən ilkin tibbi yardım, yaralının döyüş meydanından təxliyəsi kimi məsələlər təlimlər zamanı daim diqqət yetirdiyim vacib məsələlərdən idi.

### Ya Qarabağ, ya da Qarabağ!

2020-ci ilin iyul ayında Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində torpaqlarımıza hücum cəhdindən, avqust ayında ölkəmizin ərazisinə diversiya qrupu göndərməsindən sonra düşmənin növbəti hərbi təxribatı gözlənilən idi. Ən əsası, biz baş verəcək yeni müharibəyə tam hazır idik və həmin günü səbirsizliklə gözləyirdik.

2020-ci il sentyabrın 27-də düşmənin növbəti hərbi təxribatından sonra ordumuz özünün tarixi missiyasını yerinə yetirməyə başladı. Həmin gün rəhbərlik etdiyim briqada döyüş əmri aldı. Əmri aldığımız zaman keçirdiyimiz hissi təsəvvür etmək mümkün deyil. Gözlədiyimiz gün gəlmişdi, arzuladığımız şərait yetişmişdi və ordu öz sözünü deməliydi. Bütün şəxsi heyət sanki aslana dönmüşdü və əmr verildikdən sonra görünməmiş çevikliklə döyüş bölgəsinə getməyə hazır idi, sanki hər kəsə ilahi bir güc gəlmişdi. Həyatımda heç vaxt belə qürurlanmamışdım, heç vaxt belə fərəh hissi keçirməmişdim.



Həmin vaxt hərbçilərimizin tankın üzərində yazdıqları sözlər diqqətimi cəlb etdi. Gördüm ki, tankçılarımız "Ya Qarabağ, ya ölüm!" yazıblar. Yaxınlaşdım, soruşdum ki, bu nədir yazmısınız? Tankçılar bir an duruxdular və təəccüblə mənə baxdılar. Dedim, belə yox, "Ya Qarabağ, ya da Qarabağ!" yazın. Biz ölməyə yox, öldürməyə gedirik. Sözlərimə əməl etdilər.

Beləliklə, hərbi hissə döyüşə yola düşdü. Müəyyən məsafəni qət etdikdən sonra axşam saatlarında Füzuli rayonu istiqamətində əməliyyat təyinatlı rayona çatdıq. Artıq buna qədər düşmənin hərbi təxribatının qarşısının alınması üçün əks-hücum əməliyyatı həyata keçirilmiş, ermənilərin müdafiə mövqeləri yarılmışdı. Əməliyyat planlaşdırmasından sonra - sentyabrın 28-i səhər saatlarından biz Füzuli-Alxanlı istiqamətində döyüşə girdik. Bu istiqamətdə cəbhə xəttini yardıq. Yaratdığı mürəkkəb istehkamlara baxmayaraq, düşmən ordumuzun gücü, şəxsi heyətimizin əzmi qarşısında tab gətirməyərək qaçmağa başladı. Olduqca mükəmməl taktika ilə müxtəlif istiqamətlərdə cəbhəni yararaq işğalçı ordunu darmadağın etməyə başladıq. Ermənistanın keçilməz hesab etdiyi müdafiə xətləri ilk həmlədə ələ keçirildi.



Hərbi hissənin komandiri kimi mən döyüşləri müəyyən məsafədən rabitə əlaqəsi vasitəsilə idarə etməliydim. Amma döyüşə ilk girən taborumuzla tankın üzərində düşmənin üstünə getdim. Düzdür, bununla bağlı yuxarı komandanlıq mənə iradlarını bildirdi. Başqa cür ola bilməzdi, çünki Ali Baş Komandanım və xalqım qarşısında bütün hərbçilər kimi mən də daşıdığım məsuliyyətin fərqindəydim. Daxilimdən gələn bir hiss məni şəxsi heyətimlə birlikdə düşmənlə döyüşməyə çağırırdı. Gözlədiyim gün yetişmişdi və mən öndə olmalı idim.

Ermənistan 30 ilə yaxın bir dövrdə cəbhə xəttində olduqca gücləndirilmiş mövqelər yaratmış, ərazidə mürəkkəb mühəndis-bərkitmə işləri aparmışdı. Bundan başqa, düşmənin mövqeləri daha əlverişli olan yüksəkliklərdə idi ki, bu da təbii istehkam rolunu oynayırdı. İlk döyüşdə də ermənilərin strateji baxımdan daha üstün mövqelərdə olduğunu gördük. Qeyd edim ki, nə qədər güclü silaha malik olsan belə gücləndirilmiş səngərləri, istehkamları ələ keçirmək çox çətindir. Füzulidə ermənilərin geri qaçmasının əsas səbəbi də məhz hərbçilərimizdə olan vətən sevgisi idi. Biz öz torpağımız uğrunda döyüşürdük və heç bir möhkəm istehkam qarşımızı ala bilməzdi. Hamımız bir amal uğrunda döyüşə atılmışdıq, hamımız Ali Baş Komandanın etimadını doğrultmalıydıq və doğrultduq.

### Zəfər tarixindəki imza

Sentyabrın 28-də düşmənin 5 müdafiə mövqeyini yardıq, erməniləri möhkəmləndirdikləri səngərlərin içində məhv etdik. Həmin gün xeyli irəlilədik və azad etdiyimiz



ərazidə yeni mövqe tutduq. Axşam hərbi hissənin digər taborlarının döyüş vəziyyətini öyrənmək üçün bir qədər arxaya gəldim. Yolda bir anlıq duruxdum, yanımdakı hərbçilərə dedim ayaq saxlayın. Hamısı dayanıb mənə baxdı. Dedim təsəvvür edirsiniz biz hardayıq? 30 ilə yaxın işğal altında olan torpağın azad edilməsi və bizim o torpaqda addımlamağımız tamamilə başqa bir hiss idi. Müharibənin ilk günləri olsa da, biz artıq doğma yurda qayıdışın hissini yaşayırdıq. İstəyirdim hər bir hərbi qulluqçu torpağı düşməndən azad etməyin nə olduğunu daha dərindən dərk etsin.

Növbəti günlərdə Füzuli rayonu ərazisində hücumlarımız davam etdi və onlarca kəndi düşməndən geri aldıq. Hərbi hissənin digər taborları isə Cəbrayıl ərazisində gedən döyüşlərdə iştirak etdilər.



Sentyabrın 30-da döyüşlərin qızğın vaxtı idi. Hələ də əlverişli mövqelərdə olan ermənilər bölmələrimizi artilleriya ilə aramsız atəşə tuturdular. Həmin vaxt mən taborlardan birinin döyüş mövqeyinə çıxarılması ilə məşğul idim. Bu zaman artilleriya mərmilərindən biri düz qarşıma düşdü və boğaz nahiyəmdən qəlpə yarası aldım. Əlimi boğazıma apardım, gördüm ki, möhkəm qan gəlir. Amma vətən sevgisi, torpaqlarımızın azad olunması arzusu məni öz yolumdan döndərə bilməzdi. Boğazımı özüm sarıdım və yenidən döyüşə girdim: komandir idim və şəxsi nümunəmlə tabeçiliyimdə olanların psixoloji durumlarına təsir etməliydim. Digər zabitlərin israrlarına baxmayaraq, günün sonuna qədər döyüşdüm. Yalnız gecə saatlarında hospitala gəldim, həkimlər qəlpəni çıxardılar və yenidən ön xəttə, şəxsi heyətin yanına qayıtdım.

Hər dəfə yaxınlarımla əlaqə saxlayanda öncə onu soruşurdum ki, insanların reaksiyası necədir? Cavabında arxa cəbhədə xalqımızın yumruq kimi birləşib sıx səfərbər olmasını və Ali Baş Komandan İlham Əliyevin hər qələbə müjdəsinin bayram kimi qarşılandığını eşidirdim. Bütün bunlar cəbhədə döyüşən şəxsi heyətə güc verirdi, döyüş əzmini artırırdı.

Cəbrayıl və Füzuli rayonlarında uğurlu əməliyyatlardan sonra hərbi hissəmiz Xocavənd rayonunun ərazisinə daxil oldu. Oktyabrın 25-də mənim doğum günüm idi. Yuxarı komandanlıqdan təbrik etdilər. Dedim ki, 30 ilə yaxındır həmişə bayramlarda, əlamətdar günlərdə arzu edərdik ki, o gün olsun, bunu Qarabağda qeyd edək. Bəli, mən ad günümü işğaldan azad edilmiş torpaqlarımızda, Xocavənddə, Qarabağda qeyd etdim və bu, həyatımın ən yaddaqalan hadisələrindən biri idi.

Artıq oktyabrın sonlarında döyüşlər Qırmızı Bazar istiqamətində gedirdi. Hədəf isə Şuşanın işğaldan azad olunması idi. Çox sürətlə irəliləyirdik, düşmən qarşımızdan qaçırdı və bununla həm də sübut edirdi ki, Qarabağ onun torpağı deyil. Biz isə öz torpağımız uğrunda savaşırdıq və qarşımızı heç nə ala bilməzdi. Ermənilər silah-sursatlarını atıb qaçırdılar. Bəzən bizə arxadan silah-sursat gətirilməsinə ehtiyac qalmırdı: elə düşməndən qənimət götürdüklərimiz bəs edirdi.

Oktyabrın 26-da Qırmızı Bazar istiqamətində hücumda olarkən düşmənin atdığı tank əleyhinə idarəolunan raketin zərbəsi nəticəsində çox ağır yaralandım. Həmin vaxt yanımda olan iki hərbçi şəhid oldu. Yaralandığım zaman komaya düşdüm. 4 gündən sonra özümə gələndə gördüm ki, Bakı şəhərində hərbi hospitaldayam.

Döyüş yoldaşlarım, tabeçiliyimdə olan hərbi hissə isə döyüş yolunu sonadək qəhrəmancasına davam etdirdi. Çox arzulayırdım ki, Şuşanın azad olunmasında şəxsən iştirak edim. Mən iştirak edə bilməsəm də, hərbçi yoldaşlarım bu işi layiqincə yerinə yetirdilər, Şuşaya qədər döyüş yolu keçdilər. Şuşanın azad edilməsini eşidəndə olduqca ağır vəziyyətdə idim, həkimlər həyatda qalmağım uğrunda mübarizə aparırdılar. Şuşanın azad edilməsini eşidəndə sanki mənə güc gəldi, sürətlə sağalmağa başladım.

Hospitalda iki ay müalicə aldım. Bu müddətdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın böyük himayədarlığını gördüm. Hər bir problemimiz həllini tapır, qarşılaşdığımız çətinlik dərhal aradan qaldırılırdı.

Ağır yara aldığım üçün hərəkət etməkdə çətinlik çəkirdim və sarğılarımı palatada dəyişirdilər. Dekabr ayının 9-u idi. Tibb bacısına dedim ki, bu dəfə sarğımı dəyişmək üçün sarğı otağına gedəcəm. Qayıdanda gördüm ki, hospitalın həkim kollektivi məni şöbənin girişində alqışlayır. Fikirləşdim ki, yəqin ayağa durduğum, sarğı otağına gedib gəldiyim üçün alqışlayırlar. Amma sonra bildim ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşəm.

Hospitaldan çıxandan sonra bir müddət reabilitasiya kursu keçdim.



Bu gün özümü çox xoşbəxt hiss edirəm ki, Vətən torpaqlarının azadlığı uğrunda döyüşlərdə mənim də xidmətlərim var.

*Fəxr edirəm ki, Müzəffər Ordunun zabitiyəm. Fəxr edirəm ki, qalib xalqın nümayəndəsiyəm. Fəxr edirəm ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində Zəfər tariximizin yazılmasında iştirak etmişəm.*





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



# Şuşa milli birliyimizin rəmzidir




1918-ci il mayın 28-də müsəlman Şərqində dövrün ilk demokratik və yeganə parlamentli respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Azərbaycan xalqı özünün çoxəsrlik tarixində müstəqil dövlətini yaratdı, ictimai-siyasi quruluşun müvafiq modelini qurdu. Azərbaycan Şərqi və Cənubi Zaqafqaziyadan ibarət tamhüquqlu müstəqil dövlət elan olundu. İstiqlal Bəyannaməsinin birinci maddəsində deyilirdi: "Bu gündən etibarən Azərbaycanın xalqları suveren hüquqlara malikdirlər, Şərqi və Cənubi Zaqafqaziyadan ibarət Azərbaycan tamhüquqlu müstəqil dövlətdir. Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın bütün tarixi ərazisində öz siyasi hakimiyyətini bərqərar etməyə çalışdığı bir vaxtda yenicə elan olunmuş Ermənistan (Ararat) Respublikası Qarabağa heç bir əsası olmayan iddia irəli sürdü. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu iddianı rədd etdi. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Ə.M.Topçubaşov (1862-1934) Osmanlı dövlətinin xarici işlər naziri ilə 1918-ci il noyabrın 18-də İstanbulda apardığı danışıqlar zamanı bildirmişdi: "Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi 5 ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq - Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu, xanlığın ərazisidir və burada erməni və müsəlmanların sayı bərabər olmasa da, ermənilərin əsaslı çoxluğu haqqında danışmağa lüzum yoxdur. Bununla belə, onlar buranın yerli əhalisi deyillər, Rusiya ilə müharibədən sonra Türkiyədən buraya qaçıb gələnlərdir. Nəzərə alınmalıdır ki, hazırda Ermənistan Respublikasının ərazisinə daxil edilmiş Osmanlı imperiyasının əsas inzibati-ərazi vahidlərindən olan İrəvan vilayətində 100 minlərlə müsəlman yaşayır və biz həmin torpaqların mübahisəsini aparmırıq. Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda deyil, müsəlmanlarla qarışıq halda yaşayırlar. Lakin biz bütün bunlara baxmayaraq, beynəlxalq xarakterli deyil, bizim daxili xarakterli bu məsələnin sülh yolu ilə həllinin tərəfdarıyıq".

1918-ci ilin yayından başlayaraq Ermənistanın daşnak hökuməti Zəngəzur bölgəsində Andronikin, Njdenin, Dronun quldur dəstələri vasitəsilə dövlət səviyyəsində azərbaycanlılara qarşı soyqırımı siyasətini həyata keçirməyə başladı. Ermənilər Qarabağı ələ keçirmək üçün əvvəllər başladıqları soyqırımlarını Azərbaycan Xalq Cümhuriyyəti dövründə də davam etdirdilər. Azərbaycan hökuməti yaranmış vəziyyəti nəzərə alaraq 1919-cu il yanvarın 15-də Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarının müvəqqəti general-qubernatoru vəzifəsinin təyin edilməsi haqqında qərar qəbul etdi. Həmin qərarla daxili işlər nazirinə tapşırılırdı ki, hökumətin növbəti iclasında baxılması üçün general-qubernator vəzifəsinə namizədi seçsin və onun sərəncamına hansı məbləğdə vəsaitin ayrılmasının lazım olduğu haqqında fikirlərini təqdim etsin. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 29 yanvar 1919-cu il tarixli qərarı ilə Xosrov bəy Sultanov Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının general-qubernatoru təyin edilmişdir. Həmin qərarla general-qubernatorluğun ehtiyaclarını ödəmək üçün 20 milyonluq fonddan 5 milyon rubl ayrılmışdır. Hökumətin 1 fevral 1919-cu il tarixli qərarı ilə Quda Qudiyev Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının general-qubernatorunun müavini təyin edilmişdir. Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinski 1919-cu il iyunun 25-də Ermənistan Respublikasının xarici işlər nazirinə 224 nömrəli nota təqdim edərək aşağıdakıları bildirmişdi: "Hökumətimin tapşırığı ilə sizə bildirirəm ki, Sultanov Azərbaycan hökuməti tərəfindən 1919-cu il yanvarın 15-də Azərbaycanın qəti ayrılmaz hissəsi olan Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının general-qubernatoru təyin edilmiş və o, müttəfiqlərin komandanlığı tərəfindən general-qubernator kimi aprelin 3-də rəsmi olaraq tanınmışdır. Odur ki, Ermənistan Respublikası hökumətinin Sultanovun fəaliyyətinə və yaxud Azərbaycan qoşun hissələrinin adı şəkilən qəzalarda olmasına qarşı müxtəlif etirazları Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə etməsi deməkdir. Qarabağın general-qubernatoru Sultanov gördüyü ciddi tədbirlərlə Şuşa rayonunda nizam-intizamı bərpa etmiş və həyat məcrasına düşmüşdür..."

Xosrov Paşa bəy Sultanov Şuşaya gələn kimi Qarabağda daşnak Andronik başda olmaqla erməni quldur dəstələrilə amansız mübarizəyə başladı, təhlükəli yerlərdə Milli Ordunun əsgərlərindən ibarət mühafizə dəstəsi yaratdı, Erməni Milli Şurası üzvlərinin Azərbaycandan çıxarılmasına nail oldu. Buna cavab olaraq erməni yaraqlıları Şuşada silahlı toqquşma törətsə də, ertəsi gün - iyunun 6-da sülh əldə edilmiş, şəhərin dinc erməni əhalisi Xosrov bəy Sultanova üzrxahlıq məktubu yazaraq, erməni separatçılarının fitnəkarlığına görə onun şəxsində Şuşanın müsəlman camaatından üzr istəmişdi. 1919-cu ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində Qarabağda, Zəngəzurda və ermənilərin ərazi iddiası irəli sürdüyü digər yerlərdə Azərbaycanın suveren hüquqlarının bərpa edilməsində Xosrov bəy Sultanov böyük xidmət göstərdi. Həmin ilin sentyabrında Azərbaycan hökuməti burada yaşayan ermənilərə mədəni muxtariyyət verdi. Azərbaycan hökumətinin 29 sentyabr 1919-cu il tarixli qərarı ilə Qarabağın erməni müəllim və müəllimələrinə yardım edilməsi üçün Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının müvəqqəti general-qubernatorunun sərəncamına 1 mln. rubl pul vəsaiti ayrıldı. Şuşa şəhərində müəllimlərin qurultayının keçirilməsi üçün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 27 sentyabr 1919-cu il tarixli qərarı ilə Xalq Maarif Nazirinin sərəncamına 30 min rubl ayrılmışdır. Bunlardan savayı, 1919-cu il noyabrın 20-də Azərbaycan Parlamenti 1 iyun 1919-cu ildən etibarən Şuşa şəhərində 30 çarpayılıq pulsuz hökumət xəstəxanasının yaradılması haqqında qanun qəbul etdi.

Tarixi faktlar sübut edir ki, Azərbaycan xalqı və dövləti haqq yolunda, öz ərazisinin toxunulmazlığı uğrunda daim mübarizə aparmış və son nəticə etibarilə qalib gəlmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 10-da tarixi qələbəmizlə başa çatdı. Həmin gün Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan birgə bəyanatla silahlı qüvvələrimizin cəbhədəki möhtəşəm qələbəsi diplomatik sahədə də rəsmiləşdirildi. Beləliklə, xalqımızın 30 il çəkən torpaq həsrətinə son qoyularaq, ədalət bərpa edildi. Noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanında xalqımıza müraciət edərək böyük sevinc hissi ilə ruhumuzun özü, varlığımızın nüvəsi olan Şuşamızın dünyanın ən mənfur təcavüzkarı olan terrorçu Ermənistan ordusunun işğalından azad olunması müjdəsini verdi: "Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

*Rafiq SƏFƏROV,*
*Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin baş məsləhətçisi*

*(Əvvəli qəzetin 3 noyabr tarixli sayında)*

## ZƏFƏR gündəliyi

## 4 noyabr 2020-ci il



Gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutur.

Döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd D-30 haubitsa topu, 1 ədəd "Zastava M-55" zenit qurğusu, 1 ədəd taktiki PUA-sı, 3 ədəd hərbi yük maşını məhv edilib və sıradan çıxarılır.

Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan yenə atəşə tutur.

Noyabrın 4-ü saat 01:08-dən 08:10-dək Ermənistanın Berd rayonu istiqamətindən Azərbaycanın Tovuz və Ağstafa rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən ara-sıra atəşə tutulur.

❖ ❖ ❖

Saat 08:05-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun Hüsənli və Qazyan kəndlərini, eləcə də Ağcabədi rayonunun Hacılar, Qaraxanlı və Boyat kəndlərini ara-sıra artilleriya atəşinə tutur.

❖ ❖ ❖


İlham Əliyev
@azpresident
Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
Translate Tweet
17:51 · 04 Nov 20 · Twitter Web App

Prezident İlham Əliyev xalqa müjdəli xəbər verir. Dövlət başçısı özünün tviter hesabında paylaşım edərək bildirir:

"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Saat 10:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Ağdam rayonunun kəndlərini intensiv artilleriya atəşinə tutur. Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülür.

Tərtər şəhəri və rayonun Şıxarx qəsəbəsi Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə tutulur.

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin hərbi texnikalarının sıradan çıxarılması üzrə fəaliyyətlər davam etdirilir.

Cəbhənin Xocavənd istiqamətindəki yüksəkliklərdən birinə çıxarılmış Ermənistan silahlı qüvvələrinin 1 ədəd "M-55" zenit qurğusu dəqiq atəşlə məhv edilir.

Qeyd edək ki, 1955-ci ildə istehsal edilmiş, yüngül zirehli çoxməqsədli transportyor üzərində quraşdırılmış 20 mm-lik 3 topdan ibarət zenit qurğusu aşağı hündürlükdə uçan hədəfləri və canlı qüvvəni məhv etmək üçün nəzərdə tutulub.

❖ ❖ ❖



Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verir.

Cəbhədəki vəziyyəti dəyərləndirən dövlət başçısı deyir ki, Azərbaycan Ordusunun üstünlüyü davam edir: "Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik".

Atəşkəsin elan olunması və savaşın dayandırılmasına gəlincə isə Prezident deyir ki, Ermənistan elan edilmiş humanitar atəşkəs rejimini hər dəfə pozaraq dinc əhalini hədəfə alır. Belə olan halda Azərbaycan üçün başqa yol qalmayır: "Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir. O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir".

Məhz bu səbəbdən də Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyincə dayanmayacaq.

❖ ❖ ❖

Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı qətiyyətlə alınır.

Ciddi döyüş itkiləri verən düşmənin kəşfiyyat-diversiya qrupu geri çəkilməyə məcbur edilir.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*



Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

## Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan müvəqqəti xüsusi idarəetmə orqanı haqqında ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 17.1-ci maddəsinə əsasən hazırlanmışdır və fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə müvəqqəti xüsusi idarəetmə orqanının (bundan sonra - müvəqqəti xüsusi idarəetmə orqanı) fəaliyyətinin əsaslarını müəyyən edir.

1.2. Müvəqqəti xüsusi idarəetmə orqanı fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə fövqəladə vəziyyətin tətbiqinə səbəb olmuş şəraitin aradan qaldırılması ilə bağlı işləri əlaqələndirməkdən ötrü, habelə həmin ərazinin yerli icra hakimiyyəti orqanları öz funksiyalarını lazımınca yerinə yetirmədikdə, Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən müddətə yaradılan xüsusi idarəetmə orqanıdır.

1.3. Müvəqqəti xüsusi idarəetmə orqanı öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununu, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin aktlarını, digər normativ hüquqi aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tutur.

1.4. Müvəqqəti xüsusi idarəetmə orqanı fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə, bu mümkün olmadıqda isə yaxın ərazidə yerləşir.

1.5. Müvəqqəti xüsusi idarəetmə orqanının fəaliyyətinin maliyyələşdirilməsi Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

**2. Müvəqqəti xüsusi idarəetmə orqanının fəaliyyət istiqamətləri**

2.1. Müvəqqəti xüsusi idarəetmə orqanının fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılması işlərinin həyata keçirilməsinə nəzarət etmək və bu işləri əlaqələndirmək;

2.1.2. yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının ona həvalə olunmuş səlahiyyətlərini həyata keçirmək;

2.1.3. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının işinə ümumi rəhbərliyi həyata keçirmək;

2.1.4. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Müvəqqəti xüsusi idarəetmə orqanının vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, müvəqqəti xüsusi idarəetmə orqanı aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş halların aradan qaldırılması üçün tədbirlər görmək;

3.1.2. fövqəladə vəziyyətin tətbiqi zamanı həyata keçirilən tədbirlərin və müvəqqəti məhdudiyyətlərin icrasına nəzarət etmək;

3.1.3. yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının ona həvalə olunmuş səlahiyyətlərinin həyata keçirilməsi üçün müvafiq tədbirlər görmək;

3.1.4. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının fəaliyyətinə nəzarət etmək;

3.1.5. fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılması işlərinə cəlb olunmuş dövlət orqanlarının (qurumlarının), həmçinin hüquqi və fiziki şəxslərin fəaliyyətinin əlaqələndirilməsini həyata keçirmək;

3.1.6. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə dövlət mühafizəsi altında olan obyektlərin və həyat əhəmiyyətli infrastrukturun mühafizəsinin gücləndirilməsi üçün zəruri tədbirləri planlaşdırmaq və həyata keçirmək;

3.1.7. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müvafiq səlahiyyətlər verildiyi halda, fövqəladə vəziyyətin qüvvədə olduğu müddətdə fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yerləşən həyat təminatı obyektlərinə, sosial sahəyə və mənzil fondu obyektlərinin bərpasına yönəldilən büdcə ayırmalarına müəyyən olunmuş qaydada sərəncam vermək;

3.1.8. Qanunla və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Müvəqqəti xüsusi idarəetmə orqanının hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün müvəqqəti xüsusi idarəetmə orqanının aşağıdakı hüquqları vardır:

4.1.1. fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılması ilə əlaqədar həyata keçiriləcək tədbirlərə və bu sahədə fəaliyyətin təşkilinə dair təkliflər hazırlamaq;

4.1.2. fəaliyyət istiqamətlərinə uyğun olaraq fövqəladə vəziyyət rejiminin təmin olunmasına dair icrası məcburi olan əmr və sərəncamlar vermək, vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar normativ hüquqi aktların layihələrini hazırlamaq;

4.1.3. vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar dövlət orqanlarına (qurumlarına), yerli özünüidarə orqanlarına, bütün hüquqi və fiziki şəxslərə zəruri məlumatlar barədə sorğular göndərmək, onlardan cavablar, habelə görülən işlər barədə arayışlar və məlumatlar almaq;

4.1.4. səlahiyyətinə aid məsələlərlə bağlı rəy və təkliflər vermək, təhlil və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

4.1.5. fövqəladə vəziyyətin tətbiqinə səbəb olan halların aradan qaldırılması üzrə fəaliyyətə dövlət orqanlarının (qurumlarının) və hüquqi şəxslərin mütəxəssislərini qanunla müəyyən edilmiş hədlər çərçivəsində cəlb etmək;

4.1.6. Qanunla müəyyən olunmuş tədbirlərin və müvəqqəti məhdudiyyətlərin tətbiq edilməsinin zəruriliyi ilə bağlı təkliflərlə Azərbaycan Respublikasının Prezidentinə müraciət etmək;

4.1.7. Qanunla və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Müvəqqəti xüsusi idarəetmə orqanının fəaliyyətinin təşkili**

5.1. Müvəqqəti xüsusi idarəetmə orqanı fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şərait nəzərə alınmaqla, aidiyyəti dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və (və ya) digər qurumların nümayəndələrindən ibarət tərkibdə yaradılır.

5.2. Müvəqqəti xüsusi idarəetmə orqanının rəhbəri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunur. Müvəqqəti xüsusi idarəetmə orqanının rəhbəri ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantı müvəqqəti xüsusi idarəetmə orqanının rəhbərinə tabe olmaqla vəzifəsinə görə onun birinci müavini olur. Digər müavinlər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla, müvəqqəti xüsusi idarəetmə orqanının rəhbəri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

5.4. Müvəqqəti xüsusi idarəetmə orqanının rəhbəri:

5.4.1. müvəqqəti xüsusi idarəetmə orqanının fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.4.2. müavinləri arasında vəzifə bölgüsü aparır;

5.4.3. müvəqqəti xüsusi idarəetmə orqanının strukturunu və bu orqanın fəaliyyətinə cəlb olunan şəxslərin say həddini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla müəyyən edir;

5.4.4. bu Əsasnamənin 5.1-ci bəndində nəzərdə tutulan şəxslərin müvəqqəti xüsusi idarəetmə orqanının fəaliyyətinə cəlb edilməsi üçün müvafiq tədbirlər görür;

5.4.5. müvəqqəti xüsusi idarəetmə orqanının strukturuna daxil olan bölmələrin iş bölgüsünü müəyyən edir;

5.4.6. müvəqqəti xüsusi idarəetmə orqanını təmsil edir;

5.4.7. Azərbaycan Respublikası Prezidentinin ona həvalə etdiyi digər səlahiyyətləri həyata keçirir.

5.5. Müvəqqəti xüsusi idarəetmə orqanının strukturu və bu orqanın fəaliyyətinə cəlb olunan şəxslərin say həddi fövqəladə vəziyyətin tətbiq edilmə səbəbi və fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının ona həvalə olunmuş səlahiyyətlərinin həcmi nəzərə alınmaqla müəyyən edilir. Müvəqqəti xüsusi idarəetmə orqanının fəaliyyətinə cəlb olunan şəxsin əsas iş yeri və orta əməkhaqqı saxlanılır.

**6. Yekun müddəalar**

6.1. Müvəqqəti xüsusi idarəetmə orqanı Azərbaycan Respublikası Prezidentinin fövqəladə vəziyyət rejimi çərçivəsində müəyyən etdiyi müddətdə fəaliyyət göstərir.

6.2. Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə mərkəzi idarəetmə orqanı yaradıldığı halda müvəqqəti xüsusi idarəetmə orqanı öz fəaliyyətini dayandırır.

6.3. Müvəqqəti xüsusi idarəetmə orqanı ləğv edildikdən sonra onun fəaliyyəti ərzində hazırlanmış, əldə olunmuş sənədlər və məlumatlar müvəqqəti xüsusi idarəetmə orqanı rəhbərinin təmsil etdiyi dövlət orqanında saxlanılır.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

## Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan mərkəzi idarəetmə orqanı haqqında ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 18.2-ci maddəsinə əsasən hazırlanmışdır və fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə mərkəzi idarəetmə orqanının (bundan sonra - mərkəzi idarəetmə orqanı) fəaliyyətinin əsaslarını müəyyən edir.

1.2. Mərkəzi idarəetmə orqanı fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılması ilə bağlı işləri əlaqələndirməkdən ötrü, habelə fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin müvəqqəti xüsusi idarəetmə orqanı öz funksiyalarını lazımınca yerinə yetirə bilmədiyi halda Azərbaycan Respublikasının Prezidenti tərəfindən fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan xüsusi idarəetmə orqanıdır.

1.3. Mərkəzi idarəetmə orqanı öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununu, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin aktlarını, digər normativ hüquqi aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tutur.

1.4. Mərkəzi idarəetmə orqanının yaradılması ilə fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə fəaliyyət göstərən müvəqqəti xüsusi idarəetmə orqanı öz fəaliyyətini dayandırır. Həmçinin yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin həyata keçirilməsi də dayandırılır və onların funksiyaları mərkəzi idarəetmə orqanı tərəfindən həyata keçirilir.

1.5. Mərkəzi idarəetmə orqanı fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə, bu mümkün olmadıqda isə yaxın ərazidə yerləşir.

1.6. Mərkəzi idarəetmə orqanının fəaliyyətinin maliyyələşdirilməsi Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

**2. Mərkəzi idarəetmə orqanının fəaliyyət istiqamətləri**

2.1. Mərkəzi idarəetmə orqanının fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılması ilə bağlı işlərin həyata keçirilməsinə nəzarət etmək və bu işləri əlaqələndirmək;

2.1.2. fəaliyyəti dayandırılmış yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının funksiyalarını həyata keçirmək;

2.1.3. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının fəaliyyətini təşkil etmək;

2.1.4. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Mərkəzi idarəetmə orqanının vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, mərkəzi idarəetmə orqanı aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş halların aradan qaldırılması üçün tədbirlər görmək;

3.1.2. fövqəladə vəziyyətin tətbiqi zamanı həyata keçirilən tədbirlərin və müvəqqəti məhdudiyyətlərin icrasına nəzarət etmək;

3.1.3. fəaliyyəti dayandırılmış yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının vəzifələrini yerinə yetirmək;

3.1.4. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının işinə rəhbərlik etmək, o cümlədən onun səlahiyyətlərinin həyata keçirilməsinə nəzarət etmək;

3.1.5. fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılması işlərinə cəlb olunmuş dövlət orqanlarının (qurumlarının), həmçinin hüquqi və fiziki şəxslərin fəaliyyətinin əlaqələndirilməsini həyata keçirmək;

3.1.6. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə dövlət mühafizəsi altında olan obyektlərin və həyat əhəmiyyətli infrastrukturun mühafizəsinin gücləndirilməsi üçün zəruri tədbirləri planlaşdırmaq və həyata keçirmək;

3.1.7. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müvafiq səlahiyyətlər verildiyi halda, fövqəladə vəziyyətin qüvvədə olduğu müddətdə fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yerləşən həyat təminatı obyektlərinə, sosial sahəyə və mənzil fondu obyektlərinin bərpasına yönəldilən büdcə ayırmalarına müəyyən olunmuş qaydada sərəncam vermək;

3.1.8. Qanunla və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Mərkəzi idarəetmə orqanının hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün mərkəzi idarəetmə orqanının aşağıdakı hüquqları vardır:

4.1.1. fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılması ilə əlaqədar həyata keçiriləcək tədbirlərə və bu sahədə fəaliyyətin təşkilinə dair təkliflər hazırlamaq;

4.1.2. fəaliyyət istiqamətlərinə uyğun olaraq fövqəladə vəziyyət rejiminin təmin olunmasına dair icrası məcburi olan əmr və sərəncamlar vermək, vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar normativ hüquqi aktların layihələrini hazırlamaq;

4.1.3. fəaliyyəti dayandırılmış yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının hüquqlarını həyata keçirmək;

4.1.4. vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar dövlət orqanlarına (qurumlarına), bütün hüquqi və fiziki şəxslərə zəruri məlumatlar barədə sorğular göndərmək, onlardan cavablar, habelə görülən işlər barədə arayışlar və məlumatlar almaq;

4.1.5. səlahiyyətinə aid məsələlərlə bağlı rəy və təkliflər vermək, təhlil və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

4.1.6. fövqəladə vəziyyətin tətbiqinə səbəb olan halların aradan qaldırılması üzrə fəaliyyətə dövlət orqanlarının (qurumlarının) və hüquqi şəxslərin mütəxəssislərini qanunla müəyyən edilmiş hədlər çərçivəsində cəlb etmək;

4.1.7. Qanunla müəyyən olunmuş tədbirlərin və müvəqqəti məhdudiyyətlərin tətbiq edilməsinin zəruriliyi ilə bağlı təkliflərlə Azərbaycan Respublikasının Prezidentinə müraciət etmək;

4.1.8. Qanunla və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Mərkəzi idarəetmə orqanının fəaliyyətinin təşkili**

5.1. Mərkəzi idarəetmə orqanı fövqəladə vəziyyətin tətbiq edilmə səbəbi nəzərə alınmaqla aidiyyəti dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarə orqanlarının nümayəndələrindən ibarət tərkibdə yaradılır.

5.2. Mərkəzi idarəetmə orqanının rəhbəri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunur. Mərkəzi idarəetmə orqanının rəhbəri ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığı mərkəzi idarəetmə orqanının struktur tərkibinin bir hissəsi olur və həmin ərazinin komendantı vəzifəsinə görə mərkəzi idarəetmə orqanı rəhbərinin birinci müavini sayılır. Digər müavinlər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla mərkəzi idarəetmə orqanının rəhbəri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

5.4. Mərkəzi idarəetmə orqanının rəhbəri:

5.4.1. mərkəzi idarəetmə orqanının fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.4.2. müavinləri arasında vəzifə bölgüsü aparır;

5.4.3. mərkəzi idarəetmə orqanının strukturunu və bu orqanın fəaliyyətinə cəlb olunan şəxslərin say həddini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla müəyyən edir;

5.4.4. bu Əsasnamənin 5.1-ci bəndində nəzərdə tutulan şəxslərin mərkəzi idarəetmə orqanının fəaliyyətinə cəlb edilməsi üçün müvafiq tədbirlər görür;

5.4.5. mərkəzi idarəetmə orqanının strukturuna daxil olan bölmələrin iş bölgüsünü müəyyən edir;

5.4.6. mərkəzi idarəetmə orqanını təmsil edir;

5.4.7. Azərbaycan Respublikası Prezidentinin ona həvalə etdiyi digər səlahiyyətləri həyata keçirir.

5.5. Mərkəzi idarəetmə orqanının strukturu və bu orqanın fəaliyyətinə cəlb olunan şəxslərin say həddi fövqəladə vəziyyətin tətbiq edilmə səbəbi və fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə fəaliyyəti dayandırılmış yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının səlahiyyətləri nəzərə alınmaqla, müəyyən edilir. Mərkəzi idarəetmə orqanının fəaliyyətinə cəlb olunan şəxsin əsas iş yeri və orta əməkhaqqı saxlanılır.

**6. Yekun müddəalar**

6.1. Mərkəzi idarəetmə orqanı Azərbaycan Respublikası Prezidentinin fövqəladə vəziyyət rejimi çərçivəsində müəyyən etdiyi müddətdə fəaliyyət göstərir.

6.2. Mərkəzi idarəetmə orqanı ləğv edildikdən sonra onun fəaliyyəti ərzində hazırlanmış, əldə olunmuş sənədlər və məlumatlar mərkəzi idarəetmə orqanı rəhbərinin təmsil etdiyi dövlət orqanında saxlanılır.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

## Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının fəaliyyəti QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 13.4-cü maddəsinə əsasən hazırlanmışdır və fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının (bundan sonra - komendantlıq) fəaliyyəti qaydasını müəyyən edir.

1.2. Komendantlıq fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantının (bundan sonra - komendant) Qanunla müəyyən olunmuş səlahiyyətlərinin həyata keçirilməsinin təmin edilməsi və fövqəladə vəziyyət rejimini təmin edən qüvvə və vasitələrin fəaliyyətinin əlaqələndirilməsinin təşkil olunması üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan qurumdur.

1.3. Komendantlıq öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununu, bu Qaydanı, Azərbaycan Respublikası Prezidentinin aktlarını, digər normativ hüquqi aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tutur.

1.4. Komendantlıq aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

1.4.1. qanunçuluq;

1.4.2. insan hüquq və azadlıqlarına hörmət;

1.4.3. həyata keçirilən tədbirlərin və müvəqqəti məhdudiyyətlərin fövqəladə vəziyyətə uyğunluğu;

1.4.4. mərkəzləşdirilmiş idarəetmə.

1.5. Komendantlıq fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə, bu mümkün olmadıqda isə yaxın ərazidə yerləşir.

1.6. Komendantlığın fəaliyyətinin maliyyələşdirilməsi Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

**2. Komendantlığın fəaliyyət istiqamətləri**

2.1. Komendantlığın fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. komendantın Qanunla müəyyən edilmiş səlahiyyətlərinin həyata keçirilməsini təmin etmək;

2.1.2. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə fövqəladə vəziyyət rejimini təmin edən qüvvə və vasitələrin vahid mərkəzdən idarə olunmasını təşkil etmək;

2.1.3. fövqəladə vəziyyət rejimini təmin edən qüvvə və vasitələrin fəaliyyətinin əlaqələndirilməsini təşkil etmək;

2.1.4. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Komendantlığın vəzifələri**

3.1. Komendantın Qanunda nəzərdə tutulmuş səlahiyyətlərinə uyğun olaraq komendantlıq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə Qanunun 8-ci maddəsində nəzərdə tutulan tədbirlərin və müvəqqəti məhdudiyyətlərin tətbiq edilməsi zəruriliyini təhlil etmək və onların tətbiqi barədə Azərbaycan Respublikasının Prezidenti tərəfindən qərar qəbul edildikdən sonra həmin tədbirlərin və müvəqqəti məhdudiyyətlərin icrasını təmin etmək;

3.1.2. komendantın fövqəladə vəziyyət rejiminin təmin edilməsi məsələləri üzrə əmr və sərəncamlarının layihələrini, habelə fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş halların aradan qaldırılması ilə bağlı tədbirlər planlarını hazırlamaq;

3.1.3.fövqəladə vəziyyət rejiminin təmin edilməsinə cəlb olunmuş qarovul (patrul) naryadlarının xidmətinin təşkilini və aparılmasını təmin etmək, növbəyə daxil olmazdan əvvəl qarovul (patrul) naryadlarının şəxsi heyətini təlimatlandırmaq, əməkdaşların (hərbi qulluqçuların) zəruri ləvazimatlarla təchiz olunmasına nəzarət etmək;

3.1.4. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə qanunçuluğa riayət olunmasının təmin edilməsi və ictimai qaydanın qorunması məqsədilə müvafiq tədbirləri planlaşdırmaq və həyata keçirmək;

3.1.5. fövqəladə vəziyyət rejiminin təmin edilməsi üzrə normativ hüquqi aktlar, habelə komendantın əmr və sərəncamları ilə bağlı maarifləndirmə və təbliğat işlərini təşkil etmək;

3.1.6. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hüquqi şəxslərin vəzifəli şəxsləri, vətəndaşlar, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, mülki müdafiə orqanları, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə orqanların (qurumların), fövqəladə vəziyyət rejimini təmin edən orqanların (qurumların) vəzifəli şəxsləri tərəfindən komendantın əmr və sərəncamlarının icra olunmasına, fövqəladə vəziyyət şəraitində tətbiq edilən tədbirlərin və müvəqqəti məhdudiyyətlərin yerinə yetirilməsinə nəzarət etmək;

3.1.7. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə fəaliyyət göstərən mərkəzi və yerli icra hakimiyyəti orqanları, həmçinin yerli özünüidarə orqanları ilə qarşılıqlı əlaqəni təmin etmək;

3.1.8. fövqəladə vəziyyət rejiminin tətbiq edildiyi ərazidə dislokasiya olunan hüquq-mühafizə və digər aidiyyəti dövlət orqanları nümayəndələrinin iştirakı ilə ictimai asayişin və təhlükəsizliyin qorunması işinin təşkilini gündəlik təhlil etmək, hüquq pozuntularının qarşısının alınması üçün müvafiq tədbirlər müəyyənləşdirib həyata keçirilməsini təmin etmək;

3.1.9. media nümayəndələri üçün mətbuat konfransları və ya brifinqlər təşkil etmək;

3.1.10. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə açıqlanması qanunla qadağan olunan məlumatların açıqlanmasının qarşısının alınması üçün tədbirlər görmək;

3.1.11. fövqəladə vəziyyət rejiminin təmin edilməsinə cəlb olunan əmlak və resursların, o cümlədən sərf olunan maliyyə xərclərinin uçotunu aparmaq;

3.1.12. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə mövcud vəziyyət barədə gündəlik məlumatların toplanılmasını, ümumiləşdirilməsini və təhlil olunmasını təşkil etmək;

3.1.13. fövqəladə vəziyyət rejiminin təmin edilməsində iştirak etmiş şəxslərin qeydiyyatının bu Qaydanın 5.2-ci bəndində nəzərdə tutulmuş qaydada yaradılan birləşmiş əməliyyat qərargahında aparılmasını təşkil etmək;

3.1.14. dövlət sirrinin mühafizəsini təmin etmək;

3.1.15. Qanuna uyğun olaraq komendantın səlahiyyətlərindən irəli gələn digər vəzifələri yerinə yetirmək.

**4. Komendantlığın hüquqları**

4.1. Komendantın Qanunda nəzərdə tutulmuş səlahiyyətlərinə uyğun olaraq komendantlıq aşağıdakı hüquqları həyata keçirir:

4.1.1. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə komendantın əmr və sərəncamlarının yerinə yetirilməsini mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hüquqi şəxslərin vəzifəli şəxslərindən, vətəndaşlardan, əcnəbilərdən, vətəndaşlığı olmayan şəxslərdən, həmçinin mülki müdafiə orqanlarının, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə orqanların (qurumların), fövqəladə vəziyyət rejimini təmin edən orqanların (qurumların) vəzifəli şəxslərindən tələb etmək;

4.1.2. vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar dövlət orqanlarına (qurumlarına), yerli özünüidarə orqanlarına, bütün hüquqi və fiziki şəxslərə zəruri məlumatlar barədə sorğular göndərmək, onlardan cavablar, habelə görülən işlər barədə arayışlar və məlumatlar almaq;

4.1.3. fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş halların aradan qaldırılması üzrə fəaliyyətə dövlət orqanlarının (qurumlarının) və hüquqi şəxslərin mütəxəssislərini qanunla müəyyən edilmiş hədlər çərçivəsində cəlb etmək;

4.1.4. səlahiyyətinə aid məsələlərlə bağlı rəy və təkliflər vermək, təhlil və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

4.1.5. fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə ona verilmiş tapşırıqların yerinə yetirilməsi üçün cəlb olunmuş qüvvə və vasitələrdən istifadə etmək;

4.1.6. Qanuna uyğun olaraq komendantın səlahiyyətlərindən irəli gələn digər hüquqları həyata keçirmək.

**5. Komendantlığın fəaliyyətinin təşkili**

5.1. Komendantlıq Qanunun 11-ci və 12-ci maddələrində nəzərdə tutulan fövqəladə vəziyyət rejimini təmin etmək üçün qüvvə və vasitələri istifadə olunan dövlət orqanlarının nümayəndələrindən formalaşdırılır. Zərurət yarandıqda, komendantlığın fəaliyyətinə bu dövlət orqanlarından başqa, digər dövlət orqanlarının (qurumlarının) nümayəndələri də cəlb oluna bilərlər.

5.2. Fövqəladə vəziyyət rejimini təmin edən qüvvə və vasitələrin fəaliyyətinin əlaqələndirilməsi üçün komendantlığın tərkibində Azərbaycan Respublikasının Prezidenti tərəfindən fövqəladə vəziyyət rejimini təmin edən orqanların nümayəndələrindən ibarət birləşmiş əməliyyat qərargahı yaradılır.

5.3. Komendantlığa və birləşmiş əməliyyat qərargahına Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən komendant rəhbərlik edir. Komendant ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.4. Komendant Azərbaycan Respublikasının Prezidentinə, fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə xüsusi idarəetmə orqanı yaradıldığı halda isə xüsusi idarəetmə orqanının rəhbərinə tabedir və bu halda komendant həmin orqanın rəhbərinin birinci müavini olur. Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə mərkəzi idarəetmə orqanı yaradıldıqda, komendantlıq həmin orqanın struktur tərkibinin bir hissəsi olur.

5.5. Komendantın Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla, vəzifəyə təyin və vəzifədən azad etdiyi müavinləri vardır. Komendantın müavinləri onlara komendant tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.6. Komendant:

5.6.1. komendantlığın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.6.2. müavinləri arasında vəzifə bölgüsü aparır;

5.6.3. Qanunun 13-cü maddəsində nəzərdə tutulan səlahiyyətləri həyata keçirir;

5.6.4. komendantlığın strukturunu və komendantlığın fəaliyyətinə cəlb olunan şəxslərin say həddini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla müəyyən edir;

5.6.5. bu Qaydanın 5.1-ci bəndində nəzərdə tutulan şəxslərin komendantlığın fəaliyyətinə cəlb edilməsi üçün müvafiq tədbirlər görür;

5.6.6. komendantlığın strukturuna daxil olan bölmələrin iş bölgüsünü müəyyən edir;

5.6.7. komendantlığı və birləşmiş əməliyyat qərargahını təmsil edir;

5.6.8. Azərbaycan Respublikasının Prezidenti, fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə xüsusi idarəetmə orqanı yaradıldığı halda isə həmçinin xüsusi idarəetmə orqanının rəhbəri tərəfindən ona həvalə edilmiş digər səlahiyyətləri həyata keçirir.

5.7. Komendantlıq fəaliyyətini komendantın müəyyən etdiyi iş rejimi qaydalarına uyğun olaraq fasiləsiz həyata keçirir. Komendantlığın fəaliyyətinə cəlb olunan şəxsin əsas iş yeri və orta əməkhaqqı saxlanılır.

**6. Yekun müddəalar**

6.1. Komendantlıq fövqəladə vəziyyətin tətbiq edildiyi müddətdə fəaliyyət göstərir.

6.2. Komendantlıq ləğv edildikdən sonra onun fəaliyyəti ərzində hazırlanmış, əldə olunmuş sənədlər və məlumatlar komendantın təmsil etdiyi dövlət orqanında saxlanılır.

POVEST

# TALESİZLƏR ŞƏHƏRİ

Rəfiqə SADIQOVA

Qafargil Sabirabaddakı Çadır şəhərinə gəlib çatanda gecə yarıydı. Qaranlıqda çadırlar yerə döşənən göbələyə bənzəyirdi. Eyni görkəmdə, eyni biçimdə. Çadırın içində yanan işıq brezenti zorla yardığı üçün çöldən közərti kimi görünürdü.

Bu yerlərin qəribə iqlimi vardır. Gündüz nə qədər isti olsa da, səhərə yaxın hava sərinləşirdi. Maşının böyrünə sığınan və sərinlikdən büzüşən balaları hələ də yatırdılar. Qafar yavaş-yavaş oyanan insanların səsinə qulaq verib, üstünə saldığı odeyalı sağ əlinin hərəkəti ilə kənara itələdi. Bir müddət yerinin içində oturdu. Elə onda da bütün həyatı kino lenti kimi gözünün önündən keçdi.

…İkimərtəbəli evi vardı. Kənddə hamı o evə "indiyski ev" deyirdi. Birinci mərtəbədən ikinci mərtəbəyə qalxan pilləkən həm evin içindən idi, həm də burula-burula qalxırdı. Qafar bunu hind filmlərində görüb seçmişdi. Həyətindəki 35 metrlik, üstü örtülü, içindəki stolu və oturacağı dəmirdən olan mağar hər zaman toy üçün tərtəmiz olardı. Qafar şadlıq evlərini xoşlamazdı. Əhd eləmişdi ki, övladlarının toyunu bu mağarda eləsin…

Sığındıqları maşını, onun böyründə büzüşüb yatan övladlarını ürək ağrısı ilə seyr etdi. İlduzə də qalxmışdı. Amma haradan başlayacağını bilmirdi. Nə yanacaq vardı, nə qab-qazan. Uşaqlar isə gözlərini açan kimi yemək istəyəcəkdilər.

Dünya xali deyilmiş, yaxınlıqdakı çadırlardan çıxan adamlar onları əvvəlcə uzaqdan seyr etsələr də, sonra yaxına gəlib hal-əhval tutdular. Elə maşının yanındaca böyük bir süfrə açıldı. Kimin nəyi vardısa, qoymuşdu ortalığa. Balacalar yeyir, böyüklər isə ürəklərinə yığılan qübarı dillərinə gətirib dərdləşirdilər. Hələ ki, həyat insanları sınağa çəkirdi və bu sınağı nə durdurmağa, nə də ona alışmağa imkan yox idi. Təkcə ümidin əlini buraxmırdılar. Əl də ki, yaman sürüşkən idi. Tez-tez üzülərək ona pənah gətirənləri sarsıdırdı. Bax onda qəm yükünün altında qalan insanlar sanki sümüklərinə qədər ovxalanıb tökülürdülər.

Qafargil də çadır şəhərciyin sakini oldular. Kənd camaatının təbəssüm yaradan sözü Qafara da gəlib çatmışdı. "Əvvəl kənddə yaşayırdıq, indi şəhərliyik" deyib bir-biri ilə zarafat edən insanlar şəhərin əvvəlindəki çadırı fikirlərindən silməyə çalışırdılar. Fəlakət, dərd, həsrət, ölüm görmüş insanların sanki heç nəyə münasibət göstərməyə gücü qalmamışdı.

Süfrə yığışdırılandan sonra kişilər bir tərəfə çəkilib söhbətləşməyə başladılar. Bekar durmaq olmazdı. Ac qalmamaq üçün bir işin qulpundan yapışmaq lazım idi. Torpaq… İtirilən torpaqla sığındıqları torpağın fərqi o qədər böyük idi ki, düşünməyə dəyməzdi. Şoranlıq bütün çəkilən əziyyətləri heçə endirmişdi. Humanitar yardım kimi gətirilən gül və tərəvəz toxumları nə qədər əmək sərf edilsə də, əmələ gəlmirdi.

Qafargilə təklif edilən çadırın yanındakında yaşayan Ayaz onu başa saldı ki, dolanışıq üçün maşını ilə xaltura edə bilər. Bu sözü eşidən Qafar ürəyində acı-acı gülsə də, çönüb külfətinə baxanda başqa çarəsinin olmadığını anladı.

Bir zamanlar qaradinməz olan Qafar dəyişmişdi. Ünsiyyətcil olmuşdu. Çünki gördüklərini içinə atanda necə bir tufana sinə gərmək lazım olduğunun acı nəticəsini hiss etmişdi. Ölümdən qorxurdu. Balalarının yiyəsiz qalmasından çəkinirdi. Yoxsa hər dəqiqəsi zülm olan bu ömrü yaşamaq istəməzdi.

❖ ❖ ❖

İnsanlar artıq Çadır şəhərinə alışmış kimiydilər. Yaşlılar buna özlərini məcbur etsələr də, gənclər taleyin qisməti, uşaqlar və yeniyetmələr isə yaşamın özü kimi dəyərləndirirdilər.

Həyat davam edirdi. Mələyi burada tanımayan yox idi. Hamı onu söhbətcil, hər şeyə bir quyruq bağlayan insan bilirdi. Mənfi və müsbət cəhətləri ilə hər kəsin tanıdığı və qəbul etdiyi Mələk bu boyda şəhərciyin başbiləninə çevrilmişdi. Xeyir işi olan, oğluna qız axtaran, hətta deyilənə görə iş, vəzifə axtaran da Mələyin çadırının qabağından keçməsə olmurdu. Özü də heç kimsənin qəlbini qırmazdı. Hərəni bir dil ilə yola verərdi. Hər kəsin qorxduğu bir şey olur. Mələk isə ölümdən yaman qorxurdu. Başa düşən düşür, düşməyən onun dodağının altında dediyi sözə amin deyirdi. O, etdiyi duaların arasında "Allah sənin ömründən kəsib mənə calasın" sözünü deyəndə üzünə bir gülümsər ifadə verərdi. Ən həzz aldığı isə həmin adamın amin deməsi olurdu. Çünki o zaman sanırdı ki, duası elə həmin aminlə qəbul olunur. Elə o üzdən yas yerlərində az görünərdi. Xeyir işlər isə onsuz keçə bilməzdi. Sanki yazılmamış bir qanun vardı. Guya onun xeyir-duası yaman düşərli olurmuş.

Mələk belinə doladığı çiyin şalının saçaqlarını əli ilə daraqlaya-daraqlaya fikrə getmişdi. Nə vaxtdır diqqətini bir şey çəkirdi. Adilin oğlu ilə Bəstinin qızının baxışması səbəbsiz deyildi. Amma nədənsə oğlan evindən bir xəbər-ətər çıxmırdı. Qorxmaz dəllək işləyirdi. Çadır şəhərinin baş tərəfində yarı fanerka, yarı brezent bir yer düzəltmişdi. Çöldən adi görünsə də, içərisi bərli-bəzəkli idi. Dünyanın ən məşhur futbolçularının, müğənnilərinin, gözəllik müsabiqəsi qaliblərinin şəkilləri fanerkanın solğun rəngini, brezentin isə süzülmüş yerlərini bəlli etmirdi.

Yaşıl libaslı Türkiyə gözəli Məltəm Hakararın iri şəkli isə lap başdan vurulmuşdu. Çadır şəhərində içki düşkünü kimi tanınan Vidadi hər dəfə buraya gələndə Qorxmazın qılığına girmək üçün əli ilə Məltəmin şəklini göstərib:

- Ay Qorxmaz, bax gör, nə sənə layiq qızdı.

- Nə deyirsən, indi onu almaq üçün Türkiyəyəmi gedim?

- Yox, canım üçün, bilsə ki, sən ondan xoşlanırsan, özü durub bura gələrdi, - deyib heyran-heyran şəkli süzərdi Vidadi.

Bu sözlərdən sonra Qorxmaz Vidadidən bir qara qəpik belə almadan onu təraş edərdi. Vidadi gedəndən sonra isə dərin-dərin düşünüb "dəlidən doğru xəbər", deyəsən evlənməyin vaxtı çatıb", - deyərək öz-özünə eyham vurardı. Bax,

(Əvvəli qəzetin 3 noyabr tarixli sayında)

elə bu zaman Bəstinin qızı Mətanət gözləri önünə gəlirdi. Sakit təbiətli, bəstəboylu, uzunsaçlı Mətanət onun diqqətini çoxdan cəlb etmişdi. Amma… Amması bu idi ki, çadırda yaşayarkən evlənmək istəmirdi Qorxmaz.

… Qorxmazın atası Adil Şahbulaqdakı daş karxanasında işləyirdi. Kişi elə bil ki, əhd eləmişdi, nəinki ikimərtəbəli evi, hasarını da ağ mişar daşı ilə boya-boy hördürmüşdü. Kənddə təkcə onlar yox ey, sanki hamı bir-birinin bəhsinə iki-üç metrə çatan hasarlar çəkdirmişdilər. Çəpər deyilən şey qalmamışdı. Böyük dəmir darvazası, daş hasarı, ağ dəmirdən taxtapuşu olmayana Söylü demiş, "hamı bir təhər baxardı". Xüsusilə o dəmir darvazanın hər iki qapısı açılıb "Jiquli"nin siqnal verərək həyətə girməsi bir özgə mənzərə idi. Adil kişi gəlişini evdəkilərə xəbər vermək və qapıda çox gözləməmək üçün maşınına musiqi kimi səslənən siqnal qoydurmuşdu. Düzdü, buna görə yol polisi onu bir neçə dəfə cərimə etsə də, siqnalı açmamışdı. Maşın dayanan kimi Qorxmaz tez eyvanın böyründə qoyduğu vedrəni və dəsmalı götürüb həyətdən axan arxa doğru qaçardı. Vedrəni doldurub maşını yumağa başlayanda atası:

- Ehtiyatlı ol, suyun içində xırda daş olar, maşını cızar, - deyərdi. Maşını belə qoruyardı Adil kişi. Lakin qaça-qaç düşəndə nədənsə maşın xoda düşmədi və onu həyətdə qoymaq məcburiyyətində qaldılar. Atası o təlaşda maşını brezent çadırla kip örtdü ki, tozlanmasın, qonmasın. Qayıdacaqlarına o qədər əmin idilər.

Dərin xəyallardan ayrılan Qorxmaz hər dəfə bu hisslər yaşayanda bir xeyli özünə gələ bilmirdi. Atasının qəmgin sifəti, anasının ümidsiz söhbətləri düzəlmirdi, düzələ bilmirdi.

Deyirlər ki, danışılan dörd divar arasında qalır və qalmalıdır. Bəs çadırın sirri saxlamaq gücü nə qədər idi. Son vaxtlar anasının eyhamına atası Adilin sakit baxışları dəstək verirdi. Adil qaçqın düşəndən ayaqqabı ustası, çəkməçi kimi işləyirdi. Çadırın böyründə düzəltdiyi bir iş yeri vardı. Bütün çadır şəhərciyinin cırılan, qopan, gülmıxdan çıxan ayaqqabılarını o təmir edirdi. Aydındır ki, ayaqqabını düzəltdirənə kimi usta ilə müştəri arasında bir ünsiyyət körpüsü kimi söhbət olurdu. Bəzən siyasətə kimi gedib çıxan bu söhbətlər yenə dönüb-dolaşıb ailəyə, dolanışığa qayıdırdı. Xüsusilə oğul övladı olanlara "niyə evləndirmirsən?" sözü, məsləhəti tez-tez verilərdi. Əvvəllər bunun cavabı vardı. "Tezliklə yurd-yuvamıza qayıdanda" deyərdilər. Lakin illər keçdikcə bu sualın cavabı öz əhəmiyyətini itirirdi. Çünki geriyə dönüşdən bir xəbər yox idi.

Nəhayət, Adil kişi arvadı ilə danışmağı qərara aldı. Axşam yeməyindən sonra süfrəni yığışdıran Sona Adilin sözlü adama oxşadığını hiss etdi.

Adil:

- Sona, gəl yanımda otur, sənə sözüm var, - dedi.

Sona ona qəribə nəzərlərlə baxıb:

- Oturmasam deyə bilməzsən?

- Yox, bu elə-belə söhbət deyil, - deyib dərindən bir ah çəkdi. Ürəyindən "ay dünya, bu çadıra ev deyəndən arvadın yanında sözümüz də keçmir" fikrini keçirdi.

Sona əlini önlüyünə çəkib qapının ağzındakı döşəkçəni götürərək Adilin yanına gəldi. Döşəkçəni yerə qoyub əyləşdi. Ağrıyan dizini oxalaya-oxalaya Adilin üzünə baxdı. Adil haradan başlayacağını bilmədiyi üçün bir-iki dəfə öskürdü. Sonra:

- Deyirəm, bu çadır evlər bizim axırımıza çıxdı. Sağlam canımız qalmayıb, dünyaya etibar yoxdur. Qorxmazı… , - bir az dayanıb sonra, - deyirəm, bəlkə Qorxmazı evləndirək, - dedi.

Sona sanki bu xəbəri çoxdan gözləyirmiş kimi sevinclə:

- Yaxşı olar, ay kişi, - dedi.

- Amma…

- Nə amma?, - deyib Sona yerindən qalxdı. Lap baş tərəfdə qoyulmuş sandığın balaca qıfılını açmaq üçün boynundan asdığı açarı çıxarıb sandığı açdı. Əlini onun içərisində gəzdirib bir düyünçə çıxartdı. Sonra sandığın qapağını ehtiyatla endirərək gəlib Adilin yanında oturdu. Düyünçəni səliqə ilə, ehtiyatla açdı. Burada bir üzük, nazik boyun sepi və sırğa vardı. Bunları görən Adil sualedici nəzərlərlə arvadına baxdı.

- Bunlar…

- A kişi, bunları yardım kimi verilən çörəkpulunu yığaraq almışam.

Adilin üstündən sanki dağ götürüldü. Minnətdarlıqla Sonaya baxıb:

- Allah səndən razı olsun, - deyə bildi. Başqa heç nə söyləyə bilmədi. Qorxdu ki, boğazına dolan qəhər onun kövrəldiyini büruzə verər.

Bəli, bir zamanlar ehtiyacın nə olduğunu bilməyən Adil üçün dəyəri o qədər də baha olmayan bu zinət əşyaları ağır bir yükün altından çıxmaq qədər önəmli idi.

❖ ❖ ❖

Eyni rayonun kəndlərində belə toy-nişanla bağlı müxtəlif adət-ənənə olur. Bu müqəddəs ənənələri nəsillər qoruyub bir-birinə ötürür. Lakin çadır şəhər olandan tamamilə başqa bir adət-ənənə də yaranmışdı. İnsanlar olmayan heç nəyi sözə qoymurdu. Adəti də, ənənəni də imkanlarına təslim etmişdilər. İndi gəlin-bəy şəhərcikdə yaşayırdısa, heç üstü kuklalı, ququşu olan güllü-çiçəkli maşınlara belə gərək qalmırdı. Xonça da, gəlin də çadırdan-çadıra aparılırdı. Amma insafla desək, bunun özünün də bir yaraşığı, xoş ovqatı vardı. Kimin nəyə gücü çatırdısa, o da ən gözəl ənənə kimi qəbul olunurdu. Bircə çadır məsələsində problemlər yaranırdı ki, onu da dəyiş-düyüş yolu ilə qaydaya salırdılar.

Elçilik, nişan mərasimi uğurla tamamlanmışdı. Bu gün Ağcabədidə yerləşən Çadır şəhərindəki toy şənliyinə ətrafdakı kəndlərdən də qonaqlar gəlmişdi. Artıq hamı bir-birinə qarışmışdı. Bir nəfərin sevincindən çoxlarına pay düşürdü. Həm də uzunmüddətli döyüşlər, viran qalmış kəndlər, şəhərlər görmüş, didərgin, qaçqın düşmüş insanlar sanki sevinc üçün, toy üçün darıxmışdılar.

Adil kişi çoxdan arvadının əzizləyib sandıqda saxladığı qara kostyumunu geyinib çadırın qarşısında şax dayanaraq qonaqlara xoşgəldin edib, onları bir qədər irəlidə qurduqları böyük toy mağarına dəvət edirdi. Cavanlar xəlvətə salıb içdikləri içkinin təsirindən əjdahaya dönmüşdülər. İnsanlar sanki neçə illik kədərdən, nisgildən, qəmdən hayıf çıxmaq istəyirdilər. Mağarın yuxarı başında oturan padşahın əmri ilə fərrac qonaqları bir-bir onun hüzuruna gətirir, cərimə olunan sümüyünə düşsə də, düşməsə də, padşahın əmri ilə çalınan havaya oynayırdı. Şuluqluq etmək istəyənlər fərraşın əlindəki çubuğun "dadına baxırdı". Bundan kimsə incimirdi, əksinə, sevinc aşıb-daşırdı.

Toyun sonuna yaxın yuxarı başda qoyulan stolun arxasında sağdışı və soldışı ilə əyləşən bəyin tərifi başladı. Hər tərifin sonunda "bəyə xələt versin…", adlar çəkildikcə hər kəs bəyin qarşısındakı stola yaxınlaşıb nəmərini qeyd etdirirdi. Bu nəmər pul da olurdu, parça da, zinət əşyası da.

Toylarda muğam da oxunurdu, el mahnıları da ifa olunurdu. Oyun havası da çalınırdı. Bircə "Qarabağ şikəstəsi"ndən başqa. Bunu



kimsə qadağan etməmişdi. Muğamın nəinki hamısına, heç bir sözünə belə dözməyə, dinləməyə gücləri qalmamışdı insanların. Vaxtilə Xan əminin ifasında səslənən və hər kəsin sevdiyi bu şikəstə indi insanların ən zəif nöqtəsi kimi onları elə göynədirdi ki, əzabı uzun zaman səngimirdi. Qorxmazla Mətanətin toyu ilə Çadır şəhərindəki ailələrin sırasına daha bir yenisi əlavə olundu.

❖ ❖ ❖

Aylar, illər ötür, geriyə dönmək arzusu elə bil şoran torpağa basdırılan toxumlar kimi cücərmədən çürüyüb yox olurdu.

Qafarın daha bir dərdi var idi ki, onu yalnız arvadı İlduzə ilə bölüşə bilərdi. Başqa kimsəyə söyləyə bilməzdi. Adamların onu qınamasından bərk qorxurdu. Bu dərd, bu sağalmayan, qövr edən yara Rasimlə bağlı idi. Qafar hər dəfə kənddən çıxanda Rasimi axtarıb tapmadığı üçün özünü danlamırdı ey, yamanlayırdı. Görəsən sözünün yaxasından elə tutub silkələyirdi ki, dəymişi bir yana kalları belə şarıltı ilə tökülürdü. Görəsən ölmədi ki… Görəsən… Ən qorxduğu da bu idi. Fikrinə gətirəndə bədənini buz kəsirdi. Başdan-ayağa keyiyirdi. Görəsən ermənini əlinə keçmədi ki? İndi gəl respublikanın 53 kəndinə, şəhərinə dağılmağa məhkum olan insanların arasından Rasimi axtar-tap görüm. Bu, ot tayasında iynə axtarmaq kimi çətin idi. Çünki Rasim elə vəziyyətdə deyildi ki, onun varlığı ilə yoxluğu insanları məşğul etsin.

Maşını ilə xaltura etdiyi üçün sərnişinlərinə bu mövzuda ətraflı olmasa belə ucundan-qulağından çatdırdığı sözlərə, söhbətə verilən reaksiyalar nəticəsiz qalırdı. Sanki insanlar axtarmaqdan, soraqlamaqdan yorulmuşdular.

Qafar Çadır şəhərində hər kəsin ümid yerinə çevrilmişdi. Kimin nə müşkülü olsa, əvvəlcə onu arayırdı. Etdiyi hər yaxşılıq onun Rasimin qarşısındakı cavabdehliyinə bəlkə bir işıq salar deyə fikirləşirdi. Allah böyükdür. "Bəlkə bir gün xəbər çıxar" sözləri onu ruhdan düşməyə qoymurdu. Həm də daxili bir səs ona Rasimin sağ olduğunu söyləyirdi. Bəlkə də bu, onun uzun axtarışının nəticəsiz qalmayacağına inandığı bir ümid qığılcımı idi.

Çadır şəhərinin yaxınlığındakı çayxana domino oynayan kişilərlə dolu idi. Çay bəhanəydi. Adamlar buraya vaxtlarını keçirmək üçün toplaşırdılar. Kim nə xəbər bilirdisə, birinci burada səslənirdi. Ayaması xəbərçi olan Əbülfət (söz gəzdirən deyildi, təzə xəbərlər həmişə onda olardı) qəflətən uca səslə:

- Ay kişilər, bilin və agah olun, - dedi.

Burada bir az pauza verdi Əbülfət. Sonra:

- Ə, Surxay, ordan bir çay ver görüm.

Hövsələsi daralan Kamal:

- Səni zəhər içəsən, fikrini tamamla, sonra çay iç dayna, - deyib üz-gözünu turşutdu.

Əbülfət sözünə davam etmək əvəzinə Kamalı cırnatmaq üçün:

- Bu qaçqınlıqda hərə nə gətirmişdisə, tükəndi. Təkcə sənin dayna sözündən başqa. Qarabağlıların bu kəlməsindən olmaz. Bilirsən niyə olmaz? Çünki onu cümləyə qoşanda məna şirinləşir, ləzzət verir.

Camaatın gülüşünə bir az da əsəbiləşən Kamal ərklə:

- Ə, səfeh-səfeh danışma, sözünü de, - dedi.

Əbülfət armudu stəkandakı çaydan bir qurtum alıb:

- Deyirlər çadır şəhərciyi daha olmayacaq. Rəhbərimiz deyib ki, Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Xəbəriniz yoxdur ey, ölkədə neçə dənə yeni qəsəbə salınır. Çoxmərtəbəli binaları, hər cür şəraiti olan yeni qəsəbəyə köçəcəyik. Hələ deyirlər ki, hamamı da var, isti-soyuq suyu da.

- İndi deyirsən ki, Biləsuvardakı, Sabirabaddakı Çadır şəhərində, İmişlidəki yük vaqonlarında yaşayanlar, elə biz özümüz, Ağcabədidəki Çadır şəhərində məskunlaşanlar o dediyin qəsəbələrə köçəcək?

- Bəli, köçəcək, liftli binalarda, həyət evlərində yaşayacaqlar.

Heyrətdən ağzı açıq qalan Kamal:

- De sən öl?

- Ə, niyə ölürsən, neçə ildir çadırda canın çıxır, get bir az adam kimi yaşa, sonra ölərsən, - deyib güldü Əbülfət.

Kamal yenə də söz altında qalmaq istəmədi:

- Ə, az lovğalan, əlindəki o "Veb" radio olmasa, hardan biləcəkdin bunları? Səni belə onun balaca kronasına qurban olasan, - deyib əlini əlinə vurub güldü.

Bunu görən Çingiz:

- Ə, Kamal, deyirəm o ATƏT-nən sənin heç bir fərqin yoxdur ey. O da, sən də boş-boş danışmağı, özünü guya çox mühüm işlə məşğul olurmuş kimi göstərməyi sevirsiz. Ayə, nə olar, bir dəfə də sən bir xeyirli kəlmə söylə dayna, dünya dağılmaz ki.

Ələsgər:

- Çingiz, canım üçün səhv dedin, o ATƏT deyil, Amerika müşahidəçisidir. Ədalətdən xəbərsizdir, görmürsən? Yaxşı-pis axtarmır, özü bildiyini düzgün sayır. Nə deyim, vallah!

Hamının onun üstünə düşdüyünü görən Kamal pərt halda ayağa qalxıb çayxanadan çıxdı.

İnsanların üstünə sanki gün doğmuşdu. Dərd, qəm, qaçqınlıq, onun yaratdığı sonsuz problemlər bir dəqiqənin içində əridi, yox oldu. Allah, ümid nə gözəl şeymiş. Yaxşı ki, üzülmədi və üzülmədiyi üçün də insanlara yeni yaşam ruhu bəxş etdi.

Elə həmin gündən dövlət başçısının söylədiyi "Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq" sözlərini yazıb çadır şəhərciyinin ən görməli yerinə vurdular. Bu fikrin hər sözü, qətiyyəti insanları qopduqları dünyaya bir daha möhkəm-möhkəm bağladı. Əslində, heç qopmamışdılar da, onlara elə gəlirdi.

❖ ❖ ❖

Murad doxdurgil artıq neçənci dəfə idi ki, üstünə "doktor İkram Rüstəmov" yazılmış bu qapını ümidlə açırdılar. Ucaboylu, yaraşıqlı və nəzakətli doktor Rasimin də məhəbbətini qazana bilmişdi. Heç kimlə ünsiyyət qurmayan Rasim elə ilk gündən İkram doktorun sözünə diqqətlə qulaq asır, ona cavab verməyə çalışırdı. İkram doktor onu müayinə etdikdən sonra bir neçə prosedurdan keçməsini tövsiyə etdi. Analizlərin, müayinələrin nəticəsi olaraq söylənən söz Südabənin də, Murad doxdurun da ürəyinə bir sərinlik gətirdi. İkram doktor dedi ki, hələ yetkinlik yaşına çatmadığı üçün müalicə ilə müsbət nəticə əldə etmək olar. Bu, uzun bir yoldur və ata-ana kimi sizdən çox şey asılıdır. Bu sözləri eşidən Südabənin yanaqları qızardı və başını aşağı salıb susdu. Elə Murad doxdur da bir az çaşan kimi oldu. O, üzünü Rasimə tutub:

- Oğlum, sən dəhlizə çıxıb bizi gözlə, - dedi.

Rasim dinməzcə ayağa qalxıb qapını arxasınca örtdü. Hər şeyi olduğu kimi öyrənən doktor təəssüflə başını buladı. Tutqun səslə:

- Boynunuza ağır bir iş götürmüsünüz. Bu çətin yolu mənimlə birlikdə qət edə biləcəksinizmi?

Hər ikisi eyni vaxtda:

- Əlbəttə, - dedilər və diqqətlə doktorun nə söyləyəcəyini gözlədilər…

Bəli, yol ağır oldu. İllərlə çəkən çox uzun və gərgin müalicə dönəmi başa çatmaq üzrə idi. Hətta bir gün İkram doktor onları sevinclə qarşılayıb:

- Beyindəki ocaqlar artıq sağalmaq, yox olmaq üzrədir, - deyib onları sevindirdi. Bunun nə demək olduğunu Südabə anlamasa da, Murad doxdura sanki dünyanı verdilər. Həkimi qucaqlayıb:

- İkram doktor, heç bilmirəm sizin bu əməyinizin qarşılığında nə söyləyim? Bircə onu deyirəm ki, nə yaxşı ki, varsan, Allah səni qorusun! Qorusun ki, insanların dərdlərinə əlac edəsən. Doğrusunu deyim ki, bir tibb işçisi kimi inamım az idi. Bu qapını açanda təlatüm içində idim.

İkram doktor:

- Bu işdə Südabə ananın əməyini danmaq olmaz. Bu, əsl fədakarlıqdır, - dedi.

Onlar ilk dəfə inamsız bir vəziyyətdə gəldikləri bu qapını indi böyük sevinclə tərk etdilər. Amma İkram doktorun adını hər üçü ürəklərinə həkk etdi. Həm alicənab həkim, həm də insan kimi. Bəli, yoxdan var yaradan bir insan kimi.

Südabə müalicə dövründə Rasimi həm də Çadır şəhərindəki məktəbə yazdırdı. Məktəb deyəndə ki, digər çadırlardan yalnız böyüklüyü ilə seçilirdi. İçərisini pərdələrlə bölüb "sinif otaqları" etmişdilər. Hərəsində də 4-5 sınıq-salxaq parta vardı. Sinif otaqlarında keçilən dərslər bir-birinə mane olmamaq şərtləri ilə aparılırdı.

Rasim oxusun, öyrənsin deyə Südabə də onunla birlikdə dərslərə gəlirdi. Partaya sığışmadığı üçün hardansa bir kubik daşı tapıb "sinfə" qoymuşdu. Dərslər başa çatana kimi Südabə həmin daşın üstündə oturub gözləyirdi. Yoxsa Rasimin hövsələsi axıra kimi çatmazdı.

Südabə yenə də Rasimlə dərsə gəlmişdi. Həmişə onları gülərüzlə qarşılayan Rüxsarə müəllimə çox pərişan görünürdü. Müəllimə dərsə başladığı üçün Südabənin bunun səbəbini öyrənməyə imkanı olmadı. Nəhayət, dərs başa çatdı. Lakin Rüxsarə müəllimə Rasimin yazısından razı qalmadığı üçün dəftərə nümunə olaraq hərfləri yazdı ki, Rasim onları təkrar edərək xəttini düzəltsin.

Danışmaq üçün məqamın yetişdiyini hiss edən Südabə Rüxsarə müəlliməyə:

- Nədən pəjmürdəsiniz?, - dedi.

Müəllimə bir söz demədən kiçik masanın üstündəki göyüzlü dəftəri Südabəyə uzatdı.

- Bunu oxu, biləcəksən mənim kədərimin səbəbini.

Südabə aydın xətlə yazılmış cümlələri oxuduqca haldan-hala düşürdü. Onuncu sinif şagirdi Məryəm yazırdı:

"O yollara, sinəsi dağlı torpağa nisgil dolu bir həsrətlə baxırıq. 20 ildən çoxdur ki, doğmam, torpağım dediyimiz o səmtə üz tuta bilmirik. Gözün görə, əlin çatmaya, sən baxa-baxa torpağına od vurub yandıralar, amma onu söndürməyə nə gücün, nə haqqın çatmaya. Məcburi köçkün sözünün yaranmasına bais olanlara Allah min lənət eləsin. Haradan daxil oldu bu söz lüğətimizə? Kaş heç yerlidibli tanımayaydıq bu kəlməni. Məcburi köçkünlər indi respublikanın onlarca rayonunda məskunlaşıblar. Amma ömrünün bir hissəsinə aid olan xatirələrin "məcburi köçkünlüyü" də mövcuddur. İndi mən haradan alım o ayaqyalın gəzdiyim həyətimizi, bəzən gümrah, bəzən yuxulu getdiyim məktəb yolunu, anamın işdən gəlişini gözlədiyim qapımızı? Xatun nənənin şirin söhbətlərini. Xatirələrimin sapı elə qırılıb ki, yığmağa, yenidən ipə-sapa düzməyə iqtidarım yoxdur. Yuxularımda tez-tez getdiyim evimizi, küçəmizi görmək üçün nələrə qatlanmazdım?! Çünki oraya gedə bilsəydim, həsrətində olduğum, işğaldan sonra heç bir dəfə də olsa röyamda görə bilmədiyim anamın məzarını ziyarət edərdim.

Deyirlər rəhmətə gedənin ruhu hər şeydən xəbərdar olur? Görəsən anam bilir ki, torpaqlarımız əldən gedib? Bilməmiş olmaz.

Mənə elə gəlir ki, bizdən ən çox inciyən hamımızın ana dediyimiz torpağımızdır. Allah haqqı unutmamışıq, anamız torpaq səni. Ürəyimizin nisgili, gözümüzün giləsində qərar tutan yaş damcıları, aramsız sızıldayan ürəyimiz, "Daş düşdüyü yerdə ağır olar" kəlamının hikməti, xatirələrimiz bizi üzür. Amma gözləməkdən başqa çarəmiz yoxdur. Deyirlər insanda ən son ölən ümiddir. O ümidin ətəyindən elə bərk-bərk yapışmışıq ki, dırnaqlarımız düyünlənmiş əlimizi qanadıb. Olsun. Dözəcəyik, o günü görmək üçün, dözəcəyik, o yerlərə qayıtmaq üçün! Dözəcəyik, bağrı yarılmış torpağımıza məlhəm olmaq üçün! Çözək düşmüş xatirələrin düyününü aça-aça o yerlərə dönəcəyik. Bax, həmin gün bütün bayramların zirvəsi olacaq!"

Südabə yaşlı gözlərini silib:

- Hamımızın ürəyindən keçəni yazıb, - dedi.

Artıq Rasim müəllimənin tapşırığını yerinə yetirmişdi. Südabə onun əlindən yapışıb çadır sinfi tərk etdi. Amma ürəyində bir dünya nisgillə. Gələndə o yükü yox idi. Məryəmin yazdıqları onun da dünyasını qaraltmışdı. İrəlidə isə hələlik işıq görünmürdü.

Getdikcə vəziyyət düzəlirdi. Rüxsarə müəllimə Rasimə xüsusi şəfqətlə yanaşırdı. Ən başlıcası səbirlə. Yoruldum deyəndə dayanırdı. Həvəsim yoxdur deyəndə maraq üçün əlavə vasitəyə müraciət edirdi. Rasim oxumağa başlayanda isə… Əvvəlcə hecalarla oxudu. Südabənin sualedici nəzərlərini hiss edən müəllim Rasim ruhdan düşməsin deyə ucadan "afərin" deyirdi. Bu həm də Südabəyə bir mesaj idi. Deməк, çəkilən zəhmət hədər getməmişdi.

Çox çəkmədi ki, Rasim əməlli-başlı yazıb-oxumağa başladı. Südabə onun ilk dəfə yazdığı cümlələri dəftərlə birlikdə çadırın "divarı"na sancaqladı. Bəlkə çoxları üçün bu adi bir iş idi. Lakin Südabə Rasimin yazıb-oxuması ilə qürur duyurdu.

❖ ❖ ❖

Rasimgil də qaçqınlar üçün salınmış yeni qəsəbəyə köçdülər. Murad doxdur ilk zamanlarda o yerlərdən aralanmaq istəməsə də, ayrı əlacı qalmırdı. Əvvəlcə istədi ki, cəbhə xəttinə yaxın rayonlardan birində ev kirayələyib yaşasın. Çünki hərdən külək əsəndə o tərəfdən sanki nəyisə özü ilə gətirərdi. O nəyisənin nə olduğunu Muradın özü də bilmirdi. Bircə ona elə gəlirdi ki, o külək elə bil əzizlərinin məzarının üstündən əsib gəlir. Lakin son vaxtlar o tayda görk üçün keçirilən hərbi təlimlər, açılan atəş səsləri, meşəyə, ota-aləfə vurulan od yanğına çevrilib onun can evini elə qarsırdı ki, ağrısı dözülməz olurdu. Adamın, millətin düşməni insanlıqdan tam kənar olmasa nə var ki! Bunlar sanki bəşər övladı deyildilər. Yalnız yandırmaq, dağıtmaq, vəhşilik etmək üçün yaranmışdılar. Hikkələrini daşdan, divardan, dini-ibadətgahlardan, tarixin özündən alırdılar. Tarixi olmayan bir toplum bunun qisasını çox zəngin mədəniyyətdən, qədimliyin isbatı olan abidələrdən alırdı. Tarix belə barbarları yəqin ki, heç zaman görməyib. Adama deyərlər ki, iddia edirsiniz ki, guya bura sizin torpaqlarınızdır. Bəs onda nədən ona qarşı belə amansızsınız? Yandırırsınız, dağıdırsınız, məhv edirsiniz. Qisasınızı daş altında yatan ölülərdən alırsınız. Yəqin ki, erməni yeganə millətdir ki, qəbirləri belə qazıb sümükləri çıxarır. Görəsən bu insanların başqa məşğuliyyəti olmayıb? Amma bir həyat həqiqəti var, insan özünün olanına heç vaxt qəsd etməz. Onun məhvinə çalışmaz. Meşədən, daşdan, divardan qisas almaz.

Murad doxdur da Rasimgilin köçdüyü qəsəbədə məskunlaşdı. Lakin eyni binada deyil, yanaşı binalarda qonşu oldular. Murad doxdur Rasimə elə öyrəşmişdi ki, onu görməyəndə darıxırdı. Rasim boylu-buxunlu bir oğlan olmuşdu. Oxuması, yazması zəif olduğu üçün isə orta məktəbi birtəhər başa vurdu.

Artıq Südabə də yaşlanmışdı, ayaq ağrılarından əziyyət çəkirdi. Ailənin dolanışığı üçün evə pul gəlməli idi. Təkcə dövlətin etdiyi yardımlarla keçinmək olmazdı. Onlar Murad doxdura da yük olmaq istəmirdilər. Qəsəbədəki tibb məntəqəsində həkim işləyən Murad onlara hər zaman arxa-dayaq dururdu. Lakin bunu Rasimin, Südabənin utanmaması üçün necə edəcəyinin yolunu axtarırdı. Axtarırdı və tapdı.

Rasim Murad doxdurun maşınına həvəs göstərirdi. Murad doxdur qıymasa da, maşını özü yuyurdu. Hərdən usta lazım olanda Murad doxdurun vaxtı olmadığı üçün maşının yanında o dayanırdı. Rasimin maşına və usta işinə marağını görən Murad doxdur:

- Rasim, bəlkə maşın ustası olasan, - dedi.

- Mən, usta…

- Nə olar ki, kim peşəsini qeybdən öyrənir (anasının qarnında sözünü işlədib, Rasimin yarasının qaysağını qopartmaq istəmədi. O qanayan yaranın acısı ona yaxşı tanış idi).

Nəhayət ki, razılığa gəldilər və Murad doxdur Rasimi Şikar ustaya şagird verdi.

❖ ❖ ❖

Südabə həmin günü yəqin ki, heç vaxt unutmayacaqdı. Artıq Rasim 6 aydan çox idi ki, usta yanında işləyirdi. İlk maaşını evə gətirdiyi gün Südabə az qaldı qol götürüb oynaya. Rasimin stolunun üstünə qoyduğu pula möcüzə kimi baxırdı. Başını göyə qaldırıb "İlahi, səni tanımayana lənət. Bu mənim balamın ilk maaşıdır", - deyib yaşaran gözlərini əlinin arxası ilə sildi.

- Ana, götür özünə nə istəyirsən al, - dedi Rasim.

Həmin gecə pul elə stolun üstündəcə qaldı. Südabə ona Rasimdən gələn bir möcüzə, Rasim isə ona analıq etmiş, hər cəfasına dözmüş, yeni yaşam bəxş etməyə səbəb olmuş Südabə anasına sevinc payı kimi baxırdı.

Südabənin əli-ayağı yerə dəymirdi. Bu pullar təkcə onların dolanışığını qaydaya salmırdı, həm də o deməkdir ki, ona bir şey olsa, Rasim çətinlik çəkməyəcək. Həyatına davam edə biləcəkdir…

…Südabə yoxsul bir ailənin qızı idi. Atası əlsiz-ayaqsız, yəni bacarıqsız adam idi. Ailəni anası Püstə dolandırırdı. Həyətdə əkdiyi tərəvəzi, yayda isə bağlarında olan meyvəni yığıb erkəndən bazara aparardı. Uşaqları onun yolunu səbirsizliklə gözləyərdilər. Çünki Püstə hər bazardan qayıdanda onlara pryanik alıb gətirərdi. Bəzən ağ, bəzən də çəhrayı rəngdə olan pryanikləri uşaqlar dünyanın ən ləziz təamı kimi yeyərdilər. Südabə hər zaman öz payını saxlayardı. Bilirdi ki, qardaşı Şirzad pryaniki çox xoşlayır.

Şirzad xəstəhal uşaq idi. Çox vaxt qızdırması olurdu. Onda heç nə yeyə bilmirdi. Amma bir dəfə neçə günlük aclıqdan sonra bacısının verdiyi pryaniki yemişdi. Onda Südabə elə sevinmişdi ki…

Baxımsızlıqdan, müalicə üçün pulun olmamasından Şirzadın xəstəliyi get-gedə şiddətləndi. Artıq evdə hamı onun iniltisinə alışmışdı. Çünki əllərindən gələn başqa heç nə yoxuydu. Kənd həkim məntəqəsindəki feldşerin verdiyi dərmanlar da kara gəlmirdi.

Bir gün isə onun iniltisi kəsildi. Anasıgil elə bildilər ki, verdikləri dərmanın faydası olub. Püstə ürəyində şükür edib kiçik qızını çölə hayladı:

- Qardaşın yatır, səs eləmə.

Sudan qayıdan Südabə ehmalca səhəngi yerə qoyub ağrıyan çiynini oxaladı. Əyni yuxa olan bacısına:

- Niyə çöldəsən?, - dedi.

- Anam dedi ki, Şirzad yatır, səs eləmə.

- Nə yaxşı, - deyib içəriyə girən Südabə barmaqlarının ucunda qardaşı yatan çarpayıya yaxınlaşdı və "ana" deyib qıyya çəkdi. "Ana, Şirzad…" Arxasını gətirə bilmədi. Yorğanı onun üstündən çəkəndə qardaşının əlindəki pryanik sürüşüb yerə düşdü. Bu, onun yeməyib saxladığı, qardaşına verdiyi pryanik idi.

Qardaşından bir neçə ay sonra atası rəhmətə getdi. Sonra isə… Anası yenə də həyətlərindəki almanı yığıb bazara aparmışdı. Həmişə bazara tək gedən anası bu dəfə balaca Qətibəni də özü ilə aparmışdı. Məktəblərin açılmasına az qalırdı. Ona əyin-baş almaq lazım idi.

(Ardı var)

# Tovuzda Zəfər Gününə həsr edilmiş intellektual turnir keçirilmişdir

Tovuzda rayon icra hakimiyyəti və Gənclərin İnkişaf və Karyera Mərkəzinin Tovuz nümayəndəliyinin birgə təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr edilmiş intellektual turnir keçirilmişdir.







20-yə yaxın komandanın iştirak etdiyi turnir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və vətənimizin bütövlüyü uğrunda canını fəda edən igidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Sonra oyun iştirakçılarına 44 günlük Vətən müharibəsinə, milli qəhrəmanlara və Qarabağın tarixinə dair suallar verilmişdir. Gərgin mübarizə şəraitində keçən bilik yarışının sonunda Tovuz Dövlət Aqrar İnkişaf Mərkəzinin komandası birinci, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi Tovuz şöbəsinin komandası ikinci, Tovuz Rayon İcra Hakimiyyəti başçısının İƏD üzrə nümayəndəliklərini təmsil edən komandası üçüncü yerə çıxmışdır.

Turnirin sonunda qaliblərə Tovuz Rayon İcra Hakimiyyətinin və Qazax-Tovuz Regional Təhsil İdarəsinin kubok, medal və hədiyyələri təqdim olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***





## OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan "Naxçıvan" gəmisinin MAN 5S26MC baş və MAN D2842 LE301 köməkçi mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 21 noyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəh., Mikayıl Useynov küç. 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***


# 180 min mənzilin istilik problemi

## Mərkəzləşdirilmiş sistem hələ də sovet dövrünün normativinə əsaslanır

*Əvvəli 1-ci səh.*

Ekspertlərin fikrincə, bu, iri şəhərlər üçün ən optimal və təhlükəsiz variantdır. Lakin mərkəzi istilik sisteminin hava şəraitindən asılı olmayaraq hər il eyni vaxtda - noyabrın 15-dən aprelin 15-dək fəaliyyətdə olması vətəndaşları razı salmır.



### Niyə 15 noyabr?

Ölkəmizdə havanın temperaturu, adətən, oktyabrın sonundan etibarən aşağı düşdüyü üçün artıq həmin vaxtdan mənzillərin isidilməsinə ehtiyac yaranır. Ona görə də vətəndaşlar hesab edirlər ki, mərkəzi istilik sisteminin noyabrın 1-dən işə salınması daha məqsədəuyğun olardı. Vətəndaşları narahat edən digər məsələ isə batareyalara verilən istiliyin dərəcəsinin az olmasıdır. Çünki havalar soyuduqca mərkəzi istilik sistemindən batareyalara daha az istilik buraxılır ki, nəticədə mənzillər lazımi səviyyədə isinmir.

Paytaxt sakini Sevinc Abbasova deyir ki, istilik batareyaları işə düşənə qədər mənzillər artıq çoxdan soyuq olduğuna görə onlar ən azı 2-3 həftə elektrik enerjisi ilə çalışan qızdırıcılardan istifadə etməyə məcburdurlar. Bu isə əlavə xərc tələb edir. "Həm də payız aylarında qrip infeksiyaları geniş yayılır, havaların soyumağa başlaması ilə xəstələnənlərin sayı artır. Üstəlik, ev soyuq olanda vəziyyət lap ağırlaşır. Bundan başqa, istiliyin dərəcəsi də bizi qane etmir. Otaqlar tam isinmədiyi üçün sərt qış aylarında qızdırıcılardan istifadə edirik. Bəzən isə soyuq aylarda xətlərdə qəzalar baş verir, bu, hətta mövsüm ərzində tez-tez təkrarlanır. Qəza baş verəndə mərkəzi istilik sisteminin batareyaları ya saatlarla, ya da bir neçə gün işləmir", - deyə vətəndaş bildirir.

Bakının Nizami rayonunda yaşayan Xalid Aslanov isə qeyd edir ki, mərkəzi istilik sistemi, əslində, noyabrın 15-də işə düşməli olsa da, bəzən gecikdirilir: "Ayın 20-də və ya daha sonrakı günlərdə istilik sistemi işə düşür. Əvvəlki günlərdə batareyaların mənzilləri qızdırmağa, ümumiyyətlə, gücü çatmır. Yalnız dekabrdan başlayaraq mənzildə normal istilik hiss edilir. Bəzən isə hansısa qonşu xətdə təmir işi apardıqda və ya səhvən kranı bağladıqda binadakı bütün mənzillərdə problem yaranır. Problemlərin aradan qaldırılması üçün aidiyyəti qurumlara müraciət etsək də, vaxtında həll olunmur".

### Mərkəzi istilik sistemi təlimatlara yox, hava şəraitinə uyğun fəaliyyət göstərməlidir

Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Fazil Mustafa bildirib ki, mərkəzi istilik sistemi təlimatdan asılı olmayaraq, hava soyuyan kimi işə düşməlidir: "Nəzərə almaq lazımdır ki, vətəndaşlar istifadə etdikləri istilik üçün kommunal ödəniş edirlər. Burada qənaətdən söhbət gedə bilməz. Ödənişli əsaslarla olduğu üçün vətəndaş nə qədər çox istilik istehlak edərsə, onun müqabilində də pul ödəyəcək. Mənzilləri xüsusilə uşaqların və qocaların səhhətinə ziyan verəcək dərəcədə soyuq saxlamaq olmaz".

Deputatın sözlərinə görə, mərkəzi istilik sisteminin konkret olaraq noyabrın 15-dən aprelin 15-dək fəaliyyətdə olması kimi təlimatlar doğru deyil: "Havanın temperaturu aşağı düşəndə dağətəyi ərazilərdə olduğu kimi, digər yerlərdə də noyabrın 1-dən etibarən batareyalar işə salınmalıdır. Onsuz da mərkəzi istilik sistemi yay aylarından etibarən istismara hazır vəziyyətə gətirilir. İstənilən halda mənzillərin qızdırılması ilə bağlı qərar hava şəraitinə uyğun qəbul edilməlidir".

### Yeni mexanizm hazırlana bilər

"Azəristiliktəchizat" ASC-dən qəzetimizə verilən məlumata görə, mərkəzi istilik sisteminin hava temperaturuna müvafiq olaraq işə düşməsi üçün qurum tərəfindən müəyyən mexanizm hazırlana bilər. İstilik mövsümünü həmin mexanizmə əsasən müəyyənləşdirmək olar. Lakin bu bir az uzunmüddətli layihədir.

"Hazırda payız-qış mövsümündə sosial təyinatlı obyektlərə istilik verilməsi qanunvericilklə tənzimlənir. Qanunvericiliyə əsasən, mərkəzi istilik sisteminin paytaxtda və dağətəyi olmayan ərazilərdə noyabrın 15-də, dağlıq rayonlarda isə noyabrın 1-də işə düşməsi nəzərdə tutulub. Lakin istilik mövsümünün başlanması ilə bağlı mütərəqqi mexanizmlərin hazırlanması gündəmdədir. Mövsüm ərzində yüksəkkeyfiyyətli istiliklə bağlı isə heç bir problem olmayacaq", - deyə qurumun məlumatında qeyd edilib.

Bildirilib ki, hazırda respublika üzrə 180 minə yaxın mənzildə mərkəzi istilik sistemindən istifadə edilir. Təxminən 2100 sosial və təsərrüfat təyinatlı abonentlər də var. Həmçinin 282 məktəb, 167 uşaq bağçası və digər sosial təyinatlı müəssisələr də mərkəzləşdirilmiş qaydada qızdırılır. Bu il abonentlərin sayında artım nəzərdə tutulmur. Ümumiyyətlə, mərkəzi istilik sistemi çoxmənzilli bina və obyektlər üçün daha sərfəli hesab edilir. Ona görə də belə istilik sistemləri əsasən şəhər və qəsəbə tipli ərazilərdə və ya sosial obyektlərdə quraşdırılır.

### Kombilər şəhərin ekoloji sisteminə ziyan vurur

Müşahidələr, ötən illərin təcrübəsi göstərir ki, mərkəzi istilik təchizatı ilə bağlı qayğılar bitmir. Lakin vaxtilə Azərbaycanda bu sahədə böyük təcrübə olub. Bir sıra qonşu ölkələrdə hazırda bu sahədə olan vəziyyət də onu deməyə əsas verir ki, istiliklə bağlı qayğıları aradan qaldırmaq mümkündür.

Əslində, payız-qış mövsümündən əvvəl binadaxili və mənzildaxili istilik sistemləri təkrar yoxlanılmalı, sistemlərdə yaranmış su sızmaları və axıntılar dərhal aradan qaldırılmalı, əvvəlki mövsümdə istilikvermə qabiliyyəti zəif olan qızdırıcı cihazlar yuyularaq təmizlənməli və ya yenisi ilə əvəz olunmalı, həmçinin tutulmalar olan boru və dayaqlar dəyişdirilməlidir. Bütün bunları gecikdirib payız aylarında görəndə, əlbəttə ki, istilik təchizatında problemlər yaşanacaq.

Bəzi vətəndaşlar məhz bu problemlərdən dolayı və mərkəzi istilik sistemi gec işə düşdüyü üçün kombilərdən istifadə edirlər ki, bu da ailələrin xərcini artırır. Digər tərəfdən, hər eyvanda kombi borusunun görünməsi binaların estetik görüntüsünü pozmaqla yanaşı, ekoloji cəhətdən də zərərlidir.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Netanyahu yenidən hakimiyyətə gəlir

## İsraildə sağçı və radikallardan ibarət hökumət qurula bilər

İsraildə parlamentə - Knessetə seçkilər başa çatıb. Onların nəticəsi Benyamin Netanyahunun əleyhdarlarını məyus edib.



Onun rəhbərlik etdiyi "Likud" partiyası müttəfiqləri ilə birlikdə sorğuların vəd etdiyindən daha çox səs toplayaraq qalib gəlib. Yalnız populyarlığı gözləniləndən xeyli yüksək olan dini partiyalarla mübahisə Netanyahunun baş nazirliyə qayıtmasına mane ola bilər.

İsrailin hazırkı baş naziri Yair Lapid səsvermənin nəticələrini şərh etməkdən boyun qaçırır. O, tərəfdarlarını yekun məlumatları gözləməyə, sonra hansısa nəticələr çıxarmağa çağırıb.

"The Times of Israel" qəzeti yazır ki, müxalifət lideri, keçmiş baş nazir Benyamin Netanyahunun bloku növbədənkənar parlament seçkilərində Knessetdəki 120 yerdən 65-ni qazandıqdan sonra liderliyini qoruyub saxlayır. "Likud" indiyədək 1 milyondan çox səs (23 faiz) toplayan yeganə partiyadır. Hazırda onun 32 deputat mandatı var.

Artıq əminliklə söyləmək olar ki, Lapidin nikbinliyinə əsas yoxdur. Onun partiyası cəmi 18 faiz səs toplayıb. Bu, sosioloqların proqnozlaşdırdığından azdır.

### Dindarların uğuru

Netanyahunun partiyası, öz müttəfiqləri - ifrat sağçı dini partiyalar bloku "Dini sionizm", ifrat ortodoksal və ərəb ölkələrindən köçmüş yəhudilərdən ibarət ŞAS, habelə seçiciləri Avropanın mötədil dindar yəhudiləri olan "Tövrat Yəhudiləri" partiyaları ilə birlikdə parlamentdə çoxluq təşkil edə bilər. Lapidin yarada biləcəyi koalisiyanın isə cəmi 50-yə yaxın mandatı var. Bütün bunlar Netanyahunun baş nazir kürsüsünə qayıtmasını mümkün edir.

Qeyd edək ki, seçkilərdə "Dini sionizm" böyük uğur qazanıb. O, 14 mandat alacaq. Bu siyasi qüvvənin liderləri Besalel Smotriç və İtamar Ben-Qvir hökumətin tərkibinə daxil edilməli olacaqlar. Eyni zamanda hər ikisi, xüsusən də Ben-Qvir ifrat sağçı kimi tanınırlar. Bu amil isə hökumətin formalaşmasını xeyli çətinləşdirə bilər.

ŞAS Knessetdə 11 mandata, "Tövrat Yəhudiləri" isə 8 mandata yiyələnib.

Hazırkı Baş nazir Yair Lapidin "Yeş Atid" partiyası 24 yerlə ikincidir. Ölkənin müdafiə naziri Benni Qantsın "Dövlət düşərgəsi" bloku da (12 mandat) Netanyahunun rəqibi kimi çıxış edib. "Raam" Ərəb Partiyası isə 5 mandata sahib olub. Aviqdor Libermanın "İsrail bizim evimizdir" və "Avoda" Fəhlə partiyaları, habelə ərəblərin HADAŞ-TAAL bloku hərəyə 4 yer qazanıb.

### Sosioloqları düşündürən sual

İndi sosioloqları düşündürən bir sual var: hansı səbəblərdən sağlar belə uğur qazanıblar? Guman ki, burada obyektiv amillər rol oynayıb.

Məsələn, bildirilir ki, sağları birləşdirən, lakin Netanyahuya qarşı çıxan "Yamina" alyansı dağıldıqdan sonra onun elektoratı əsasən "Dini sionizm"ə üz tutub.

Bundan əlavə, ifrat sağçıların proqramlarının əsas bəndi də öz rolunu oynayıb. Belə ki, onlar terrorçulara qarşı sərt mübarizə üsullarını vəd ediblər.

Ölkə, demək olar ki, terror təhlükəsi şəraitində yaşamağa öyrəşib, lakin buna baxmayaraq, İsrail cəmiyyətində davamlı hücumlardan hələ də müəyyən yorğunluq var.

Nəhayət, cəmiyyətdə dindar yəhudilərin sayının artması da öz rolunu oynayıb. Hazırkı seçkilər yüksək fəallıqla keçirilib - 71,3 faiz. İlkin məlumatlara görə, bu nəticəni əsasən dindar ailələrdən olan gənclər təmin ediblər.

Qeyd edək ki, bu, 2015-ci ildən bəri ən yüksək göstəricidir.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

Noyabrın 3-ü saat 20:15-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun Bəzirxana yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutublar.

AZƏRTAC Müdafiə Nazirliyinə istinadla xəbər verir ki, Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.





BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6535
Sifariş 3127
Qiyməti 40 qəpik